www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 noyabr 2015-ci il Bazar ertəsi № 266 (6294) Qiymət 40 qəpik

**Xəbər**

## Masallıda ana 8 aylıq körpəsi ilə yoxa çıxıb

yazısı səh.14-də

**Gündəm**

### "Türkiyə Qarabağda antiterror əməliyyatına başlaya bilər"



XİN başçısının ardınca baş nazir Əhməd Davudoğlu da Bakıya gəlir; qardaş ölkədən Azərbaycana intensivləşən siyasi səfərlərin ilginc pərdəarxası var...

yazısı səh.9-da

### "Su-24 böhranı": Putin qapıları bağladı, İlham Əliyev açdı...

yazısı səh.3-də

*İran səfiri:*

### "Nardaran hadisələrinə heç bir bağlılığımız yoxdur"

yazısı səh.3-də

### Eldar Mahmudovun dəstəsinə hansı hakimlər kömək edib?

yazısı səh.11-də

### "Erməni soyqırımı" sənədi Rusiya parlamentinə gətirilsə...

yazısı səh.5-də

### Avrokomissardan önəmli Azərbaycan açıqlaması

yazısı səh.2-də

### Mövlud Çavuşoğlu düzmü dedi: Nardaran hadisələri terrordurmu? - ekspert rəyi

yazısı səh.10-da

### Macarıstanın Azərbaycandakı konsulu və ya mister "səs-küy"...

yazısı səh.11-də

### Baş Prokurorluq Bakı vağzalındakı müəmmalı ölüm işini nəzarətə götürdü

yazısı səh.10-da

### Qadın sürücülər içki şüşəsində niyə boğulur? - araşdırma

yazısı səh.15-də

### Bu şəhərdə küçəyə çıxan qadınlar zorla ərə verilir

yazısı səh.13-də

## Ölkəni həyəcanda saxlayan hadisələr sönməyə üz tutur

# NARDARANDA MEYDAN BOŞALDILDI, BARRİKADALAR SÖKÜLDÜ - SON GƏLİŞMƏLƏR

Kənd ağsaqqallarının toplantısında yekun qərar verildi; sakinlər işıq, su məsələsinin həll ediləcəyinə, yollardakı postların götürüləcəyinə ümid edirlər; **Məşədi Natiq:** "Məsələ dinc yolla həllini tapmalıdır..."



yazısı səh.3-də

## "Mehriban düşmənlər" üçün kritik anlaşma fürsəti - gözlər yenə Parisdə...

"Su-24" insidentindən sonra ilk dəfə dünya liderləri Fransa paytaxtında bir araya gələcəklər; Azərbaycan və Ermənistan prezidentlərinin də qatılacağı sammitdən sonra dünya ya qismən rahat nəfəs alacaq, ya da...

yazısı səh.8-də



Elmira Axundova

### Deputat oğlunun sensasion danışığı ortaya çıxdı

yazısı səh.6-da



*Fazil Mustafa:*

### "Türkiyəyə yaradılan problem Azərbaycana yaradılan problemdir"

yazısı səh.7-də



### Ukraynadakı adam oğurluğunda Akif Çovdarov izi

yazısı səh.10-da

**30 noyabr 2015**



## Rusiya təyyarəsi İsrailin də hava sərhədini pozdu

**İsrail müdafiə naziri açıqlama verib. Musavat.com xəbər verir ki, bu barədə məlumat İsrailin "Haaretz" qəzetində yer alıb. Məlumata görə, İsrail müdafiə naziri Moşe Yalon Rusiyaya aid qırıcı təyyarənin ölkələrinin hava sərhədini pozduğunu bildirib. Onun sözlərinə görə, rus qırıcı təyyarəsi 1.6 kilometr keçərək İsrail hava ərazisinə daxil olub.**

Nazirin bildirdiyinə görə, onlar pilota 3 dəfə xəbərdarlıq ediblər. Bundan sonra təyyarə İsrail hava ərazisini tərk edib.

## Azərbaycanda qandonduran olay: gənc oğlanın əllərini balta ilə kəsdilər

**Zaqatalada 26 yaşlı gəncə xüsusi amansızlıqla xəsarət yetirilib. Anspress xəbər verir ki, noyabrın 29-na keçən gecə iki Zaqatala rayonu sakini Vüsal Bəşirovun qollarını bilək nahiyəsindən kəsiblər.**

Hər iki əlini itirən Vüsal Bəşirovun atası Vahid Bəşirovun verdiyi məlumata görə, oğlu ilə yoldaşlıq münasibətləri olan Rəşad adlı şəxs axşam saatlarında Vüsalı evdən çağıraraq onunla söhbət etmək istədiyini bildirib.

Vüsalın atasının narahat olduğunu görən Rəşad ona deyib ki, oğlu ilə sadəcə hal-əhval tutmaq istəyir. Bundan sonra Rəşad və onunla olan digər rayon sakini Vüsalı maşınla rayona yaxın ərazidə yerləşən asma körpü deyilən çaylağa aparıblar. Bundan yarım saat sonra isə həmin şəxslər Vahid Bəşirova zəng vuraraq, oğlunun əllərini biləkdən kəsdiklərini söyləyiblər. Eyni zamanda bildiriblər ki, əgər oğlun sağ qalıbsa, indi xəstəxanaya aparılır, gedib orda görə bilərsən.

Dərhal xəstəxanaya gələn ata oğlu ilə xəstəxananın girişində qarşılaşıb. Həkimlər ağır vəziyyətdə olan gəncə dərhal ilkin tibbi yardımlar göstərib və üzərində cərrahiyyə əməliyyatı aparıblar. Hazırda 26 yaşlı Vüsal Bəşirovun vəziyyəti ağırdır.

Cinayət zamanı şübhəli şəxslər baltadan istifadə ediblər. Atası həmçinin yeganə övladı olan oğlunun bir müddətdir vərəm xəstəliyindən əziyyət çəkdiyini də bildirib.

Faktla bağlı Zaqatala rayon polis şöbəsindən bildirilib ki, hələlik hadisəni törədənlərdən heç kim saxlanılmayıb. Hazırda şübhəli şəxslərin tutularaq, istintaqa cəlb olunması ilə əlaqədar əməliyyat tədbirləri keçirilir.

## Yaponlar Paris faciəsinin Yaponiyada təkrarlanacağından qorxur

**Yaponların təqribən 80 faizi Parisdə törədilmiş terror aktlarının Yaponiyada təkrarının mümkünlüyünə inandıqlarını bildirib. Bunu Kyodo agentliyinin apardığı ictimai sorğunun nəticələri təsdiq edir.**

Respondentlərin 79,7 faizi güman edir ki, Fransada törədilmiş terror aktlarının Yaponiyada təkrar olunması tamamilə mümkündür. Bundan əlavə, rəyi soruşulanların 56,3 faizi Paris faciəsindən dərhal sonra hökumətin fövqəladə iclasının keçirilməməsindən narazılıqlarını bildirib.

Baş nazir Şinzo Abe başda olmaqla Yaponiya hökuməti Parisdə baş vermiş faciədən sonra əhalinin təhlükəsizliyinin təmin olunması ilə əlaqədar tədbirlərin gücləndirilməsi ilə bağlı müxtəlif planlar barədə dəfələrlə bəyan edib.

Rəsmi Tokio Yaponiya Xarici İşlər Nazirliyi yanında Beynəlxalq Terrorizm Haqda İnformasiyaların Toplanması Mərkəzinin yaradıldığını elan edib. Eyni zamanda, hökumətdən bildirilir ki, 2020-ci ildə Tokio Yay Olimpiya Oyunları zamanı qonaqların və idmançıların təhlükəsizliyinin təmin olunması ilə bağlı kompleks tədbirlər planı barədə də iş davam edir /report.az/.

## Bu gün Bakıda yağmursuz hava olacaq

**Bu gün Bakı və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz keçəcək, gecə və səhər bəzi yerlərdə duman olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentində bildirilib ki, mülayim şimal-qərb küləyi gündüz cənub küləyi ilə əvəz ediləcək. Havanın temperaturunun gecə 7-10, gündüz 12-15 dərəcə isti olacağı gözlənilir.**

Azərbaycanın bölgələrində yağış yağacağı, bəzi yerlərdə sulu qar, dağlıq ərazilərdə qar yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim qərb küləyi əsəcək.

# Avrokomissardan önəmli Azərbaycan açıqlaması

"Azərbaycan qazına çıxış təmin edə bilərik..."

**Avropa Komissiyası enerji təminatında təhlükəsizliyi prioritet məsələ hesab edir və bu məqsədlə enerji nəqli marşrutlarının diversifikasiyasını vacib sayır. Report xəbər verir ki, bunu Avropa Komissiyasının enerji və iqlim dəyişikliyi üzrə komissarı Migel Arias Kanyete "Euronews" telekanalına müsahibəsində deyib.**



Avropanın Rusiya qazından asılılığının azaldılması mövzusuna toxunan Kanyete qeyd edib ki, Avropa Komissiyası İtaliyanı Azərbaycanla birləşdirən Cənub Qaz Dəhlizi kimi layihələrə dəstək verir. "Beləliklə, biz Azərbaycan qazına çıxışı təmin edə bilərik" - deyə Avrokomissar vurğulayıb.

## Rusiyalı pilotun cənazəsi Türkiyəyə gətirildi

**Noyabrın 24-də Türkiyə-Suriya sərhədində vurulan "Su-24" təyyarəsinin pilotunun cənazəsi Suriyadan Türkiyəyə gətirilib. Report-un "Hürriyet" qəzetinə istinadən verdiyi xəbərə görə, bunu Türkiyənin Baş naziri Əhməd Davutoğlu Brüsseldə jurnalistlərə bildirib.**

Onun sözlərinə görə, Oleq Peşkovun cənazəsi Bakı vaxtı ilə 03.00-da artıq Türkiyənin Hatay vilayətinin ərazisində olub və qısa zamanda Rusiyaya təhvil veriləcək. Pilotun nəşinin dəfnə hazırlığı xristian din xadimlərinin iştirakı ilə mənsub olduğu dini ənənələrə uyğun olaraq həyata keçirilib.

Davutoğlu bir daha bəyan edib ki, rəsmi Ankara Moskva ilə münasibətlərin gərginləşməsində maraqlı deyil.

## Səudiyyə Ərəbistanı kütləvi edam təşkil edəcək

**Səudiyyə Ərəbistanı kütləvi edam planları qurur. Musavat.com xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə məlumatı Beynəlxalq Əfv Təşkilatı yayıb. Təşkilat iddia edir ki, Səudiyyə Ərəbistanı bir gündə ən az 50 nəfərin başını kəsərək edam etməyi planlayır.**

Məlumata görə, edamların səbəbi terror cinayətləri ilə bağlıdır. Təşkilat verdiyi açıqlamada, edam edilənlərin "əl-Qaidə" ilə əlaqədə olanlar və hökuməti devirməyə cəhd edənlərdən ibarət olduğunu qeyd edib. O da bildirilir ki, qurbanların üçü azyaşlıdır.

## Türkiyənin Moskvadakı səfirliyi ruslara çağırış etdi



**Türkiyənin Moskvadakı səfirliyi Rusiyanın hakimiyyət orqanlarından bu ölkədə yaşayan Türkiyə vətəndaşlarına qarşı təzyiqlərə son qoyulmasına çağırıb. Modern.az xəbər verir ki, son günlər Rusiyanın müxtəlif regionlarında yaşayan iş adamı, fəhlə və tələbə kimi müxtəlif təbəqələrə mənsub Türkiyə vətəndaşlarından səfirliyə rəsmi qurumlardan özlərinə qarşı təzyiq hiss etdikləri barədə şikayətlər daxil olmaqdadır.**

Bu şikayətləri nəzərə alan səfirlik təzyiqlərə son qoyulması tələbi ilə çağırış edib.

## Rusiyada azərbaycanlı qadın iki körpəsini öldürüb intihar etdi

**Rusiyanın uşaq hüquqları üzrə səlahiyyətli nümayəndəsi Pavel Astaxov İrkutskda azərbaycanlı olduğu ehtimal olunan qadının iki azyaşlı uşağı və özünü 8-ci mərtəbədən atması hadisəsini nəzarətə götürüb.**

Anspress xəbər verir ki, P.Asraxanov məsələ ilə bağlı açıqlama verib: "Biz bu faciənin bütün detallarını araşdırırıq. Hadisəyə nəyin səbəb olmasını müəyyən etməliyik. Bilməliyik ki, bu dəhşətli addımı atmağa nə vadar edib - psixi pozğunluq, sosial səbəblər, yoxsa başqa bir şey? Əfsuslar olsun ki, bu ilk hal deyil".

Noyabrın 28-i İrkutskun Novo-Lenino inzibati vilayətində 32 yaşlı ana əvvəlcə 2 və 4 yaşlı iki oğlunu daha sonra isə özünü 8-ci mərtəbədən atıb. Aldığı xəsarətlərdən qadın yerindəcə dünyasını dəyişib. Hər iki uşaq kritik vəziyyətdə xəstəxanaya çatdırılsa da 2 yaşlı oğlanın həyatını xilas etmək mümkün olmayıb. Onun 4 yaşlı qardaşı hazırda İvano-Matreninskaya xəstəxanasında suni nəfəs aparatına qoşulub. Ailə başçısı hadisə baş verən zaman işdə olub.

Hadisə zamanı küçədə polislər olub. Onlar təcili tibb yardım çağırıblar və zərəçəkmişlərə ilk tibbi yardım göstəriblər. Qonşuların sözlərinə görə, ailə Azərbaycandan olub.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:




## Taliban 12 yaşlı qızı canlı bomba kimi böyüdüb

**Əfqanıstanlı 12 yaşlı uşaq polisə dəhşətli ifadə verib. Musavat.com xarici KİV-ə istinadən xəbər verir ki, Əfqanıstanın Fəryab əyalətində üstündəki bomba ilə birlikdə təslim olan 12 yaşlı qız polisə təslim olub. Fəryab polis müdiri qızın ifadələri ilə bağlı açıqlama verib.**

Balaca qız polisə verdiyi ifadədə ailəsinin onu "Taliban"a 10 min dollar qarşılığında satdığını bildirib. Kamikadze kimi böyüdülmək üçün "Taliban" qruplaşması onu öz düşərgələrinə aparıb.

Balaca qız ifadəsində "Düşərgədə mənim kimi onlarla uşaq var. Onlar kafirləri partlatmaqla cənnətə gedəcəyimizi dedilər. Mənə də polis mərkəzini partlatmaq tapşırıldı. Mən isə təslim olmağı seçdim" deyib.

## Kliçko dünya çempionu titulunu itirdi

**Britaniyalı boksçu Tayson Füri ukraynalı Vladimir Kliçkonu məğlub edərək İBF, İBO, WBO və WBA versiyaları üzrə dünya çempionu tituluna sahib çıxıb. Döyüş noyabrın 29-da gecə Düsseldorfda keçirilib.**

Britaniyalı öz rəqibinə xal hesabı ilə qalib gəlib. 12 raundun yekununda hakimlər üstünlüyü T. Füriyə veriblər. Hakimlərin rəyi belə olub: 115-112, 115-112, 116-111 T. Fürinin xeyrinə.

39 yaşlı Kliçko ilə 27 yaşlı Füri arasında görüş oktyabrın 24-ə planlaşdırılsa da ukraynalının zədələnməsi səbəbindən döyüşün vaxtı dəyişdirilmişdi. V. Kliçko T. Fürinin üstün olduğunu qeyd edərək revanş matçına ümid etdiyini bildirib.

Ukraynalı döyüşçünün hesabında 68 döyüşdə 64 qələbə (53-ü nokautla) var. Füri isə indiyədək keçirdiyi 25 qarşılaşmanın hamısında qalib gəlib (18-i nokautla).


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 42 (5751) 16 fevral 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# "Su-24" böhranı: Putin qapıları bağladı, İlham Əliyev açdı...

## Rusiyaya buraxılmayan Türkiyə TIR-ları Azərbaycan ərazisindən istifadə edəcək

**Türkiyənin Suriya ilə sərhəddə Rusiyaya aid Su-24 bombardmançısını vurmasının ardınca Moskva Ankaraya qarşı iqtisadi cəza tədbirlərindən biri olaraq türk TIR-larına-beynəlxalq yükdaşımalarla məşğul olan ağırtonnajlı yük avtomobillərinə qapıları bağlayıb.**

Virtualaz.org saytı xəbər verir ki, Gürcüstandan keçib Rusiyaya hərəkət edən Türkiyə TIR-ları sərhəd qapılarının onların üzlərinə bağlanmasından sonra Azərbaycana üz tutublar. Və prezident İlham Əliyev Rusiyanın Türkiyə TIR-larına qapıları bağlamasından sonra türk yükdaşıyanların Azərbaycan üzərindən keçidini asanlaşdırmaq barədə təlimat verib.

Türkiyə mənbələrinin xəbərinə görə, Orta Asya respublikalarına yük daşıyan türk TIR-larının Rusiyadan keçməsi əngəllənəndən sonra İlham Əliyev ölkənin gömrük xidmətinə bu TIR-ların Azərbaycan üzərindən maneəsiz keçidinə şərait yaratmaq üçün təlimat verib.

Bu haqda Türkiyənin Xarici İşlər Nazirliyi tərəfindən Beynəlxalq Nəqliyyatçılar Dərnəyini - türk yükdaşıyanlarını birləşdirən təşkilatı (UND) məlumatlandırılıb. Bundan sonra Rusiyadan keçib Orta Asiya respublikalarına yük daşıyan Türkiyə nömrə nişanlı TIR-lar Xəzər dəhlizindən istifadə edəcək.



Məlumata görə, bu məsələni Türkiyənin xarici işlər naziri Mövlut Çavuşoğlu Bakıya səfəri zamanı azərbaycanlı həmkarı Elmar Məmmədyarova çatdırıb. Məmmədyarov isə məsələni prezident İlham Əliyevə məruzə edib. Azərbaycan prezidenti Türkiyə tərəfinin müraciətini müsbət qarşılayıb və türk TIR-larının keçidini asanlaşdırmaq üçün bütün mümkün tədbirləri görməyə təlimatı verib.

Təlimata əsasən Azərbaycan dəhlizindən istifadə edən türk şoferlərin vizası və keçid sənədi olmasa belə, onlara qarşı cəza tədbirləri görülməyəcək. UND-in icra komitəsinin rəhbəri Fatih Şener deyib ki, indiyədək türk TIR-ları Xəzər dənizindən keçid üçün bərə haqlarının həddən artıq yüksək olduğuna görə Azərbaycan dəhlizindən çox istifadə etmirdi.

"Biz bu dəhlizdən keçidin asanlaşdırılmasını gözlədiyimiz bir vaxtda Rusiya ilə böhran yarandı və Azərbaycan çarəsiz qalan yükdaşıyanlarımıza sahib çıxdı"- Fatih Şener deyib.

UND başqanı bu qərara görə Azərbaycan prezidentinə təşəkkür edib. Deyib ki, Orta Asiya ilə Türkiyəni birləşdirən bu dəhlizin davamlı olacağını gözləyirlər.

Azərbaycan prezidentinin təlimatından sonra günlərdir Gürcüstan-Rusiya sərhədində gözləyən türk TIR-ları geriyə dönərək Azərbaycana keçib və Xəzər dənizi üzərindən Orta Asiyaya doğru istiqamət alıb.

"Bu dəhliz məsafənin qısa olması səbəbindən sərfəlidir. Davamlı olsa Azərbaycan iqtisadiyyatına da fayda gətirəcək"- F.Şener bildirib. UND rəhbəri Xəzər dəhlizinin daha fəal istifadə edilməsi üçün Azərbaycan tərəfinin TIR-lardan 465 dollarlıq tranzit keçid haqqını ləğv etməsinə və liman xərclərinin azaldılmasına ümid etdiklərini deyib.

---

### Ölkəni həyəcanda saxlayan hadisələr sönməyə üz tutur

# Nardaranda meydan boşaldıldı - son gəlişmələr

## Kənd ağsaqqallarının toplantısında yekun qərar verildi; sakinlər işıq, su məsələsini həll edəcəyini, yollardakı postların götürüləcəyinə ümid edirlər; Məşədi Natiq: "Məsələ dinc yolla həllini tapmalıdır..."

**Neçə gündür ölkəni gərginlikdə və həyəcanda saxlayan Nardaran hadisələri ətrafında xoşagəlməz proseslər nəhayət ki, səngiməyə üz tutmaqdadır. Dünən kəndin "Hüseyniyyə" məscidində vəziyyətlə bağlı keçirilmiş toplantı hər halda belə söyləməyə əsas verir.**



Musavat.com-un operativ məlumatlarının xronikasından görünür ki, toplantıda xeyli sayda sakin iştirak ediblər. Çıxış edən Nardaran Ağsaqqallar Şurasının sədri məşədi Natiq Kərimov məsələnin dinc yolla həll olunması təklifini verib. Bu məqsədlə o, hazırda "İmam Hüseyn" meydanın boşaldılması və meyitlərin alınması təşəbbüsünü irəli sürüb: "Bu mənim təklifimdir. Dinc yolla həll edək. Ölülərimizi alaq. Dəfn edək. Biz birik, birliyik. Bu kəndin birliyini heç kim poza bilməz. Qərarımız bir olsun".

Məsciddə digər ağsaqqalların, dindarların fikirləri də dinlənilib. Onlar da çıxışlarında deyiblər ki, hökumətin təklifi dəyərləndirilməlidir. Çıxışçıların sözlərinə görə, hökumətdən gələn təklif "İmam Hüseyn" meydanın boşaldılması və bundan sonra cənazələrin geri qaytarılmasıdır.

Bildirilib ki, meyitlər verildikdən sonra 5 nəfər kənd ağsaqqalı hökumət nümayəndələri ilə danışığa gedəcək. "İmam Hüseyn" meydanının boşaldılmasının ardınca ağsaqqallar hökumətin işıq, su məsələsini həll edəcəyini, yollarda qurulan postların götürüləcəyinə ümid edirlər.

Müzakirələrin sonunda yekun qərar verilib, meydan boşaldılıb, qəsəbənin mərkəzində qurulmuş çadır sökülüb, sakinlərin böyük əksəriyyəti evlərinə dağılışıb. Lakin bir neçə nəfər hökumətin danışıqlarda necə mövqe göstərəcəyindən ehtiyatlanır. Onlar bu danışıqlara heç kimin qaranti verməməsindən narahatdırlar.

*****

"Nardarandakı silahlı insident nəticəsində ölənlərin cənazələrinin sabah (bu gün-red.) ailələrinə təhvil veriləcəyi gözlənilir". Bu barədə APA-ya kənd sakini Mehman Məmmədov məlumat verib. O, qəsəbə sakinlərini təxribata uymamağa, heç bir qüvvənin vasitəçisinə çevrilməməyə çağırıb.

Qeyd edək ki, qanlı toqquşmada ikisi polis əməkdaşı, yerdə qalanları isə Nardaran sakini olmaqla 6 nəfər həlak olub. Silahlı insidentlə bağlı ilahiyyatçı Hacı Taleh Bağırovla birgə ondan çox adam saxlanılıb.

Atışmada dünyasını dəyişən polis əməkdaşları - Vüqar Nəsibov və İsmayıl Tağıyev II Fəxri Xiyabanda dəfn ediliblər. Prezident İlham Əliyev onların ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Hadisə ilə bağlı Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə açıqlamasında qeyd olunub ki, respublikada ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terrorçuluq aktları törətməyi planlaşdıran və din pərdəsi altında fəaliyyət göstərən silahlı cinayətkar dəstə barədə Daxili İşlər Nazirliyinə daxil olmuş məlumat əsasında əməliyyat keçirilib.

*****

Qəzet çapa gedərkən "Yeni Müsavat"ın və müsavat.com-un Nardaranda olan əməkdaşı xəbər verdi ki, artıq qəsəbədə barrikadalar sökülür, mərkəzdəki "İmam Hüseyn" meydanı boşaldılır. Meydana texnika gətirilib, burada yığılan daşlar təmizlənir. Çadırlar sökülür. Kənd meydanında olan insanların dağılması üçün ağsaqqallar və dindarlar çağırışlar edirlər. Meydan yavaş-yavaş boşaldılır...

❑ **İlkin Muradov**

---



Möhsün Pak Ayin

# "Nardaran hadisələrinə heç bir bağlılığımız yoxdur"

## İran səfiri Möhsün Pak Ayin: "Ermənistanı dəstəkləməyimiz barədə deyilənlər doğru deyil..."

**Aparıcı regional oyunçulardan olan İran Azərbaycandan ötrü yaxın qonşu və vacib tərəfdaşdır. Bunu İranın dövlət rəsmiləri dəfələrlə bəyan ediblər. İranın Azərbaycandakı səfiri Möhsün Pak Ayin də virtualaz.org saytına eksklüziv müsahibəsində bunu bir daha vurğulayıb.**

Bununla belə iranlı diplomat müsahibəsində son vaxtlar hamını narahat edən hadisələr - Nardaran olayları, Azərbaycanın cənub bölgəsində İslamın yayılması və Cənubi Azərbaycandakı növbəti etirazlar barədəki suallara ümumi sözlərlə, bir qədər ehtiyatlı, diplomatik cavablar verib:

***- Cənab səfir, bu gün Azərbaycanda xeyli ekspert İranı radikal islamçı qruplaşmalara dəstək verməkdə günahlandırır. Bu ittihamlar xüsusilə də son Nardaran hadisələri fonunda daha çox səslənir. Bu haqda nə deyə bilərsiniz?***

- İran indiyədək Azərbaycana qarşı çıxan heç bir təşkilatı dəstəkləməyib. Ölkələrimiz arasında gözəl qardaşlıq münasibətləri var. Ona görə də bizim guya kimisə dəstəkləməyimiz barədə deyilənlər yalan və uydurmadır. Bizim Nardaran hadisələrinə də heç bir aidiyyətimiz, bağlılığımız yoxdur. Bakıda İran Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Rəhbəri də azərbaycanlı İbrahim İbrahimidir. Biz bütün mədəni-humanitar proqramlarımızı yalnız bu təşkilat vasitəsilə həyata keçiririk.

***- İndi İranla Azərbaycanın münasibətləri hansı səviyyədədir?***

- Ölkələrimiz arasındakı münasibətlər rəvan şəkildə inkişaf edir. Allaha şükür, bu gün heç bir problem yoxdur. Həm İran, həm də Azərbaycan qarşılıqlı əməkdaşlığı və dostluq münasibətlərini inkişaf etdirmək əzmindədir. İranla Azərbaycan arasındakı əmtəə mübadiləsinin həcmi hazırda 500 milyon avrodur. Lakin bu da son hədd deyil, hər iki tərəf əməkdaşlığı daha da artırmaq niyyətindədir. Birgə avtomobil, dərman, neft-kimya məhsulları istehsalı zavodlarının tikintisi layihələrini nəzərdən keçiririk. Onu da deyim ki, Azərbaycandan İrana hər il 1 milyon adam gedib-gəlir. Yeni münasibətlərimizin kifayət qədər möhkəm və etibarlı bünövrəsi var.

***- Lakin bunu yəqin siz də etiraf edərsiniz ki, bu münasibətlərə bəzən kölgə salan insidentlər olur. Məsələn, bu günlərdə İranda bir telekanal azərbaycanlıları aşağılamışdı...***

- Bu problem artıq həll olunub. Məncə, o məsələyə yenidən qayıtmağa ehtiyac yoxdur. Telekanallardan biri səhlənkarlığa yol verməyib. Bunun rəsmi Tehranın siyasətinə heç bir aidiyyəti yoxdur. Hökumət və telekanal azərbaycanlılardan üzr istədi, məsələ bununla da bitdi. İranda azərbaycanlıların hüquqları pozulmur, mənafeləri qorunur. Bunun əksini deyənlər vəziyyəti gərginləşdirmək istəyənlərdir. İranda azərbaycanlılar həm hökumətdə, həm də parlamentdə kifayət qədər geniş şəkildə təmsil olunur.

***- Qarabağ məsələsi hələ də həll olunmamış qalır. İran bu məsələdə kömək edə bilərmi?***

- İran məsələnin sülh danışıqları yolu ilə həllinə, Bakı ilə İrəvan arasında danışıqlar modelinə tərəfdardır.

***- Amma İran Ermənistanla da dostluq edir...***

- İran öz qonşuları ilə həmişə dost münasibətlərinə tərəfdar olub və indi də belədir. Amma bizim Azərbaycanla münasibətlərimiz Ermənistanla əlaqələrimizdən daha dərin və sıxdır. Bizim Ermənistanı dəstəkləməyimiz barədə deyilənlər doğru deyil. Ümid edirik ki, Qarabağ məsələsi sülh yolu ilə həll olunacaq və regionda sülh bərqərar olacaq.

***- Regionda sülhdən danışırıq. Lakin İranın həm də Suriyada Başar Əsəd rejimini dəstəklədiyi deyilir...***

- Bu da doğru fikir deyil. Biz Əsədi özünə prezident seçən Suriya xalqının bu seçiminə, iradəsinə sadəcə, hörmət edirik. Biz Suriyada qarşı-qarşıya duran tərəflərin heç birini dəstəkləmirik. Arzumuz budur ki, bu ölkədə sülh yaransın. İstənilən ölkədə hakimiyyət dəyişikliyi dinc yolla, seçki yolu ilə baş verməlidir. Əgər Suriya xalqı sabah başqa hakimiyyət seçsə, İran onunla da işləməyə hazırdır.

***- Cənab səfir, Rusiya təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra yaşanan gözlənilməz Rusiya-Türkiyə münaqişəsinə münasibətinizi də bilmək istərdik...***

- Hesab edirəm ki, Rusiya ilə Türkiyə arasındakı münasibətlərin bundan sonra daha da gərginləşməsi yolverilməzdir. İranın qonşuları arasında mehriban münasibətlər bizdən ötrü çox vacib məsələdir. Ona görə də İran bu böhranın mümkün qədər tez aradan qaldırılmasına tərəfdardır. Bu böhran davam etdikcə onun orbitinə yeni-yeni ölkələr cəlb olunacaq. Ona görə də bu vəziyyət mümkün qədər tez aradan qaldırılmalıdır.



# "Azərbaycan şirkətləri Rusiya bazarında boşalan yerləri tutmağa çalışmalıdır"

## Türkiyə-Rusiya qarşıdurması iqtisadiyyatımıza nə vəd edir - rəylər

**Rusiya təyyarə qalmaqalı ilə bağlı Türkiyəyə qarşı geniş sanksiyaların hazırlandığını bildirib. Rusiyanın baş naziri deyib ki, addımlar müştərək layihələrin dayandırılmasını da əhatə edə bilər. Dmitri Medvedev sanksiyalarla bağlı təkliflərin hazırlanmasına iki gün vaxt ayırdığını deyib.**

Ekspertlər bildirirlər ki, Rusiyanın Türkiyəyə qarşı həyata keçirdiyi sanksiyalar Azərbaycana da ciddi şəkildə təsir göstərəcək. Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu sanksiyaların əslində Azərbaycana iki yöndən, həm iqtisadi, həm siyasi təsirləri olacaq: "İlk növbədə iqtisadi təsirlər ciddi olacaq. Artıq Rusiya mətbuatında və rəsmi şəxsləri tərəfindən fikirlər səslənir ki, Azərbaycan üzərindən Azərbaycan malı adı altında Rusiyaya Türkiyə məhsulları daxil ola bilər. Onsuz da Rusiya sərhədində həmişə Azərbaycanla bağlı, malların keçirilməsi ilə bağlı problemlər yaşanırdı. İş adamları problemlə qarşılaşırdı. İndi müxtəlif bəhanələrlə Azərbaycandan mal və məhsulların Rusiya bazarına çıxışına məhdudiyyətlər yaranacaq. Türkiyənin Azərbaycanla yaxınlığına Rusiya həmişə qısqanclıqla yanaşıb. Siyasi anlamda da təsirlər böyük olacaq. Rusiyanın və Türkiyənin Azərbaycanın daxilinə təsir rıçaqı var. Azərbaycan daxilində Rusiyanın müəyyən şəbəkəsi, həm Qarabağ münaqişəsi, həm Rusiyada işləyən azərbaycanlılar burada təzyiq üçün istifadə oluna bilər. Türkiyənin də Azərbaycanın informasiya məkanına təsiri var. Oradan başlanan bir təbliğat ola bilər. Hər iki tərəfdən Azərbaycana ciddi təzyiqlər ola bilər. Azərbaycan da buna hazır deyil. Düşünürəm ki, münaqişə aparan iki ölkə arasında neytrallığı qorumaq sona qədər mümkün olmayacaq. Bunun da Azərbaycana gələcəkdə mənfi təsirləri ola bilər. Ona görə də Rusiya Azərbaycan hökumətindən, hakimiyyətindən istədiyini ala bilməsə və düşünsə ki, Türkiyənin yanındadır, onda daxili problemlərin alışmasına, digər təsir rıçaqlarına əl ata bilər. Rusiyada yaşayan azərbaycanlılara problem yarada bilər. Həmçinin vəziyyət Türkiyə dövləti tərəfindən müəyyən addımların atılmasına səbəb ola bilər. Pis durum yaranıb. Hər addımın əks-təsiri ola bilmə ehtimalı var".

Ekspert Vüqar Bayramov isə bildirir ki, Rusiyada fəaliyyət göstərən turizm şirkətlərinin əksəriyyəti artıq Türkiyəyə səyahət paketlərinin satışını dayandırıblar. Ekspertin sözlərinə görə, iki ölkə arasındakı ticari rəqəmlər son gərginliyin dərinləşməsinin Türkiyəyə iqtisadi baxımdan mənfi təsir edəcəyini söyləməyə əsas versə də, Rusiya tərəfi də bu prosesdə itkisiz çıxmayacaq: "Belə ki, Türkiyə Misirlə birlikdə Rusiyadan ən çox taxıl məhsulları idxal edən ölkələr sırasındadır. Hər il Rusiya iş adamları Türkiyə bazarında 4,1 milyon ton taxıl satırlar. Eyni zamanda Türkiyə Rusiya istehsalı polad məhsullarının əsas alıcılarındandır. Başqa tərəfdən, iki ölkə arasındakı investisiya layihələrinə kifayət qədər aparıcı dövlət və özəl şirkətlər cəlb ediliblər. Belə ki, Türkiyənin Rusiyanın dövlət şirkəti olan "Rosatom" ilə 2013-cü ildə 1.200 meqavat reaktorun quraşdırılması haqda bağladığı müqavilənin dəyəri 20 milyard dollardır. Söhbət birbaşa Rusiya şirkətinin faydalandığı layihədən gedir. Avropa İttifaqının Cənub Axınına "yox" deməsindən sonra Moskva hələ də "Türk Axını" ideyasına alternativ qaz nəqli layihəsi kimi baxır. Düzdür, Rusiyaya tətbiq edilən sanksiyalar fonunda şimal qonşumuzda alıcılıq qabiliyyətinin aşağı düşməsi bu il sözügedən ölkələrin iqtisadi münasibətlərinə təsirsiz ötüşməyib. Belə ki, bu ilin 9 ayında Türkiyənin Rusiyaya ixracatı 40 faiz azalaraq 2,7 milyard dollara düşüb. Azərbaycan Türkiyə və Rusiya arasındakı münasibətlərinin gərginləşməsində maraqlı olmayan ölkədir. Mübahisəsiz, ölkəmiz bu dövlətlər arasında əlaqələrin yaxşı olmasını ən çox istəyənlərdəndir. Sözügedən qonşularımız arasında yaxşı münasibətlərin olması bizim strateji maraqlarımıza uyğundur. Bununla belə, adı çəkilən ölkələr arasında münasibətlər gərginləşəcəyi halda Azərbaycan şirkətləri həm Türkiyənin qida, xüsusən də aqrar məhsullarının Rusiya bazarında boşalan yerini tutmağa və şimal qonşumuzun turistlərini cəlb etməyə çalışmalıdırlar. Bunlara rəğmən, bölgədə sabitliyin qorunub saxlanması və Türkiyə ilə şimal qonşumuz arasında münasibətlərin qısa zamanda yaxşılaşması rasional olaraq dövlətimizin strateji maraqlarına birbaşa xidmət edir".

Qeyd edək ki, artıq Rusiya prezidenti Vladimir Putin Türkiyəyə qarşı iqtisadi və viza sanskiyalarının tətbiqi barədə fərmanı imzalayıb. Kremlin internet saytında yerləşdirilmiş sənəddə deyilir ki, Türkiyənin bir sıra mallarının Rusiyaya idxalı qadağan olunur. Bu da əlavə edilir ki, qadağan olunmuş malların tam siyahısını hökumət hazırlayacaq. Bundan başqa Türkiyə şirkətlərinə Rusiyada bir sıra işlərin görülməsi qadağan ediləcək.

Bundan əlavə, Rusiya şirkətlərinə türkləri işə götürməmək tapşırılır. Vladimir Putinin mətbuat katibi Dmitri Peskov deyib ki, hazırda Rusiyada işləyən 90 min Türkiyə vətəndaşı var və ailə üzvlərin ilə birlikdə sanksiyalar 200 min insanı təsirləndirəcək. Fərmanda həmçinin Türkiyə vətəndaşları üçün vizasız rejimin müvəqqəti olaraq dayandırılmasına dair müddəa yer alıb. Bundan əlavə turizm operatorlarına Türkiyəyə səfər paketlərinin satmaq qadağan olunub. Sənəddə Rusiya və Türkiyə arasında çarter uçuşları qadağan olunur, Türkiyədən Rusiyaya gələn yük maşınlarına nəzarət artırılır. Rusiya rəsmiləri bidlirirlər ki, Rusiyanın sanksiyaları Türkiyə iqtisadiyyatına və ilk növbədə milli valyuta lirəyə ciddi zərbə olacaq.

❑ **Röya RƏFİYEVA**

**Bütün dünyada sakitlik, sabitlik pozulub. Qos-qoca Avropada belə insanların rahatlığı yoxdur. Terror hadisələri Fransada da törədilirsə, deməli, vəziyyət olduqca ciddidir. Hətta Nyu-Yorkda da ötən həftə həyəcanlı anlar yaşandı, təxribat baş verdi. Bütün dünyaya - Qərbə, Avropaya, Yaxın Şərqə, Türkiyəyə, İrana, Rusiyaya baxanda Azərbaycandan daha rahat, təhlükəsiz ölkə yoxdur indi, şükürlər olsun!**

**Elşad MƏMMƏDLİ**



# Dinimizi və ölkəmizi necə qoruyaq?

Amma heç şübhəsiz ki, Azərbaycanda da sabitliyin, sakitliyin pozulmasında maraqlı olan xarici qüvvələr və onların daxildə istifadə etdikləri kəslər mövcuddur. Niyəsi tamam başqa - geniş bir mövzunun söhbətidir. Qısaca deyim ki, ölkəmizdə maraqları olan qüvvələr hər zaman mövcud olub və indi - yeni dünya düzəni qurularkən bizə münasibətdə də siyasi ehtiraslar daha da güclənib. Belə bir vaxtda hər kəsdən - vətəndaşlardan da, siyasi qüvvələrdən də, güc strukturlarından da xüsusi həssaslıq, ayıq-sayıqlıq tələb olunur...

Bu cür həssas məqamda - noyabrın 26-da Nardaranda baş verən hadisədən çıxan nəticə isə odur ki, ölkəmiz üçün təhlükələr nədir, bunlar haradan qaynaqlanır və qarşısını necə almaq mümkündür.

Qısaca tezislər şəklində yazsaq, ortada əsas üç səbəb var:

1. Savadsızlıq, maarifsizlik, müvafiq dini təbliğat mexanizmi formalaşdırılmaması;

2. Demokratik qüvvələrin zaman-zaman sıxışdırılıb meydandan çıxarılması və onların yerini radikal qüvvələrin tutması;

3. Missionerlərə münasibətdə uyğun profilaktik tədbirlərin lazımi səviyyədə, effektli görülməməsi.

***

Son iki gündə Nardarandakı hadisəyə çoxları sırf dini prizmadan yanaşır. Bəziləri dini inanclı kəsimə qarşı qəddar metodlar tətbiq edilməsinə səsləyir, bir qism isə elə düşünür ki, sanki baş verənlərin səbəbi insanların namaz qılmasına, ibadətlə məşğul olmasına məhdudiyyətlər qoyulmasıdır.

Amma fakt odur ki, gerçəklik tamam başqadır. Bu gün bütün dünyada din pərdəsi altında, belə deyək ki, "işçevirmə" metodundan gen-bol tətbiq edilir. Məgər, İŞİD-in, "əl-Qaidənin" İslama dəxli varmı? Qətiyyən! Eləcə də, bizim ölkəmizdə hansısa xarici qüvvəyə bağlı olan radikal cərəyanların gerçək İslama, dinlə məşğul olmağa heç bir aidiyyəti yoxdur.

Dini inanc heç də hansısa siyasi məqsədlər üçün deyil, bu sırf iman məsələsidir ki, tarixən xalqımız İslam dəyərlərini sağlam şəkildə özündə ehtiva edib. Məsələn, mən ağlım kəsəndən - ötən əsrin 80-ci illərinin ortalarından görmüşəm ki, nənəm, qohum-qonşudakı ahıl adamlar namaz qılıb, evimizin yaxınlığında məscid olub, hər gün biz səhər azan səsi eşitmişik...

Və burada bir məqamı xüsusi qeyd etmək istərdim. Doğulduğum bölgədə sünni və şiə məzhəbinin daşıyıcıları təxminən 50-50-yə olub. Evimizdən 500 metr yuxarıda "Şiə məscidi", 1 kilometr aşağıda isə "Sünni məscidi" olub. Heç zaman da bu məzhəblərin daşıyıcıları arasında heç bir konflikt olmayıb və bu mümkün də deyildi. Dədə-babadan hər kəs öz məzhəbinə uyğun şəkildə ibadəti ilə məşğul olub. Məhərrəm ayında isə sünnilər də Aşura günü məscidə gedirdilər hər zaman.

Həmin o zamanlarda dini inanclı şəxslər ən etibarlı, sağlam adamlar sayılırdılar. Məsələn, illər öncə qohum-əqrabanın uşaqları ilə maraqlanarkən eşidəndə ki, filankəsin oğlu namaz qılır, dindardır, deyirdik şükür, əyri-üyrü yollara düşməyib, ağıllı-başlı adam olub. İndi eşidəndə ki, bir qohumun uşağı dindardır, canımıza üşütmə düşür ki, görəsən hansı agenturaya, ekstremist qrupa qoşulub, sonu nə olacaq?

Məsələ ondadır ki, bu gün çoxlarını qeyri-ənənəvi dini cərəyanlara qoşmaq mümkün olub! Onlar heç də iman sahibi olmaq məqsədi güdmürlər. Kimisini maddi yollarla, kimisini "beyinyuma" nəticəsində bu təhlükəli cərəyanlara qoşa biliblər. Onlar heç şübhəsiz ki, xarici siyasi qüvvələrin nəzarət etdiyi, maliyyələşdirdiyi cərəyanlar, radikal və SİYASİ İDDİASI da olan qruplardır. Məhz buna görə demokratik siyasi qüvvələri sıxışdırmaqdan da əl çəkmək, sivil gəncliyə meydan vermək lazımdır. Onlardan təhlükə gəlməz.

Bəs, dini cahilliklə bağlı vəziyyətdən çıxış yolu nədir? Əlbəttə, çıxış yolu var. Amma proses heç də bir günə, zor yolu ilə yekunlaşa da bilməz. Düzdür, sərt qaydalar, qanunlar tətbiq edilməlidir. Lakin başlıca iş insanlara gerçək İslamın nə olduğunu başa salmaq üçün maarifləndirici tədbirlər keçirmək olmalıdır. Bu ölkədə kifayət qədər savadlı dindarlar var və dövlət onların bilik və bacarıqlarından istifadə etməlidir. Məsələn, mənim Hacı İlqar İbrahimoğlunun dini yanaşması, bilgiləri ilə az-çox məlumatım var, dəfələrlə müsahib, həmsöhbət olmuşuq. Ona və ətrafındakı sağlam din mütəxəssislərinə maarifləndirici missiyaların həyata keçirməyi tapşırmaq olar. Adam qaragüruh deyil, dəngələri bilir, dövlətçidir və gerçək İslamın, gerçək şiəliyin nə olduğunu başa salacaq qədər səbirli, bilgilidir.

Eləcə də sünni məzhəbinin daşıyıcılarını maarifləndirə biləcək kifayət qədər dindarımız var. Dövlət bu imkanlardan istifadə etməlidir. Televiziyalarda cəhaləti deyil, İslamı, doğruları təbliğ edən verilişlər olmalıdır!

Və daha bir vacib məqam: Xüsusi ilə dini həssas bölgələrdə sosial problemlərin, işsizliyin həllinə xüsusi diqqət yetirilməlidir ki, hansısa bir kəsi çörəkpulu verməklə ələ alıb işlədə bilməsin missionerlər.

Başqa bir yolu yoxdur, məncə...

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

**Rusiya prezidenti Vladimir Putin Türkiyəyə qarşı gözlənilən sanksiyaları imzaladı. Neçə gündür ki, Rusiya televiziyalarının xəbər proqramlarına baxmaq mümkün deyil. Adamın qanına toxunur, türklər və Türkiyə aşağılanır, təhqir və təhdid olunur. Qərbin dışladığı Rusiya sanki bütün xınçını Türkiyə və türklərdən çıxarır. Sanksiya verir: türklər vizasız gələ bilməyəcək, meyvə-tərəvəz gətirə bilməyəcəklər, iş verməyəcəklər, ruslar da Türkiyə kurortlarına gedə bilməyəcəklər.**

Nazim SABİROĞLU



# Putin, türklər və biz...

Yazıq ruslar... Putin onlardan ali irq düzəltmək istəyir. "Hamı pisdir, hamı xəyanətkardır, hamı bizə düşməndir, bircə biz yaxşıyıq" deyərək. İndi hətta ən ciddi adamlar belə, "Putin atom bombası da ata bilər" deyirlərsə, demək, vəziyyət Hitler Almaniyasından da təhlükəli bir həddədir.

Putin reytinqinin əsiridir və təyyarə olayı ilə tatara oxşar tum gözləri daha da çuxura düşüb, amma bu "quyu" da da onun kin-küdurətini gizlədə bilmir. Rusiyanın təyyarəsini Misirdə İŞİD vurdu, amma Putin bu faktı düz 1 həftə gizlətdi, qəza dedi. Çünki bu, onun göylə gedən reytinqinə ağır zərbə idi. Amerika faktlar ortaya qoyanda məcbur olub etiraf etdilər. İndi Türkiyə təyyarələrini vurub deyə, həm də "yaxşı edib vurmuşuq" deyərək Putini daha çətin vəziyyətə salıb. Kreml bu sanksiyaların, düşmənçiliyin ölkəyə zərər vuracağını bilir, amma buna məcburdur. Söhbət pomidor-xiyar məsələsi deyil, "xiyarın əyri bitməsidir", Putinin yerlə bir olmuş xarizmasıdır.

Baxın, Krım xalqı (vaxtilə Osmanlı xaqanlığı) qışın ortasında nə əziyyət çəkir? Döşünə döyən Rusiya hakimiyyəti balaca bir adanı istilik-lə-işıqla təmin etmək gücündə deyil. Generator göndərir... Sanksiya qoymaq sənin nə gününə yaraşır axı? Rusiya xalqının nə günahı var ki, gedib Türkiyədə dincəlməsi də yasaqlansın? Xalqını düşünən bunca rəzil və cığal addım ata bilərmi? Bəhanə tapılıb: Türkiyə düşmən ölkədir. Putinin sərəncamında bu, aşağı-yuxarı, cümlələrlə beləcə yazılıb.

Mənim Ərdoğan hökumətinə yanlış hesab etdiyim siyasətləri səbəbindən heç vaxt rəğbətim olmayıb. Fəqət, Rusiyanın Türkiyəyə yumruq göstərməsi, məncə, Ərdoğan məsələsi deyil. Ruslar hazır durublarmış, nələr vermirlər efirə... Bu, 1 həftənin işi deyil, bu artıq iç üzün açılmasıdır. Türkiyəyə təşəkkür düşür. Necə ki, vaxtilə Saakaşvili Gürcüstanın torpaq bütövlüyünü bərpa etmək istəyəndə Rusiyanın mövqeyini bizə göstərdi. Aydın oldu ki, sabah biz də ayağa durub torpaqlarımızı azad etmək istəsək, Kremlin mövqeyi necə olacaq... İndi də Kreml əslində türk deyilən hamıya münasibətini göstərdi. "Ruslar Qarabağı qaytaracaq" kimi ortaya atılmış sabun köpüyü də partladı.

Biz Türkiyədən ayrı can deyilik. Bizim bu qəddar dünyada Türkiyədən başqa dostumuz yoxdur! Bu sanksiyalardan "Azərbaycan iqtisadiyyatı qazana bilər" deyənlərin yerinə isə utanmaq olar, ancaq utanmaq...

Türkiyəyə gedən ruslar türklərin düşmən olmadığını yaxşı bilirlər. Bu səbəbdən də qonşu ölkədən təkcə xoş xatirələr qalmayıb. Çünki hərdən "nataşalar" bətnlərində romantik anların şahidlərini də gətirirlər axı. Türk genetikası Rusiyanın həm keçmişində, həm indisində var. Yəni Rusiyanın sanksiyası həm də rusun onsuz da çox da öyünəsi olmayan genefonduna zərbə olacaq. Necə ki, ermənilər Azərbaycanla düşmənçilik etdikdən sonra təkcə azalmırlar, həm də əsl erməniyə oxşamağa başlayıblar.

Putinin tələsik sanksiyalar qərarının bir vacib səbəbi də var. AKP hökuməti son seçkidə xalqa xeyli vədlər verib. Bunları yerinə yetirmək üçün isə pul lazımdır, həm də çoxlu pul. Rusiyanın sanksiyaları Türkiyənin büdcəsinə, şübhəsiz, təsir edəcək, amma Türkiyə bu davada tək də deyil. Putin bir təyyarəyə görə Türkiyə ilə Qərb, Avropa və Amerika arasındakı buzları əritdi, Ankaradan küskünlükləri aradan qaldırdı. Moskva isə Qərbin sanksiyalarına qoşulmayan, Putini heç yerdə qəbul etməyəndə qapıları Ərdoğanın padşah sarayında üzünə açılan, yeni qaz layihələrinə nəfəs verən Türkiyəni itirdi.

Rusiya getdikcə daha da təklənir, təkləndikcə tükənir, tükəndikcə isə daha da aqressivləşir. Dünya getdikcə daha yaxşı anlayır ki, Rusiyanın problemi Putindir. Rusiyada bunları bilən ağıllı adamlar indi çox azdır, qaragüruh isə "çar Putinin" sağlığına içməklə ömürlərini xərcləyirlər. Rusiyanın bütün ağıllı başları son illər ölkəni tərk edir. Putin isə vergiyə görə ölkəsini satan Departyeyə, boks zərbələrindən normal düşünmə qabiliyyətini itirmiş amerikalılara Rusiya vətəndaşlığı verməklə bu axını kompensasiya etmək istəyir.

Belə davam etməyəcək. Bu günlər Rusiya televiziyaları ilk prezident Boris Yeltsin haqda da verilişlər və sənədli filmlər verirlər. Ruslar əhli-kef dedikləri prezidenti çox da bəyənmirdilər. Yeltsin hamıyla dost olmağa çalışırdı, hətta ipə-sapa yatmayan çeçenlərlə də. Putin isə hər şeyi dağıtdı, Yeltsinin demokratik dövlətçilik ənənələrini də kənara tulladı. Dünyanı çox sevdiyi tatami hesab edərək hamıyla vuruşdu, vuruşur da. İndi isə tatamiyə türklərlə çıxır. Türkün qələbəsini istəməyən varmı?



# "Erməni soyqırımı" sənədi Rusiya parlamentinə gətirilsə...

## Bakı bu təşəbbüsü əngəlləməyə çalışacaqmı? Fəzail Ağamalı:

### "Elə mövqe ortaya qoymalıyıq ki, Rusiya qıcıqlanmasın..."

**Xəbər verildiyi kimi, Rusiyada bir qrup deputat Dövlət Dumasına "erməni soyqırımı"nı tanımayanların cəzalandırılması ilə bağlı təklif veriblər. Deputatlar Ədalətli Rusiya partiyasının üzvləridir. Partiya üzvləri "soyqırım"ı inkar edənləri 5 il müddətinə azadlıqdan məhrum etməyi, yaxud onları 500 min rubl (8 min 50 manat) məbləğində cərimələməyi istəyirlər.**

Qanun layihəsində erməni xalqının Osmanlı Türkiyəsində 1915-ci ildən 1922-ci ilə qədər olan dövrdə "soyqırım"ı faktını inkar etməyə görə eyni zamanda "bu cinayətlərin" təqdir edilməsinə görə 300 min rubl (4 min 830 manat) və ya 2 il ərzində əməkhaqqı dəyərində cərimələməklə, yaxud 3 il müddətinə azadlıqdan məhrum etməklə cəzalandırmaq təklif edilir. Əgər bu, kütləvi informasiya vasitələrinin köməyi ilə edilibsə, cəriməni, ən yüksək həddini 500 min rubla (8 min 50 manat) qədər artırmağın mümkün olduğu bildirilib. Belə olan halda azadlıqdan məhrum olma müddəti isə 5 ilə qədər artırıla bilər.

Qeyd edək ki, təklifin Türkiyə-Rusiya münasibətlərinin pisləşməsindən sonraya təsadüf etməsi bir çox mətləblərdən xəbər verir. Rus deputatların təklifi Dağlıq Qarabağ problemi yaşayan ölkəmizdə də narahatlıqla qarşılanıb. Heç şübhəsiz ki, bu təklif qəbul olunarsa, Azərbaycan-Rusiya münasibətlərinə də ciddi təsir edəcək.

İqtidaryönlü deputat Fəzail Ağamalı bildirdi ki, "erməni soyqırımı" ilə bağlı təklif Rusiyanın Türkiyəyə qarşı qəti mövqedə olduğunun göstəricisidir: "Rus təyyarəsinin Türkiyə sərhədində vurulması münasibətləri kritik həddə çatdırıb və getdikcə Rusiya tərəfindən bütün sahələri əhatə etməkdədir. Görünən odur ki, Rusiya bunu diplomatik təzyiq, dəyən ziyan kimi qəbul etmədi. Putinin son dərəcə kəskin mövqeyi, onun verdiyi tapşırıqlar bütün sahələrdə Türkiyə ilə münasibətlərin dayandırılmasına səbəb oldu. Türkiyə indiyə qədər Rusiya ilə hansı münasibətlərə malik idisə, hamısına qadağa qoyuldu. Hazırda hər iki ölkə arasında formal münasibətlər qalır. Türkiyənin səfiri Rusiyada, Rusiyanın səfiri Türkiyədədir. Bundan o tərəfə münasibət yoxdur. "Soyqırım"ı qəbul etməyənlərlə bağlı cəza növünün tətbiq edilməsi ilə bağlı deputatların təklifi göstərir ki, Rusiya Türkiyəyə qarşı qəti mövqedədir. Rusiya o vaxta qədər bu münasibəti davam etdirəcək ki, istədiyini alsın. Türkiyəni məcbur edir ki, üzr istəsin. Amma Türkiyə üzr istəsə, bir dövlət kimi özünü aşağılamış olacaq. Bu da dövlətçiliyə, Ərdoğanın imicinə ciddi zərbə olar. Türkiyənin bunu edəcəyini düşünmürəm. Dövlətin imici aşağı səviyyəyə enər".

F.Ağamalı yaranmış vəziyyətin Azərbaycanın dövlət maraqlarına cavab vermədiyini bildirdi: "Biz hər zaman arzulamışıq ki, Türkiyənin dünyada mövqeyi güclənsin. Çünki bu mövqeyin güclənməsi, Azərbaycanın mövqeyinin güclənməsi deməkdir. Eyni zamanda ölkəmizin gücü Türkiyənin gücü deməkdir. Nəzərə alaq ki, Azərbaycan-Rusiya arasında sıx əlaqələr mövcuddur. Bu, ölkə prezidentinin apardığı uğurlu xarici siyasətin nəticəsidir. Rusiya ilə münasibətlərimizin daim yüksək səviyyədə olmasını istəyən şəxsəm. Biz şimal qonşumuzla ehtiyatlı davranmalıyıq. Olub-keçənləri düşünərək bu qənaətə gəlmişəm. Amma bir halda bu mümkündür ki, dövlətimizin suverenliyinə və müstəqilliyinə zərər gəlməsin. İndiki vəziyyətdə yaşananlar bizim də mövqeyimizə ciddi təsir edir. Nəzərə alaq ki, ortada erməni amili var. Rusiya hər zaman Ermənistanın yanında olub. Eyni zamanda Qarabağ məsələsində Minsk Qrupunun həmsədrlərindən biridir. Yaranmış vəziyyətdən ermənilər bacarıqla istifadə etməkdədirlər. Münasibətlərin xoşagəlməyən səviyyəyə çatmasından sonra Rusiya dondurduğu, soyuducuda saxladığı erməni politoloqları efirlərə buraxmağa başladı. Rus kanallarının əksəriyyətində ermənilər görünməkdədir. Ermənilər Türkiyə ilə münasibətlərdə Azərbaycan amilini ortaya atıblar".



Fəzail Ağamalı

Partiya sədri hazırda Rusiyanın Azərbaycana qarşı münasibətlərində təhdidlər olmadığını söylədi: "Rusiya Azərbaycanı Türkiyə ilə eyniləşdirəcək münasibət ortaya qoymur. Bu üzdə belədir. Amma içəridə qapalı münasibətlərin gedişində Azərbaycana da yer ayrıldığını güman edirəm. Ən azı Türkiyəyə qarşı siyasətdə Azərbaycanın da yer alması ilə bağlı ermənilər tərəfindən təhdidlər ola bilər. Buna görə də, ehtiyatlı davranmağımız vacibdir. Ölkə başçısı məsələni çox doğru qoydu ki, Azərbaycan hər iki dövlət arasında yaranmış gərginliyin aradan qaldırılmasında öz töhfəsini verə bilər. Dövlət olaraq biz buna çalışmalıyıq. İctimai rəydə ehtiyatlı münasibət sərgiləməliyik. Türkiyənin rus təyyarəsini məhv etməklə qarşı dövlətin nüfuzuna ciddi zərbə vurduğu göz önündədir. Bu baxımdan elə mövqe ortaya qoymalıyıq ki, Rusiya bundan qıcıqlanmasın, bizi də Türkiyənin yanına qoşmasın. Ermənilər hazırda buna çalışırlar. Hadisələrin gedişini gözləyək. Əminəm ki, müdrik prezidentimiz bunların fərqindədir. Çalışaq ki, yaranmış vəziyyətdən ölkəmizə zərbə gəlməsin. Cəmiyyət olaraq çalışmalıyıq ki, Rusiya və erməni lobbisi verdiyimiz bəhanələrlə üzərimizə gəlməsin".

❑ Cavanşir ABBASLI



# Düşməninizin düşməni sizin cəlladınızdır

Xalid KAZIMLI

**İllərdir ki, belədir, hakimiyyət müxalifətə qarşı necə barışmaz, güzəştsizdirsə, əsas müxalifət partiyaları da o cürdür. Hakimiyyət müxalifəti yamanlamağa, sıxışdırmağa həmişə səbəb, bəhanə axtarıb tapırsa, müxalifət də elə edir, əlinə düşən hər fürsətdən yararlanmağa çalışır.**

Hakimiyyət öz komandası daxilində müxaliflərlə əlaqəsi olan, müxalifətlə barışıq, konstruktiv dialoq təklif edən fərdləri necə satqın sayıb saraydan qovursa, müxalifət də iqtidara qarşı bir balaca yumşalanların belinə xəyanətkar damğası vurur.

Bir də "düşmənimin düşməni mənim dostumdur" prinsipinə dəqiq riayət var ki, illərdir iqtidar da, müxalifət də siyasi mübarizədə bundan istifadə edirlər.

Vaxt olub ki, bir yüksək mənsəbli iqtidar mənsubu qatı antimüxalifətçi çıxışları ilə seçilib, hər zaman asıb-kəsib, müxalifət liderlərinə nifrət püskürüb, amma gün gəlib, onun özünü ya şəxsi ambisiyasına, ya sədaqətsizliyinə, ya da nəyəsə görə saraydışı ediblər və adam bir müddətdən sonra müxalifətçi olub.

Bu durumda müxalifət sırf öz əlini gücləndirmək, iqtidar komandasına güc gəlmək üçün həmin asi eks-məmurla yaxınlaşmaq yolu tuturlar. Yeni durum yaranır. Eks-məmurun da onlara ehtiyacı var və həyat onları təbii müttəfiq edib. Fəqət asi məmur üzdə nə deməsindən asılı olmayaraq ürəyində onları "başdanxarab qaraguruh" sayır və müxaliflərin gücündən istifadə etmək istəyir.

Belə vəziyyətdə müxalifətə yaraşan o olardı ki, "vurulub" kənara atılmış, zədəli reputasiyası br az da bərbad olmuş eks-məmuru yaxın qoymasın, öz prinsipial mübarizəsini davam etdirsn. Ancaq elə olmur. Müxalifət də eks-məmurun maliyyə resurslarından, dostlar dairəsindən, regional elektoratından yararlanmağa çalışır.

Nəticədə gün gəlir, adı qulağna dəymiş, ətrafında tərəfdarlar korpusu görmüş sabiq vəzifəli ürəyindəkini dilinə gətirir, özünü situasiyanın lideri, ağası sayır və öz təbii müttəfiqlərini aşağılayır, "indiyəcən müxalifəti olub neyləmisiz", "xalqın başına gələn müsibətlərdə sizin böyük rolunuz var" ritorikasına başlayır.

Budur, yeni təbii müttəfiqlik meydanı açılıb. Mediada, sosial şəbəkələrdə ölkənin tanınmış ictimai-siyasi xadimləri Nardaranda baş verən hadisələrdə hakimiyyətə qarşı olanların tərəfini tutur, hökuməti qınayırlar, emosional açıqlamalar verirlər.

Məhz bu xüsusda soyuqqanlı olmaq, hissə qapılmamaq lazımdır. Baxmaq gərəkdir ki, tərəflərin çatmaq istədikləri hədəf nədir, kim nəyə nail olmaq istəyir, ortada hansı qazanlar qaynayır.

İqtidarı tənqid etmək asandır. Çünki yeritdiyi yanlış siyasətlərlə ölkədəki problemlərin şiddətlənməsinə yol açıb. Ancaq bu iqtidarın sovetdənqalma din siyasəti ideal olmasa da, hazırkı halda qətiyyətlidir.

Bir anlıq təsəvvür edək ki, hakimiyyət radikal dini sektalara qarşı yumşaq davranır, onlara geniş fəaliyyət imkanı verir. Nəticəsi nə olacaq? Heç nə, Yaxın Şərqin qan çağlayan çeşmələrndən biri də Azərbaycan olacaq.

Bəs hakimiyyət nədən onları, tutaq ki, casusluqda yox, qurama maddələrlə zərərsizləşdirmək istəyir?

Gerçəklik budur ki, Azərbaycan iqtidarı casus qruplarını ifşa edə bilsə də, onları sənədləşdirə, mühakimə edə bilmir. Çünki bu halda məhkəmə prosesində İranın, Rusiyanın ayrı-ayrı dövlət orqanlarının, eləcə də vəzifəli şəxslərinin adı keçməlidir. Bu halda Azərbaycan hakimiyyəti qüdrətli qonşu dövlətlərin açıq-gizli təzyiqlərinə tab gətirəcək gücdə deyil.

Hazırda müdafiə olunan "Müsəman birliyi" təşkilatı, onların havadarları isə nə demokratiya, nə də haqq-ədalət davası aparmırlar, onların məqsədi Azərbaycanı başqa bir ölkənin əyalətinə, ostanına çevirmək və burada teokratik rejim qurmaqdır.

Yəni bu aydın deyilmi, burada nəsə bir sirr varmı? Hər şey açıq şəkildə ortadadır.

Bu baxımdan bir zamanlar sovet-rus tankının önündə dayanaraq ölkənin müstəqiliyini bərpa edən hərəkatçılar ölkəni yenidən müstəmləkə (bu dəfə başqa bir ölkənin) etmək istəyənlərə qahmar çıxmamalıdırlar.

Meydanda iki pis vuruşursa, daha az pis olanın tərəfini tutmaq lazımdır. Bu da mübahisə predmetidirsə, əmələ, niyyətə baxmaq gərəkdir: pislərdən biri öz rəqiblərini Kürdəxanı həbsxanasında zərərsizləşdirirsə, o biri pis qalib gəldiyi halda düşmənlərini "kafir", "Qərb agentləri" deyə dar ağacında zərərsizləşdirəcək.

Dar ağacına salam vermək zəmanəsi deyil, kürdəxanılardan çıxıb dünyəvi dövlətdə demokratiya bərqərar etmək lazımdır.

**Deputat Elmira Axundovanın oğlu Həbib Axundovun adının 8 milyonluq dələduzluq qalmaqalına qarışdığı haqda məlumat vermişdik. Vətəndaşlar Ziya Vəliyev, Elvin Vəliyev, Sabir Ağayev, Fərman Məmmədov və Şahin Məhərrəmov deyirlər ki, Həbib Axundovla dostu Elnur İbrahimovun yaratdıqları maliyyə fırıldağı piramidasının qurbanlarıdırlar.**





# Deputat oğlunun sensasion danışığı ortaya çıxdı

## Elmira Axundovanın oğlu Həbib: "Bu qaqaşı tutmuşuq və gətirmişik bağa, döymürük, heç nə eləmirik... biz onu "srok"a göndərmək istəyirik"

Onların sözlərinə görə, deputat oğlu pulları yığandan sonra dostunu xaricə qaçırmaqla onların pullarına sahiblənib. Deputat və oğlu onlara yönəlik ittihamların doğru olmadığını söyləsələr də, qarşı tərəf iddialarında israrlıdır. "Yeni Müsavat"a müraciət edən vətəndaşlar H.Axundovla E.İbrahimovun danışıqlarının səsyazmasını və həmin səsyazmanın stenoqramını redaksiyamıza təqdim ediblər. Bildiriblər ki, həmin səs yazısını istintaqa da təqdim ediblər və araşdırılmasını istəyiblər. Lakin həmin səs yazısına baxan olmayıb.

31 iyun 2013-cü ildə deputat Elmira Axundovanın Şüvəlanda yerləşən bağ evinə piramidaya cəlb edilmiş 15-20 nəfəri H.Axundov dəvət edib. Zərərçəkənlər deyirlər ki, Həbib Axundov orada özünün də zərərçəkən olduğunu göstərmək üçün bağdakı danışıqdan sonra Elnur İbrahimovu Yasamal RPİ-nə aparıb. Orada müstəntiq Seymur Hidayətzadə Elnur İbrahimovu sərbəst buraxıb. Hadisədən sonra Həbib Axundov Elnur İbrahimovu öz evində saxlayıb. 6 iyul 2013-cü il tarixində isə onu "Qəbələ Qafqaz Resort Otel"ə anası Elmira Axundovanın yanına aparıb. Bu görüşdən 2 gün sonra Elnur İbrahimov kimlərinsə köməyi ilə ölkə hüdudlarını tərk edərək Gürcüstana keçirilib.

Zərərçəkənlərin çoxsaylı şikayətlərindən 1 il sonra Bakı Şəhər Baş Polis İdarəsində Elnur İbrahimov barəsində cinayət işi başlanıb. Onun barəsində ölkə daxilində axtarış elan olunub. Zərərçəkənlər bildirirlər ki, E.İbrahimovun ölkə daxilində olmadığını müstəntiqə dəfələrlə deyiblər və barəsində beynəlxalq axtarış verilməsini istəyiblər. Lakin heç bir nəticə olmayıb.

Zərərçəkənlərin haqlı sualı var - müstəntiq Ramil Məhərrəmovun dələduz Elnur İbrahimovu İnterpol xətti ilə axtarışa verməməsinin arxasında hansı məqsəd və qüvvə dayanır? Bunu araşdırmaq isə aidiyyəti orqanların işidir.



KREDİT MÜQAVİLƏSİ

Bakı şəhəri — İyirmi səkkiz noyabr iki min on ikinci il

Biz, aşağıda imza edənlər: Bakı şəh., M.Sübhi/S.Əsgərova küç., ev 146/36 ünvanında yaşayan **Axundov Həbib Ramiz oğlu,** şəxsiyyət vəsiqəsi: AZE №08879889, Yasamal RPİ tərəfindən 07.02.2011-ci il tarixdə verilmiş, bir tərəfdən və Bakı şəh., H.Cavid pr., ev 9, m.52 ünvanında yaşayan **İbrahimov Elnur Rauf oğlu,** şəxsiyyət vəsiqəsi: AZE №08138057, Yasamal RPİ tərəfindən 13.08.2010-cu il tarixdə verilmiş, digər tərəfdən həmin müqaviləni aşağıdakı məzmunda bağladıq:

1. Mən, **Axundov Həbib Ramiz oğlu, 100.000 (bir yüz min) manat** məbləğində pulu **İbrahimov Elnur Rauf oğluna** kredit verdim.
2. Mən, **İbrahimov Elnur Rauf oğlu,** göstərilən məbləği aldım. Həmin məbləği 1 (bir) il müddətinə, yəni **28 noyabr 2013-cü il** tarixə qədər qaytaracağam.
3. Əgər **İbrahimov Elnur Rauf oğlu,** aldığı krediti vaxtında qaytarmazsa, kredit verən şəxs həmin məbləği məhkəmə qaydasında tələb edə bilər.
4. Həmin müqavilənin rəsmiləşdirilməsi üzrə xərcləri **Axundov Həbib Ramiz oğlu** ödəyir.
5. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 739-740-cı maddəsinin məzmunu tərəflərə izah olundu.
6. Həmin müqavilə 3 (üç) nüsxədən ibarət tərtib və təsdiq olundu: onlardan birinci nüsxə Bakı şəhərinin notariat kontorunda saxlanılır, digər nüsxələr isə tərəflərə verilir.

İmzalar:

Axundov Həbib Ramiz oğlu — İbrahimov Elnur Rauf oğlu



KREDİT MÜQAVİLƏSİ

Bakı şəhəri — On beş iyul iki min on üçüncü il

Biz, aşağıda imza edənlər: Bakı şəhəri, M.Sübhi/S.Əsgərova küçəsi, ev 146/36 ünvanında yaşayan **Axundov Həbib Ramiz oğlu,** şəxsiyyət vəsiqəsi: AZE №08879889, Yasamal RPİ tərəfindən 07.02.2011-ci il tarixdə verilmiş, bir tərəfdən və Bakı şəhəri, H.Cavid prospekti, ev 9, mənzil 52 ünvanında yaşayan **İbrahimov Elnur Rauf oğlu,** şəxsiyyət vəsiqəsi: AZE №08138057, Yasamal RPİ, tərəfindən 13.08.2010-cu il tarixdə verilmiş, digər tərəfdən həmin müqaviləni aşağıdakı məzmunda bağladıq:

1. Mən, **Axundov Həbib Ramiz oğlu, 735.000 (yeddi yüz otuz beş min) manat** məbləğində pulu **İbrahimov Elnur Rauf oğluna** kredit verdim.
2. Mən, **İbrahimov Elnur Rauf oğlu,** göstərilən məbləği aldım. Həmin məbləği **3 (üç) ay** müddətində, yəni **15 oktyabr 2013-cü il** tarixə qədər qaytaracağam.
3. Əgər **İbrahimov Elnur Rauf oğlu** aldığı krediti vaxtında qaytarmazsa, kredit verən şəxs həmin məbləği məhkəmə qaydasında tələb edə bilər.
4. Həmin müqavilənin rəsmiləşdirilməsi üzrə xərcləri **Axundov Həbib Ramiz oğlu** ödəyir.
5. Azərbaycan Respublikası Mülki Məcəllәsinin 739-740-cı maddəsinin məzmunu tərəflərə izah olundu.
6. Həmin müqavilə 3 (üç) nüsxədən ibarət tərtib və təsdiq olundu: onlardan birinci nüsxə Bakı şəhəri 5 saylı notariat kontorunda saxlanılır, digər nüsxələr isə tərəflərə verilir.

İmzalar:

**Axundov Həbib Ramiz oğlu** — **İbrahimov Elnur Rauf oğlu**

Deputat oğlunun bağındakı danışıqların stenoqramını təqdim edirik:

**Həbib Axundov müstəntiq dostuna zəng edir:**

- Seymur, eşidirsən? Deməli bizdə belə bir məsələ var, amma öz aramızda qalsın, burda hamı Yasamal rayonu ərazisində olandı. Deməli, bir dənə qaqaş var, burda 10 nəfər oğlan oturub, o qaqaşı tutmuşuq. Bu qaqaş mənə və obşiy 10-12 nəfərə 3 milyon pul "atıb". Piramida yaradıb. 3 milyon pul atıb. Təkcə mənim 735 min pulum orda var. Seymur, öz aramızda qalsın ha, heç kim bilməsin. Bu qaqaşı tutmuşuq və gətirmişik bağa, döymürük, heç nə eləmirik. Məndə 2 dənə kağız var, bir dənə 150 minlik, bir dənə də 735 minlik. Deməli bu neyləyib. Seymur, bu öz aramızda bizim pulu 1 il firladıb, guya bizə xeyir verib. Bizim öz pullarımızı fırladıb və asta-asta təzə adamlar tapıb. Elə bil mal alır-satır, bir-birinə xeyir verir. "Obşiy" böyük pul alır, sonra gətirir verir. Belə-belə ana məbləği 3 milyona kimi qaldırır. İndi Seymur, bayırda bəzi adamlar var ki, bunu axtarırlar, tutsalar, soxub öldürəcəklər. Biz bunu "srok"a göndərmək istəyirik. Burda oturub. Biz bunu necə göndərək "srok"a? Notarius sənədi bizdədir. Sənin yanına Yasamala gətirək bunu? Bunu necə göndərək "srok"a? Xərci-zadı nədi ödəyək. Biz "uje" 3 milyondan keçmişik. Özünüz nə ala bilsəniz alın, amma buraxmayın bunu. Bizə lazımdır bu "srok"a getsin. Biz bunu döymürük. Sən istəyirsən gəl bura, Şüvəlana oturaq söhbət edək. Hamımız atışacayıq sənə pul verəcəyik, kimə nə lazımdırsa orda verərsən. Lazım olar tapşırarıq. Əsas bu getsin içəri. 3 milyonu biz keçirik.

Bağda olan zərərçəkənlərdən biri:

- Müstəntiqdir o?

**Həbib Axundov:**

- Baş müstəntiqdir. Yasamalın. Seymurdur. Seymur, gəlirsən bu tərəfə? Puldu da, qaqaş.

- "Şto qovorit"?

**Həbib Axundov:**

- Deyir gözləyin həll edirəm.

- Naxçıvanlı Seymurdur?

**Həbib Axundov:**

- Həri.

Bundan sonra telefon danışığı yekunlaşıb və müstəntiq özü Həbib Axundova zəng edib:

- Seymur, nə oldu? Gətirirəm Yasamala. Bir dənə hamı sakit olsun, xahiş edirəm. Seymur, mən bunu gətirirəm, sən bunu buraxmayacaqsan ki?

- Mən bu gün "dejurnu"yam, rəislə-zadla danışım sonra. İndi sənə açıq deyim bu nə adla alıb pulu, harda alıb?

- Qaqaş hamısını Yasamalda alıb.

- Bilirsən qaqaş, ya sən tapşırtdırarsan, ya da 5-10 manat hörmətlərin edək işi başlayaq.

- Bu getməlidir içəri.

- Mən ora gəlim, durum hara deyirsən gəlim, amma "lucşe" gətirin Yasamala.

- "Vsyo" 1 saata gətiririk.

- "Vsyo" gətirin, çatana yaxın mənə zəng edin.

- Seymur kişi kimi söz ver, buraxmayacaqsan bunu?

- Yox da, gətir bura. "Prosta" çatana yaxın zəng elə, mən evdəyəm, gəlim idarəyə. Bir dənə də şey deyim, necə yaşı var bu adamın?

- 29. Bu "çisto serdeçni priznaniya" yazır ki, pulları yemişəm, sizi fırlada-fırlada yemişəm.

Zərərçəkənlər daha sonra iddia edirlər ki, danışıqlar əvvəlcədən planlaşdırılıb və onların verdikləri pullardan əl çəkmələrinə hesablanıb. Zərərçəkənlər deputat oğlunun onlardan alınan pullar hesabına aldığı əmlakların siyahısını da təqdim ediblər: "Həmin pullar hesabına Bakı şəhərinin A.Alı 45 ünvanında 5 mərtəbəli möhtəşəm bina, Nəsimi rayonu N.Rəfibəyli küçəsi 72 ünvanında 6 mərtəbəli ofis binası inşa etdirən Həbib Axundov qiyməti yüz min manatla ölçülən 4-5 ədəd bahalı avtomaşınlarda gəzməklə, London, Dubay, Türkiyədə kef məclisləri qurmaqla "Port Baku" yaşayış kompleksində 235 kv.metrlik lüks evində dəbdəbəli həyatını yaşayır. Bu adam Dövlət Gömrük Komitəsində 486 manat aylıq maaşa işləyib. Bu maaşla bu qədər obyekt və avtomaşınlara, villalara və daha nələrə sahiblənib? Həbib Axundovun və onun havadarlarının qanun qarşısında cəzalandırılması, bizə vurduğu maddi ziyanın ödətdirilməsi təmin olunmalıdır".

❑ **E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

**"Baxış bucağı"**

**Son həftənin dünya miqyasında ən ciddi hadisəsi Rusiyanın "Su-24" qırıcısının vurulmasından sonra Ankara-Moskva münasibətlərində yaşanan gərginlik oldu. Bu gərginliyin Azərbaycana da bu və ya digər şəkildə təsirləri qaçılmazdır. Ancaq Bakının Nardaran kəndində ötən həftə baş verən qanlı hadisə və gərginliyin davam etməsi Azərbaycan vətəndaşı olaraq hər birimizi narahat etməlidir. Regionda və ölkəmizdəki real situasiyanı Böyük Quruluş Partiyasının (BQB) sədri, deputat Fazil Mustafa ilə söhbətimizdə müzakirə etdik.**

# "Nardaran hadisələri qonşu ölkədə hazırlanmış ideoloji layihədir"

## Fazil Mustafa: "Nəinki hakim komandada, bütövlükdə ölkədə demokratik islahatlar aparmaq zəruridir"

***- Fazil bəy, ötən həftə Nardaranda baş verənlər, itkilərin olması üzücüdür. Sizcə, qəfildən nə baş verdi ki, yenicə həbsdən çıxmış Hacı Taleh vəziyyəti bu dərəcədə gərginləşdirə bildi? Sizdə informasiya, ya qənaət varmı ki, hadisələr hardan idarə olunur, ssenari kimə yaxud hansı qüvvələrə məxsusdur? Azərbaycanın qarışdırılması planının elementlərini görürsünüzmü?***

- Burada baş verənlər konkret hadisə olaraq əvvəlcədən proqnozlaşdırılmaya bilər, ancaq proses olaraq Azərbaycanın müstəqilliyi əldə olunandan sonra düşünülüb, hazırlanıb və bəzi əlverişli zamanlarda tətbiqini də görməkdəyik. Yəni qəfildən heç nə baş verməyib, adam öz tapşırığını layiqincə yerinə yetirib. Azərbaycanın bütün bölgələrində sosial problemlər kifayət qədər var, ancaq heç bir yerdə marginal məzhəbçilik anlayışı ilə bu problemlərin həllinə yanaşma müşahidə olunmur. Bu səbəbdən də baş verən hadisə sosial xarakterli deyil, qonşu ölkədə hazırlanmış bir ideoloji layihədir. Neçə illərdir bir kənd bu düşmənin bu layihəsinin girovuna çevrilib. Kənddə sağlam düşüncəli insanlar belə bir qrup Qum saatı ilə idarə olunan şəxslərin aqressivliyin təzyiqi altında səslərini çıxara bilmirlər. Burada dinin inanclarla bağlı bir təzyiqdən söhbət getsəydi, buna hamılıqla etiraz da bildirmək olardı. Dövlət tərəfindən ancaq inanc adı ilə insanların zorakılığa, özünə işgəncəyə yönləndirilməsinə qarşı tədbirlər görülür. Əsl həqiqətdə burada başqa ölkənin atrubutları ilə Azərbaycan dövlətinin atributlarına meydan oxumaqdan söhbət gedir. Qonşu ölkə bizə öz açıq mesajını verir: narkomaniya və dini cəhalətlə sizə istənilən təzyiqi göstərə bilərik: Qumda hazırlanmış xüsusi ələmanını Nardarana göndərir, orada qarşıdurmaya rəvac verəcək şüarlar səsləndirir və dövlətin konstitusion quruluşunu dəyişməklə bağlı tezislərini dilə gətirir. Adam həbsdən yenicə çıxıb, yaşayış olaraq Nardarana dəxli yox, ancaq birdən-birə bu kəndə "qonaq" sifəti ilə göndərilir və sonda da iki polisimizin və bir neçə kənd sakinin ölümünə səbəb olan hadisə baş verir və bütöv bir kənd ictimai töhmət altında qalır.

***- Son aylarda ölkə rəsmiləri dəfələrlə bəyan ediblər ki, Azərbaycanı Suriyaya çevirmək istəyən qüvvələr var. Hesab etmək olarmı ki, artıq komanda verilib yaxud düymə basılıb?***

- Bu plan həmişə gündəmdədir, ancaq bunu həyata keçirmək üçün iki istiqamətə daha çox üstünlük verildiyini görürük. Birincisi, hakimiyyətdəki yüksək vəzifəli məmurların əli ilə bu qarışıqlıq layihəsinin gerçəkləşdirmək, ikincisi isə sosial narazılıq amilindən yararlanaraq vəziyyəti mürəkkəbləşdirmək. İqtidar birinci layihənin qarşısını almaqda çevik hərəkət etdi və dövlətin təhlükəsizliyi üçün problem yarada biləcək şəxslərin bir qismini zərərsizləşdirdi. İkincisi ilə bağlı prezidentin son addımlarında sahibkarlara və vətəndaşlara qarşı məmur özbaşınalığının yumşaldılması, ASAN xidmətin səlahiyyətlərinin genişləndirilməsi nəzərdə tutuldu. Bununla belə, neft gəlirlərinin kəskin azalması şəraitində bu sosial narazılıq simptomları öz təhlükəliliyini qoruyub saxlayır və inhisarçılığın azaldılması istiqamətində ciddi islahatlara başlanılmasa, ağır nəticələr də doğura bilər. Dini ideoloji zəmində bu cür qışqırtmalar Azərbaycan cəmiyyətində çox dəstək qazana bilmir, çünki bu ssenarilərin İran İslam İnqilabı, "Taliban" hərəkatı, "əl-Qaidə", İŞİD formatlarında insanlıq üçün hansı faciələr bəxş etdiyinin qorxusu insanlarımızın yaddaşına həkk olunub və hətta hakimiyyətdən narazı insanlar belə bu cür hərəkətlənməyə qarşı tərəddüdsüz dövlətin yanında yer alırlar.

***- Hazırda da kənddə vəziyyət çox təhlükəli həddədir. Vəziyyətdən çıxış yolunu necə görürsünüz?***

- Burada ölüm faktının baş verməsi üzücüdür, xüsusilə də cinayətkar qrup tərəfindən iki polisimizin şəhid edilməsi geniş ictimai qınaq doğurur. Ancaq bir reallığı bilməliyik ki, heç bir problem birdəfəlik çözülmür, hansısa situasiyada yenə də üzə çıxır. "əl-Qaidə" bitəcək, İŞİD çıxacaq. Nə qədər ki, İslamın doğru anlaşılması, öyrədilməsi, uşaqların səviyyəli təhsil alması mümkün olmayacaq, cəhalət, kin və nifrət qalacaq. İlk öncə bu kəndin sağlam düşünən insanlarının öz kəndlilərinə müraciət edərək dövlətə qarşı qanunsuz əməllərdən çəkindirməsi lazım. İkincisi, bütün uşaqların təhsilə cəlb olunması lazım. Qızlar üçün ayrıca kollecin açılmasına da çalışmaq vacibdir. Artıq öz fikri formalaşmamış bir uşaq Azərbaycan polisini "kafir" adlandırırsa, o zaman uzun illər dəyişən bir şey olmayacağını indidən söyləmək olar. Əhalinin məşğulluğu ilə bağlı konkret işlər görülməlidir. Bir sıra insanlar işsizlikdən bu proseslərə bulaşırlar. Dini inancla dini ideologiyanın hüdudları insanlara izah olunmalıdır. Kiminsə namaz qılması inancı ilə bağlıdır, ancaq başının üstündə, sosial şəbəkədəki profilində başqa ölkənin bayrağını, onun ruhanilərinin şəkillərini yerləşdirməsinin adı, Aşura günü icazəsiz yürüş keçirilməsi, kiçik uşaqların başının xəncərlə yaralanması ideologiyanın təbliğidir. Yeni görüləcək işlər xeyli çoxdur.

***- Növbəti dəfə qan tökülməsin deyə, deputatlardan ibarət bir qrup Nardarana gedib danışıqlar apara bilərmi? Vaxtilə belə təcrübə olub...***

- Artıq qan tökülüb. Hüquqi prosedur başlayıb və bu hadisələrdə iştirak edən insanların bundan sonrakı qarşıdurmadan imtina edərək istintaqa köməklik göstərməsi lazımdır. Deputat qrupu da formalaşdırmaq, gərginliyi azaltmağa səy göstərmək də olar. Bütün hallarda çalışmaq lazımdır ki, cinayətkarlarla normal vətəndaş kimi yaşamaq istəyən insanları bir-birindən ayırmaq mümkün olsun. Bu kənddə zəhməti ilə dinclik içində yaşamaq istəyən kifayət qədər insan var və bunlar hamısı bizim ölkənin vətəndaşlarıdır. Elə addımlar atılmalıdır ki, bu insanlar başqasının çirkin əməllərinin əziyyətini çəkməsinlər.

***- Fazil bəy, Türkiyə və Rusiya arasında gərginlik davam edir. Putin artıq Türkiyə ilə əlaqələri məhdudlaşdıran sənədi imzaladı, antitürk dalğası genişlənir. Hadisələrin sonrakı gedişatını necə proqnoz edirsiniz?***

- Rusiya bu hadisələrdə bir gerçəklə dünyanı tanış etdi: burada qərarlar artıq dərin analizlə yox, isterika ilə, subyektiv emosionallıqla qəbul edilir. Məsələn, mən Rusiyanın Krımın işğal siyasətinin, Ukraynada münaqişə yaratma siyasətinin izahını verə bilərəm. Ancaq eyni şeyi Suriya siyasəti barədə söyləməkdə çətinlik çəkirəm. Xüsusilə də Əfqanıstan təcrübəsi yaşamış bir ölkənin varisinin bu bataqlığa özünü niyə saldığını bir neçə ildən sonra rus cəmiyyəti mütləq bir-birindən soruşacaq. Bu qədər hərbi xərclər yarışının bədəlinin nə olduğunu anlamaq çətin deyil. Və sonda da Türkiyə ilə qarşıdurmaya getmək, uşaqların oynadığı "dava-dava" oyununa bənzər süni gərginlik yaratmaq inanmıram ki, Rusiyanın özünə zərrə qədər fayda versin. Onsuz da bu qarşıdurmanın taleyi ABŞ və Rusiya arasındakı rəqabətdə çözüləcək. Fillər savaşanda mümkün qədər Türkiyənin əzilməməsinə səy göstərmək vacibdir. Bu arada ərəb ölkələrindən ciddi dəstək ala bilməyən Türkiyənin sürpriz bir gediş edərək İsraillə münasibətlərin bərpa olunmasına və bununla da ən azı düşmənlərinin birinin sayının azalmasına çalışması fikrimcə, daha realist bir addım olardı.



**"Türkiyəyə yaradılan problem Azərbaycana yaradılan problemdir"**

***- Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bakıya səfərində bir sıra mesajlar verdi. Ancaq hiss olundu ki, Ankara Bakını təhlükələrə soxmaq istəmir. Azərbaycan isə məhz bu səfərdən sonra Türkiyə və Rusiya arasında vasitəçi ola biləcəyini bəyan etdi. Bakının vasitəçilik niyyətinə Putindən müsbət cavab gələcəkmi?***

- Əlbəttə, Türkiyə İsrail hadisəsində olduğu kimi, Azərbaycanın hansısa tərəfdə duraraq rəsmi mövqe bildirməsini istəməz. İndiki şərtlərdə Rusiyanın Azərbaycan vasitəsilə bu münasibətlərin bərpasına gedəcəyini inandırıcı görmürəm. Ancaq Azərbaycan rəsmi nümayəndələrinin açıqlaması kifayət qədər yerində oldu: Türkiyə ilə qardaşıq, Rusiya ilə dostluq və hər ikisinin barışmasını istəyirik.

***- Bu qarşıdurma Azərbaycanın özünə hansı problemlər yarada bilər? Bu arada rus şovinistlər Azərbaycanı işğalla da hədələyir. Azərbaycanı Türkiyədən ayırmaq, yaxud ölkəmizin Rusiyanın Türkiyəyə qarşı sanksiyalarına qoşulması üçün şimaldan təzyiqlər arta bilərmi?***

- Bir şeyi dərk etməliyik ki, Türkiyəyə yaradılan problem elə Azərbaycana yaradılan problemdir. "Böyük Ermənistan"ın təkcə Türkiyəyəmi təsiri var? Əslində rus şovinistlərindən daha çox Rusiyada erməni siyasətinin canlanmasını müşahidə edirik. Üç hədəni Türkiyəyə yollayanda birini də Azərbaycana eşitdirirlər. Türkiyə mövzusunda Azərbaycana təzyiqlər ola bilər, ancaq Türkiyə ilə münasibətlər bizim dövlət olaraq mövcudluq şərtlərimizdən biridir. Biz Rusiyaya tabe ölkə kimi lazımıq, Türkiyəyə isə müstəqil qardaş dövlət kimi. Ona görə də Azərbaycan Rusiya ilə normal münasibətləri saxlamaqla yanaşı, fikrimcə, heç bir halda Türkiyəyə qarşı sanksiyalarda yer almayacaq.

***- Parlament rəhbərliyində digər partiyaların təmsil olunmamasına həmkarınız Qüdrət Həsənquliyevdən də etiraz gəlib. Növbəti iclasda bu barədə məsələ qaldıracaqsınızmı?***

- Nə məsələ qaldıraq? Hakim partiya və bitərəflərin çoxluğu müxalifətin Milli Məclisin idarə olunmasında iştirakını istəmirsə, biz nə edə bilərik? Qüdrət bəy haqlıdır ki, tutaq ki, biz ikimiz həmişə hökumətin və büdcənin əleyhinə səs veririk, ancaq görüntü üçün də olsa, ölkənin imicini nəzərə alaraq iqtidarın hər addımını dəstəkləyən digər bir-iki partiya rəhbərinin komitə sədri olması hansı faciəli situasiya yarada bilərdi ki? Ən azı çoxpartiyalılıq haqqında danışmağa real məzmun verərdi. Bu davranışlar da əslində siyasi inhisarçılıq təsiri bağışlayır və təəssüf doğurur.

***- Prezident torpaqların qanunsuz zəbt olunmasını şərtləşdirən qanunu təsdiqlədi, ağır cəzalar gözlənilir. Qanunun geriyə şamil olunması mümkün deyil. Elə isə sizin də vaxtaşırı problem olaraq qaldırdığınız dənizin hasarlanması məsələsi necə olacaq?***

- Ölkə prezidentinin son addımları birbaşa vətəndaşların vəziyyətini yüngülləşdirməyə, məmur özbaşınalığını nisbətən azaltmağa yönəlib. Ancaq bir gerçək var ki, gizli bir şəkildə də olsa, iri masştablı məmurların bu sərəncamların yerinə yetirilməsinə qarşı müqavimət formalaşdıra bilirlər. Heç bir sahibsiz, imkansız adamın həddi çatmaz ki, dənizi hasarlasın. Buna imkanı çatanlar isə çox zaman bu sərəncamı icra etməyə məsul olan məmurlardır. İndi öz tikdiklərini özləri sökəcəklər? Bu məsələdə siyasətçilərin də, medianın da prezidentə dəstək verməsi vacib şərtdir, harada bu göstərişlər yerinə yetirilmir, dərhal işıqlandırılmalıdır ki, ictimai qınağın təsiri altında dərhal qanunsuz əməllərdən əl çəkilsin.

***- MTN ətrafında baş verənlərdən sonra məmur-vətəndaş münasibətləri daha çox müzakirə olunur. Siz ölkədə normal münasibətlər sisteminin qurulması üçün nələri təklif edərdiniz? Ümumiyyətlə, komandada ciddi islahatların aparılacağını gözləyirsinizmi və buna zərurət görürsünüzmü?***

- Nəinki hakim komandada, bütövlükdə ölkədə demokratik islahatlar aparmaq zəruridir. Xüsusilə də MTN hadisələrindən sonra bir şey bəlli oldu ki, harada şəffaflıqdan qorxulursa, oarada korrupsiya və özbaşınalıq baş alıb gedir. Ona görə də ilk olaraq hüquq-mühafizə və təhlükəsizlik orqanları üzərində əksər Avropa ölkələrində olduğu kimi parlament nəzarəti mexanizmi qurulmalıdır. Parlamentə hesabatlılıq olarsa, ən azı bu qurumların məsuliyyəti daha da artar. Normal münasibətlər sisteminin qurulması ilk növbədə parlamentdən başlaya bilərdi. Müxalifətin parlamentin idarəçiliyində təmsilçiliyi nəzərdə tutulmaqla parlamentdən kənar müxalifət üçün də dövlət həyatına faydalı inteqrasiyanı stimullaşdırmaq mümkün idi. Yəni bu normallaşma üçün istək və iradə olsa, real təkliflər vermək çətin deyil.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015



# "Əmək azad edir!"

Zamin HACI
zaminhaci@gmail.com

## Bu şüarı Nardaranın girişinə yazmağın vaxtıdır

**Rusiya Türkiyəyə qarşı iqtisadi sanksiyalara başlayıb, bizim şanlı yapistlər də Nardaran kəndini boykot edirlər. Bəs necə, ortada silahlı qüvvələrin itkisi varsa bunun cavabı verilməlidir. İstər SU-24 təyyarəsinin pilotu olsun, istər "bandotdel"in polisləri. Silahlı qüvvələrə qalxan əllər qırılmalıdır. Hərçənd, konkret hansı əlin qalxdığını müəyyən eləmək çətindirsə, topasına sanksiya tətbiq etmək dövlətçilik prinsiplərinə uyğundur. Onsuz nardaranlılar elə hamısı bir-birinə bənzəyirlər. Qadınlar çadra örtür, ümumiyyətlə ayırmaq çətindir.**

Putin Türkiyə kurortlarına getməyə, türk pomidoru almağa qadağan qoyubdur. Məncə qüdrətli dövlətimiz də indən belə başqa rayon və kənd sakinlərimizin Nardarandakı pirləri ziyarət etməsinə embarqo qoysun. O cümlədən, Nardaranda inək saxlayıb qatığı bankada Məştağa tərəfə aparan arabaları artilleriya atəşi ilə vurmaq olar. Lazım gəlsə yerli parnikləri "Qrad" qurğuları ilə aşırtmaq lazımdır. Qoy indi nardaranlılar öz pomidorlarını yeyib İran xurması ilə çay içsinlər. Tezliklə diz çöküb Mübariz Qurbanlı müəllimə iman gətirərlər.

Siz bəlkə zarafat elədiyimi düşünürsünüz, amma kəndin işığını, telefonunu, ərzağını neçə gündür kəsiblər. Bir zırpı dövlət - təsəvvür edin, bunu bir ara BMT Təhlükəsizlik Şurasının hansısa iclasına sədr qoymuşdular - bir kəndi ilə savaş aparırsa, bunun haqqında nə yazmaq olar? Bu qədər qeyri-ciddi hakimiyyət harda var?

İşıq pulu borcunu o qədər hesablayıblar ki, həmin hesabla nardaranlılar elektrik enerjisi kəşf olunmazdan qabaqkı vaxtlara da borclu çıxıblar. Bir növ, Günəşin yazıq kəndliləri işıqlandırmasını da borcun üstünə gəliblər. Bəs nardaranlıların qar pulu harda qaldı? Onu da tutun alın. Verməyəni SOCAR-ın qaz kamerasında yandırıb propana çevirmək, Gürcüstandakı erməni kilsələrinə satmaq olar. Doğrudan da, bizim üçün xaricdəki erməni kilsələrinə müftə qaz vermək öz kəndimizə pulsuz işıq verməkdən üstündür. Multikultirizmdir da bə! Qoy desinlər Qasıməlinin çuştu var...

Mırtikulturizm (korrektor, düzəltmə! - Z.H.) demişkən... Bizdə bunun dövlət müşaviri vardır. Yazıçı Kamal Abdulla prezidentin millətlərarası multukulturalizm və dini məsələlər üzrə müşaviridir. Bir azdan bu vəzifəni tutmasından 2 il keçəcək. Ancaq onu niyə Nardaranda görmürük? Niyə Mübariz Qurbanlının - dini işlər komitəsinin sədrinin də səsi gəlmir? Ombudsman hansı cəhənnəmdədir, onun nümayəndələrini niyə Nardaranda görmədik? Bu adamların dövlət vəzifələri üzrə məsuliyyəti bir yana qalsın, vicdanları sızıldamırmı? Hüquq-mühafizə orqanlarının o biabırçı və müəmmalı əməliyyatında hər iki tərəfdən ölənlərin qanı həm də öz işinə məsuliyyətsiz yanaşan bu şəxslərin üzərindədir.

Bir məşhur Şərq əhvalatı var. Firon deyir ki, əgər Nil çayının kənarında hansısa qurd quzunu parçalayırsa, bunun da suçu məndədir. Həmin bucaqdan çıxış eləsək, Nardaranın indiki vəziyyəti də hakimiyyətin günahıdır. Ölkə kəndləri, ölkə əhalisi arasında ayrıseçkilik, yerlibazlıq, tayfabazlıq siyasətinin nəticəsində Nardaran tipli "fenomenlər" ortaya çıxır. Sadəcə, bir kəndin bəxti azca gətirib Nehrəm adlanır, başqa kənd Nardaran olur. Bir ayrısı yenə bəxtsiz çıxıb Bənənyara dönür. Biri Malıbəyli kimi işğalda unudulur gedir, başqasına icra hakimi dədəsinin adını verib Əliniyazlı-ya döndərir. Primitiv mağara təfəkkürlü adamların idarəçiliyindən cürbəcür mağara tipli yaşayış məskənləri yaranır. Hər kəs öz mağarasında oturub mırıldanır. Bir az burnunu qırağa çıxaranın burnunu dəyənəklə qırırlar. Bəhanə də var: "Çıxsan səni dinozavr yeyər, otur yerində, sabitlikdən həzz al".

Sözgəlişi, yapistlər bu dəfə İran mövzusunu qabartmadılar. "Amerika hansısa QHT-yə yardım edib dövləti çevirir" şivəninə baxmayın, bu tip ifadələri İrana qarşı işlətməyə babat oturacaq hissə lazımdır. İran qanıb-qandıran rejim deyil axı. Üstəlik, arada okean və materiklər də yoxdur, düz qulağın dibindədir.

Ölünün bədənindəki tatu ilə antitəbliğat quran bir hakimiyyətdə yaşayırıq. Dünən gördüm: atışmada ölənlərdən brinin ayağındakı svastikanı "bu nətəər müsəlmandır" adıyla yayırdılar. Bu, artıq dövlətin karikaturası da deyil, nəsə ayrı bir şeydir. Yenilikdir. O üzdən adını hələ tapmayıblar.



# "Mehriban düşmənlər" üçün kritik anlaşma fürsəti - gözlər yenə Parisdə...

## "Su-24" insidentindən sonra ilk dəfə dünya liderləri Fransa paytaxtında bir araya gələcəklər; Azərbaycan və Ermənistan prezidentlərinin də qatılacağı sammitdən sonra dünya ya qismən rahat nəfəs alacaq, ya da...

**Bu gün Parisdə BMT-nin iqlim probleminə həsr olunan beynəlxalq konfrans öz işinə başlayacaq. Toplantıda 147 ölkənin dövlət və hökumət başçıları, o cümlədən ABŞ, Türkiyə, Rusiya prezidentləri iştirak edəcəklər. Gözlənildiyi kimi, Fransa paytaxtındakı 13 noyabr qanlı terror aktları ilə əlaqədar ölkənin hüquq-mühafizə orqanları indiyədək görünməmiş təhlükəsizlik tədbirləri həyata keçiriblər.**

Tədbirə ən böyük sanbal verən sözsüz ki, orada qüdrətli ölkələrin birinci şəxslər səviyyəsində təmsil olunmasıdır. İkinci önəmli özəllik ondan ibarətdir ki, Antalyadakı G20 sammitindən sonra baş tutan ilk belə yüksək səviyyəli toplantı yetərincə mürəkkəb beynəlxalq vəziyyətə təsadüf edir.

Məsələ də ondadır ki, dünyanın əsas problemi hazırda qlobal iqlim dəyişikliyindən daha çox, qlobal və regional təhlükəsizliyə yaranan real təhlükələrlə, o sırada İŞİD terroru ilə, Türkiyə və Rusiya arasında, digər "mehriban düşmənlər" arasında münasibətlərinin kəskin şəkil alması ilə bağlıdır.

G20 toplantısından sonra bu, ilk ciddi fürsətdir ki, dünya gücləri beynəlxalq gündəlikdəki kritik mövzulara da toxunsunlar və situasiyanı yumşaldacaq addımlara getmək üçün özlərində təpər tapsınlar. Bu xüsusda Rusiyanın Türkiyəyə qarşı təxribatlarının nəticəsində ortaya çıxmış "Su-24" insidentindən dolayı yaranan təhlükəli durumdan hamı üçün məqbul, ortaq çıxış yolunun tapılması baxımından Paris sammiti mühüm fürsət tədbiri kimi yadda qala bilər. Fəqət, qalacaqmı?

Söhbət ən əvvəl Rusiya və onun lideri Vladimir Putinin məlum olaya münasibətdə qeyri-adekvat davranışından gedir. Əfsus ki, şimal qonşumuzun rəhbərliyi "Su-24" olayı ilə bağlı lüzumsuz isterikadan uzaqlaşmağa tələsmir, bir növ mazoxistlər kimi, Türkiyə əleyhinə ən çox ziyan gətirəcək "sanksiyalar" haqda düşünür, bu yöndə hərəkət edir, qardaş ölkənin ünvanına əsassız və sərt ittihamlar yağdırır.

***

Xatırladaq ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Parisdə rusiyalı həmkarı ilə görüşmək istədiyini bildirib. "Hörmətli Putinlə məqbul bir nöqtədə anlaşma, iki ölkə üçün gərəksiz olan bu mövzunu qapatmaq istərdim" söyləyib Ərdoğan. "Çünki bu vəziyyət kimə sərf edə bilər, amma əziyyət çəkən ölkələrimiz olacaq. Münaqişə heç kimə xeyir gətirməz. Rusiya Türkiyəyə lazımdır, Türkiyə də Rusiyaya", - deyə Ərdoğan rusiyalı həmkarını konstruktiv mövqe tutmağa çağırıb.

Doğrudan da belədir. Xüsusən də son illər bir-birinə kifayət qədər güclü iqtisadi-ticari, energetik, humanitar tellərlə, turizm sahəsində dərinləşən əlaqələrlə bağlanmış Ankara və Moskvanın bir-birinə qarşı sanksiyaları hər iki tərəfə baha başa gələcək, əsasən də iki ildir Qərbin sərt sanksiyalarından əziyyət çəkən Rusiya xalqına.

Təəssüf ki, Türkiyə liderinin bu, pozitiv və praqmatik jestinə hələlik Kremldən olumlu cavab gəlməyib. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bunu Ankaranın "Su-24" təyyarəsinin vurulmasına görə üzr istəməməsi ilə əlaqələndirib. "Təyyarə insidentindən sonra Türkiyənin üzr istəməkdə istəksiz olduğunu görürük" - bildirib Uşakov. O, həmçinin, Putinin Parisdə beynəlxalq konfrans çərçivəsində İsrail baş naziri Benyamin Netanyahu və Almaniya kansleri Angela Merkellə görüşəcəyini bildirib.

***

Belə bir təmasın Rusiya və Türkiyə prezidentləri arasında da reallaşması "Su-24" insidenti ətrafında bir həftədir hökm sürən gərgin situasiyanı yumşalda, ən önəmlisi, bundan birinci növbədə Rusiya fayda götürərdi. Çünki məntiqlə şimal qonşumuz hərbi qarşıdurmada maraqlı deyilsə (hər halda rəsmən belə deyilir), o zaman o, yeni və böyük iqtisadi itkilərdən qaçmaq barədə düşünməli, öz xalqının iqtisadi maraqlarını göz önünə gətirib Paris fürsətindən faydalanmalıdır.

Üstəgəl, Ərdoğan dünyanın gözü qarşısında, publik şəkildə ona əl uzadıb. Putin əgər realist və uzaqgörən siyasətçisidirsə, yenə ən əvvəl öz xalqının maraqları naminə bu əli sıxmalıdır. Nədən ki, bu, rəsmi Ankaranın münasibətlərin qırılmamasına yönəlik çox qiymətli, xoşməramlı bir jestidir. Bəlkə elə tet-a-tet görüşdə Ərdoğan Putinə elə sözlər deyəcək ki, üzrxahlıq kimi bir şey olacaq? Bir də belə fürsət yaranmaya bilər. Top indi Rusiya tərəfdədir.

Ötə yandan, təcrübə göstərir ki, analoji situasiyalarda liderlərin 5-cə dəqiqəlik görüşü də, aradakı xoşagəlməz ab-havanı yumşalda, ilk baxışda həlolunmaz görünən problemlərin çözümünə yol aça bilir. Ancaq Paris sammiti ərəfəsi Putinin Türkiyə əleyhinə atdığı addımlar, verdiyi qərar və açıqlamalar, sərgilədiyi ritorika göstərir ki, o, Ərdoğandan məhz üzrxahlıq gözləyir.

Bu da böyük ehtimalla, ona Türkiyəni mənən sındırıb Rusiyanı "qlobal güc" kimi dünyanın, Qərbin gözündə təsdiqləmək, eyni zamanda Ankaraya qarşı növbəti analoji hava təxribatları üçün arxayanlıq və qarantiya qazanmaq uçun lazımdır. Təbii ki, Türkiyə Putinin bu hiyləgər niyyətini anlamamış deyil...

***

Heç şübhəsiz, Türkiyə-Rusiya böhranının tezliklə aradan qalxması beynəlxalq sülhə və təhlükəsizliyə töhfə olmaqla yanaşı, Azərbaycanın da mənafeyinə cavab verir. Məsələ ondadır ki, iki regional güc arasında konfrontasiyanın dərinləşməsi Bakını qəliz seçim qarşısında qoymaqla yanaşı, Dağlıq Qarabağ konfliktinin həlli üçün çatışmayan zəruri atmosferi daha da əlçatmaz edəcək.

Yeri gəlmişkən, Parisdə Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyanın bir araya gələ biləcəyi haqda da məlumatlar yayılıb. Doğrudur, rəsmən nə Bakı, nə də İrəvan məlumatları təsdiqləməyib. İstənilən halda, prezidentlərin budəfəki görüşündən də real nəticələr gözlənilməsə belə, "pis sülh müharibədən yaxşıdır" məntiqi üzrə növbəti təmas Qarabağa dair danışıqlarını irəli aparmaq üçün kövrək də olsa, ümid yarada bilər.

Əlbəttə ki, bu yöndə konfliktin həllinə cəlb olunmuş böyük vasitəçi dövlətlərin - Rusiya, ABŞ və Türkiyənin qarşılıqlı münasibətlərindən, onların rəhbərlərinin siyasi iradəsindən çox şey asılıdır. Hansı ölkələrin ki, liderləri növbəti dəfə bir araya gəlmə şansı qazanacaqlar. Paris sammiti həm də bu kontekstdə çoxtərəfli fürsətlər tədbiri kimi tarixə düşə bilər, əgər təbii ki, liderlər bu fürsətləri qaçırmasa və siyasi iradə nümayiş etdirsələr.

Əlavə edək ki, Azərbaycan prezidenti İlham Əliyevin Belarusa rəsmi səfərini başa vurduqdan sonra Parisə yollanacağı gözlənilirdi....

❑ Analitik xidmət

# "Türkiyə Qarabağda antiterror əməliyyatına başlaya bilər"



## Baş nazir Əhməd Davudoğlu da Bakıya gəlir; qardaş ölkədən Azərbaycana intensivləşən siyasi səfərlərin ilginc pərdəarxası var...

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun ötən həftə Azərbaycana səfəri yekunlaşandan dərhal sonra baş nazir Əhməd Davudoğlunun da dekabrın 3-də Bakıya gələcəyi məlum oldu. Türkiyə hökumətinin xarici işlər nazirinin və başçısının ard-arda səfərlərinin Türkiyə ilə Rusiya arasında gərginliyin yaşandığı zaman həyata keçirilməsi bir çox suallar yaradır.**

Bu arada Rusiyanın məşhur "Kommersant" qəzeti Türkiyənin Dağlıq Qarabağda anti-terror əməliyyatlarına başlaya biləcəyi xəbərini yayıb. Türkiyədən Azərbaycana intensiv səfərlərin başlandığı bir vaxtda tanınmış bir qəzetin belə bir xəbər yayması maraqlıdır. Məsələnin ciddiliyini artıran daha bir məqam isə Türkiyə baş naziri Əhməd Davudoğlunun ölkəsinin Azərbaycanla birlikdə Ermənistan işğalı altında olan Dağlıq Qarabağı işğaldan azad etməyə hazır olduğu bəyanatıdır.

Politoloq Natiq Miri bu bəyanatın çox ciddi məsələlərin müzakirə edilməkdə olduğundan xəbər verdiyini söylədi: "Türkiyədə 1 noyabr parlament seçkilərindən sonra yeni hökumət formalaşıb və ənənəvi olaraq Türkiyə hökumətinin ilk xarici səfəri qardaş Azərbaycana edilir. Xarici işlər naziri Mövlud Çavuşoğlunun səfəri, dekabrın 3-nə nəzərdə tutulan Əhməd Davudoğlunun səfəri həm bu baxımdan, həm də regionda son vaxtlar cərəyan edən sürətli proseslər baxımından dəyərləndirilməlidir. Bu səfərlərin mahiyyətində çox ciddi geosiyasi məsələlərin müzakirəsi dayanır. Bir həftənin içində Türkiyənin həm xarici işlər nazirinin, həm də baş nazirinin Bakıya gəlişi Türkiyə ilə Rusiya arasında yaranmış gərginlik, təyyarə vurulması olayından sonra ortaya çıxan yeni geosiyasi vəziyyətlə bağlıdır. Bu hadisədən sonra regionda həqiqətən də yeni bir geosiyasi vəziyyət və yeni bir mənəvi-psixoloji situasiya yaranıb. Rusiya 2008-ci ilin yayında Gürcüstana hərbi müdaxiləsindən sonrakı keçən müddətdə ona görə meydan sulaya bilirdi ki, bu dağıdıcı hərbi gücün başda ABŞ olmaqla heç bir NATO dövləti qarşısını almaq, ona güc tətbiq etmək istəmirdi. Türkiyə Rusiyanın qırıcı təyyarəsini vurmaqla illərdir davam edən bu sindromu alt-üst etmiş oldu. Rusiyanın barəsində yaranmış qarşısı alınmaz mifini yerlə bir etdi.

Suriyaya hərbi müdaxilə üçün Rusiyanın indiyə qədər gətirdiyi tezisləri bu gün artıq



Əhməd Davudoğlu

Türkiyə Rusiyanın özünə qarşı istifadə etməyə başlayıb. Moskva əsas göstərir ki, Suriyaya daxil olması legitimdir, ona görə ki, Suriyanın prezidenti rəsmi dəvət edib. Türkiyə isə Əsədin ölkənin cəmi 10-15 faizinə nəzarət edə bildiyini və legitimliyini itirdiyini, Suriyanın daha böyük ərazilərinə nəzarət edən Suriya müxalifətinin istəyi ilə hər an bu ölkəyə daxil ola biləcəyini bəyan edir. Türkiyə, istisna deyil ki, Dağlıq Qarabağ məsələsində də önə çıxmaq üçün şərait yarandığına əmin olaraq Azərbaycanın ərazisi olan Qarabağa Azərbaycan dövlətinin dəvəti ilə girmək, antiterror əməliyyatları həyata keçirmək məsələsini qaldırmaq istəyir".

Ekspertin fikrincə, Mövlud Çavuşoğlunun səfərində də Dağlıq Qarabağ mövzusunun bu istiqamətdə müzakirəyə çıxarıldığı istisna deyil. Baş nazir Əhməd Davudoğlunun da Bakıda eyni məsələni müzakirə edəcəyini ehtimal etmək olar: "Türkiyə hökuməti haqlı olaraq bəyan edə bilər ki, əgər Rusiya bir çağırışla Suriyaya antiterror əməliyyatları adı altında daxil ola bilirsə, Türkiyə də Azərbaycanın bütün dünya tərəfindən qəbul edilən hakimiyyətinin dəvəti ilə istənilən an Qarabağda real antiterror əməliyyatlarına başlaya bilər. Ola bilsin ki, Türkiyə hökuməti rəsmi Bakı ilə bu istiqamətdə müzakirələrə başlayıb. Xarici işlər naziri Bakıda olan gün baş nazir Əhməd Davudoğlunun "Türkiyə Azərbaycanla birlikdə Ermənistan işğalı altında olan Dağlıq Qarabağı işğaldan azad etməyə hazırdır" bəyanatını verməsi təsadüfi hesab edilməməlidir.

Azərbaycanın razılığı və dəvəti olarsa, Türkiyənin Azərbaycanın ərazilərindəki erməni terrorçularını zərərsizləşdirmək üçün hərbi əməliyyatlara başlaması beynəlxalq hüquqa tam uyğun olar. Dağlıq Qarabağ və digər işğal olunmuş rayonlar Ermənistan əraziləri deyil ki, Rusiya Türkiyənin bu ərazilərdə antiterror əməliyyatlarına etiraz etmək üçün qanuni əsas tapa bilsin.

Rusiya bilməlidir ki, Türkiyəyə qarşı prosesi davam etdirəcəksə yuxarıda qeyd etdiyimiz məsələlərlə üz-üzə qalmalı olacaq. Türkiyə Ukrayna hakimiyyətinin də dəvəti ilə Rusiyaya bağlı olan separatçıların meydan suladığı Ukrayna ərazilərinə girə bilər. Bu məsələlərdə Qərb də Türkiyəni müdafiə edəcək".

Artıq Rusiyanın hərbi-siyasi ekspertləri Türkiyənin Dağlıq Qarabağa girə biləcəyi barədə müzakirələr etməkdə və narahatlıqlarını ifadə eləməkdədirlər. Rusiyanın TASS agentliyində keçirilən "Rusiya və Türkiyə: böhranın qarşısını almağın yolları" adlı tədbirdə Geosiyasi Problemlər Akademiyasının prezidenti, general-polkovnik Leonid İvaşov Türkiyənin Dağlıq Qarabağ probleminin həllinə qarışmağa ixtiyarının olmadığını söyləyib: "Türkiyə tərəfinin Rusiya təyyarəsi vurulandan sonra üzr istəməməsi, üstəlik də Dağlıq Qarabağ münaqişəsi ilə bəyanatları hansısa təxribatın olduğundan xəbər verir. ABŞ-la Türkiyənin əlaqələrini, ABŞ-ın bu ölkənin rəhbərliyinə təsir gücünü nəzərə alaraq, hesab edirəm ki, Türkiyə rəhbərliyi özbaşına iş görmür".

Hansı əsasla rusiyalı hərbi-siyasi ekspert, ehtiyatda olan general-polkovnik Dağlıq Qarabağ münaqişəsinə Türkiyənin müdaxilə etmək ixtiyarı olmadığını hesab edir və işğalçı ölkə Ermənistanı dəstəkləyir? Rusiya KTMT üzvü kimi Ermənistanın ərazisinə qorumağa borcludur. Dağlıq Qarabağ ki, Ermənistan ərazisi deyil...

Bu suala ehtiyatda olan general belə cavab verib: "Rusiya Dağlıq Qarabağda müharibənin başlanmasının əleyhinədir. Nəinki, Dağlıq Qarabağda, ümumiyyətlə, Cənubi Qafqazda müharibənin başlanmasını Moskva istəmir. Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyanın siyasəti ondan ibarətdir ki, bu problem siyasi danışıqlar, sülh yolu ilə həll olunmalıdır. Rusiya əlindən gələni edir və bundan sonra da edəcək ki, tərəflər arasında danışıqlar prosesi davam etsin. Müharibəyə yol vermək olmaz. Bu, birinci məqamdır. İkinci məqam isə Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olmamasıdır. Vaxtilə olub, sonra isə çıxıb. Ermənistan isə Rusiyanın müttəfiqidir. Bu nöqteyi-nəzərdən Türkiyə baş nazirinin və silahlı qüvvələrinin Dağlıq Qarabağ münaqişəsinə müdaxilə etmək ixtiyarı yoxdur. Əgər Dağlıq Qarabağda müharibə başlayacağı təqdirdə Türkiyə müdaxilə edərsə, Rusiya dərhal məsələyə qarışmaq məcburiyyətində qalacaq. Çünki Ermənistan Türkiyə ilə quru sərhədə malikdir".

Politoloq Natiq Miri isə rusiyalı ekspertin səsləndirdiyi fikrin absurd olduğunu bildirdi: "Rusiyalı generala verilən sualda da açıq qeyd edilir ki, Dağlıq Qarabağ Ermənistan ərazisi deyil. Rusiyanın Türkiyəni ittiham etmək üçün heç bir qanuni əsası yoxdur".

❑ **Etibar SEYİDAĞA**

# Daha nə qaldı?..



**Hüseynbala SƏLİMOV**

**Mətbuatla bağlı qəbul edilmiş yeni qaydalar, desək ki, bizi ciddi narahat etmədi, bu, bir az yanlışlıq olardı. Çox narahat olduq. Amma həmişə olduğu kimi narahatlığın ifadə forması kimi yenə də yazı yazmağı gördük...**

Əslində təəccüblü şey yoxdur. İldən-ilə qaydaların və qanunların daha da sərtləşməsinin şahidi oluruq. İctimai müqavimət görməyən hökumət demokratiyanın ən son qalıqlarını belə yığışdırmaqdan, yasaq etməkdən heç də çəkinmir. Bizim isə bu prosesə təsir etmək üçün zərrə qədər də imkanımız yoxdur - özümüz yazır, özümüz də oxuyuruq...

Əsası isə odur ki, zahirən jurnalistikaya təpki yoxdur. Hətta hökumət tərəfindən bir zahiri "qayğı" da duyulur. Jurnalistlərə ev verirlər. Onları hətta mükafatlandırırlar. Bunlar çox yaxşıdır. Hətta olduqca yaxşıdır. Amma bir-iki ildən sonra jurnalistlər nə edəcəklər? Hökumətin hədiyyə etdiyi evlərin divarlarını yeyəcəklərmi? Axı onların iş və dolanışıq yerləri biri-birinin ardınca sıradan çıxır...

Jurnalistikanı dağılmış və uçurdulmuş evə bənzətsək görərik ki, hökumət bu xarabalığın üzərində təm-təraq yapır, maskarad qurur. Biz isə kənar seyrçilər kimi bu evin dağılmasını, yerlə yeksan olmasını seyr edirik...

Nə edə bilərik? Bizdən nəsə asılıdırmı? Təəssüf ki, bu sualları cavablandırmaqda acizik. Getdikcə suallar çoxalır, cavablar isə tapılmır. Bizi narahat edən də budur - heç kim çıxış yolunu bilmir...

Bircə onu bilirik ki, bunun fəsadları çox böyük olacaq. Bu, nə vaxt baş verəcək, onu bilmirəm. Bircə onu bilirəm ki, əgər ölkədə leqal müxalifətin fəaliyyət göstərməsi üçün imkan yoxdursa, insanlar onları maraqlandıran və düşündürən xəbərləri almaq imkanından məhrumdursa, onda müxtəlif qeyri-leqal ünsürlərin meydana çıxması üçün şərait yaranacaq...

Ərəb ölkələri niyə bu günə qaldı? İllərlə normal siyasi mübarizəyə, normal və leqal siyasi fəaliyyətə, insanların özlərini ifadə etməsinə imkan verməmişdilər.

Cəmiyyətdə demokratik vərdişlər yaranmamışdı. Qadağalar və yasaqlar radikal etiraz ocaqları, radikal insanlar yaratmışdı. Azacıq boşluq yararnan tək onlar meydana çıxdı və hamı baxıb gördü ki, siyasi meydanda onlardan savayı heç kim yoxdur...

Beləcə, "ərəb baharları" fiaskoya uğradı. Ölkələr dağıldı, insanlar didərgin və səfil oldular... İndi nə görürük? Görürük ki, polis dəyənəklə Avropaya pənah aparan insanların arasında gəzişir, sanki heyvanla davranırmış kimi bu adamları dəyənəklə vurur!.. Uşaqlar ağlayır, qadınlar və kişilər öz uşaqlarının gözü önündə təhqir olunurlar.

Bəli, deyirlər ki, B.Əsədin dövründə bu cür deyildi, minimal da olsa, həyat şəraiti vardı. Amma bu ölkələri belə günə salan elə məhz B.Əsədlər deyilmi?

Digər avtroritar ölkələr və liderlər də bunu görür. Amma onlara elə gəlir ki, belə bir aqibətdən qaça biləcəklər. Amma haqlıdırlarmı? Onları belə bir gün gözləmirmi? Əlbəttə, haqlı deyillər. Əlbəttə, onların hamısını bu gün gözləyir.

Bu, beş il, üç il sonra ola bilər. Amma islahatlar olmasa, insanlara demokratik vərdişlər aşılanmasa bunlar qaçılmazdır...

Ona görə də çox narahatıq. Ən maraqlısı odur ki, bu tendensiyanın müxtəlif təzahürləri artıq özünü biruzə verir. Getdikcə radikal qüvvələr, dini radikallar bu ölkədə də özlərini nəzərə çarpdıra bilirlər...

O gün bir verilişə baxırdım. Deyirlər ki, din siyasətə qarışmamalıdır, kim siyasi fəaliyyətlə məşğul olmaq istəyirsə, dünyəvi siyasi partiyalara üz tutsun. Tamamilə doğrudur, dini siyasətə qarışdırmaq olmaz.

Amma bir məsələ var.

Haradadır o dünyəvi siyasi partiyalar? Onlara fəaliyyət göstərmək üçün azca da olsa imkan verirlərmi? Niyə bu partiyaların parlamentdə təmsilçiləri yoxdur? Niyə onlar, necə deyərlər, siyasətin periferiyasına sıxışdırılıblar? Bu, radikalların, dini radikalların, necə deyərlər, dəyirmanına su tökmək deyilmi? Onların dediklərinə haqq qazandırmaq deyilmi?..

Təəssüf ki, belədir. Məsəl var, deyirlər ki, müqəddəs yer boş qalmır. Bu gün ölkədə siyasi vakuum var. Bu vakuumu arzuolunmaz siyasi qüvvələr, müxtəlif siyasi elementlər doldurur. İndi onlar elə də güclü deyillər. Amma demokratiyaya qarşı yönələn yasaqlar gələcəkdə onları gücləndirməyəcəkmi? Məsələ də bundadır ki, onlar güclənəcəklər. Məsələ də bundadır ki, onlar nə vaxtsa ictimaiyyəti də öz tərəflərinə çəkə biləcəklər...

Onda nə olacaq? Heç olmasa, o vaxt biz nə boyda bir səhv etdiyimizin fərqinə varacağıqmı?..

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

# Nardaran hadisələri terrordurmu?

## İstintaq orqanlarının terror adlandırmadıqları hadisəni Çavuşoğlu nə üçün belə qələmə verdi...



Mövlud Çavuşoğlu

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun noyabrın 26-da baş verən Nardaran hadisələrini terror kimi qələmə verməsi Azərbaycanda geniş müzakirələrə səbəb olub. Hadisə ilə bağlı başsağlığı verən, dəstək nümayiş etdirən Çavuşoğlu bildirib ki, ümid edirik, Türkiyə və Azərbaycanda bir də terror olmayacaq.**

Təsadüfi deyil ki, hadisədən keçən bu müddət ərzində ölkəmizin istintaq orqanları hələ də baş verənlərin terror olub-olmaması barədə qəti fikir bildirməyiblər. O zaman bir sual meydana çıxır: Doğurdanmı Nardaran hadisələri terrordur?

Politoloq Ərəstun Oruclu hesab edir ki, Nardaranda 7 nəfərin ölümü ilə bağlı baş verən hadisə Cinayət Məcəlləsində yazılan terror sözünün mənaları ilə uyğun gəlmir: "Cinayət Məcəlləsində terror sözünün izahı var. Sözbəsöz terrorun nə olduğu yazılıb. Nardaranda baş verən həmin atışma buna uyğun gəlmir. Bu günə qədər Nardaran hadisəsini hüquq-mühafizə orqanları terror kimi dəyərləndirməyiblər. Burada söhbət Cinayət Məcəlləsindən gedirsə, polisə silahlı müqavimət, qanunsuz silah saxlama, odlu silahdan istifadə etmə kimi hallar ola bilər. Hüquqşünas olmadığımdan bildiklərimi deyirəm. Terror tamam başqa anlayışdır. Terror ictimai xof, cəmiyyətdə çaşqınlıq yaratmaq kimi anlayışlardır. Düşünürəm ki, hüquq-mühafizə orqanlarımız bu hadisəni terror adlandırmamaqda haqlıdırlar. Ona görə ki, burada terror əlamətləri yoxdur".

Politoloq bildirdi ki, bir ölkənin rəsmisi digər dövlətdə baş verən hadisəni şərh etməməlidir: "O zaman şərh verər ki, hadisə törədilən ölkənin mövqeyi olsun. Çavuşoğlunu AŞ PA-nın həmsədri olduğu dövrdən tanıyırıq. Bu baxımdan onun fikirləri mənə təəccüblü gəlmədi. Diplomatik təcrübədə belə hallar olmur. O, Azərbaycan hakimiyyətinə dəstək ifadə etmək istəyib. Sadəcə, bir qədər canfəşanlıq edib. Özü də həddindən artıq. Onun fikirlərində bir səbəb görmürəm. Sadəcə, dəstək ifadəsinin Çavuşoğlu forması idi".

Ə.Oruclu Nardaran hadisələrinə olan baxışını bu cür ifadə etdi: "Hadisənin detallarını bilmirəm. Rəsmi açıqlama bir yanadır. Burada düzgün nəticə o zaman çıxarıla bilər ki, əməliyyat çəkilişi olardı, bundan müəyyən nəticə çıxarılardı. Amma bilmədiyim üçün öz mülahizələrimi irəli sürmək istəmirəm. Hər halda pis haldır ki, belə hadisə baş verdi. Bu gün müxtəlif məntiqsiz bəyanat, çağırışlar səsləndirilir. İnsanlar din faktorunu əsas götürüb zorakılığa çağırışlar edirlər. Belə hallar təhlükəlidir. İndiki dövrdə hansısa təhlükəyə, təhdidə rəvac vermək lazım deyil. İstənilən münaqişə danışıq yolu ilə həll olunur. İstər dövlət vətəndaş münasibəti, istərsə də dövlətlərarası münasibətlər olsun. Hətta ən böyük müharibələr belə sonda masa arxasında bitir. Burada təşəbbüs irəli sürülməlidir. Hakimiyyət ölkə arasında baş verən bütün hadisələrə görə məsuliyyət daşımaqla yanaşı təbii ki, ictimai asayişi təmin etməyə borcludur. Açığı, nardaranlıların reaksiyası anlaşılan deyil. Tutaq ki, polis əməliyyatı keçirilir, əməliyyat zamanı ölüm olur. Bunun axı kənd əhalisinə aidiyyəti yoxdur. Kənd əhalisi ayağa qalxır, sanki əhaliyə qarşı olub. Burada hərbi məsuliyyət anlayışı var. Bu əməliyyat konkret şəxslərə qarşı keçirilib. Niyə bütün kənd ayağa qalxır, yaxud bunları ayağa kimlər qaldırır? Bunlar bir tərəfin yanlışıdır. Digər tərəfin yanlışı isə elektrik borclarını indi xatırlamaq, telekanallarda, mediada müxtəlif çağırışlara yol vermək kimi addımlardır. Hesab edirəm ki, emosiyadan uzaqlaşmaq lazımdır. Məsələni həll etmək lazımdır. Qarşıdurmaya getmək, güc tətbiq etmək daim mümkün olan yoldur. Amma bu yol effektiv deyil. İlk növbədə, nardaranlılar geri çəkilməlidir. Başa düşməlidirlər ki, bu, hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatdır. Bunu bütün kəndə aid etmək lazım deyil. Nəzərə alaq ki, öldürülmüş şəxslərdən ikisinin kəndə aidiyyəti yoxdur. Kənd əhalisi bunu kəndə təcavüz kimi qiymətləndirməməlidir. Bunun arxasında kimlər durur, yaxud niyə başqa istiqamətə yönəldirlər? Bunlar başqa vaxtın söhbətidir. Kəndin işığını kəsmək, yollarda post qurmaq yersizdir".

❑ Cavanşir ABBASLI

**Xəbər verdiyimiz kimi, Donetsk Azərbaycanlıları Konqresinin sədri Malik Pirverdiyevin oğlu Cəlal Pirverdiyev bu ilin oktyabrında naməlum şəxslər tərəfindən oğurlanıb. Bu haqda Ukrayna KİV-ində yayılan məlumatlarda bildirilirdi ki, C.Pirverdiyevlə yanaşı digər bir şəxs də oğurlanıb.**

# Ukraynadakı adam oğurluğunda Akif Çovdarov izi

## Ehtimal olunur ki, oğurlanan tələbələrlə bağlı cinayətdə MTN-dəki kriminal çetenin də əli olub



Akif Çovdarov

Digər oğurlanmış şəxsin kimliyi, onun ailəsi haqda isə çox məhdud məlumat var. Həmin məlumatda bildirilirdi ki, oğurlanan bir iş adamının oğludur və Ukraynada təhsil alıb. Tələbə gəncin buraxılması üçün yaxınlarından 1 milyon dollar "xərac" tələb olunur. Həmin şəxsin kimliyi gizli saxlanılırdı.

"Yeni Müsavat"a daxil olan məlumata əsasən, oğurlanan ikinci şəxsin Fərid adlı tələbə olduğunu yazmışdıq. Əldə etdiyimiz yeni məlumatda Fəridlə bağlı bir qədər geniş informasiya yer alır.

Fərid Nemət oğlu Qasımov Ukrayna Tibb Universitetinin 4-cü kursunda oxuyub. Onun atası Bakıda tanınmış diş həkimidir. Yasamal rayonunda özünə məxsus klinikası var. Malik Pirverdiyevin oğlu Cəlal Pirverdiyevi oğurlayan dəstənin girovluğunda olan F.Qasımov atasının "oğru aləmi" ilə danışıqlarından sonra 350 min dollar müqabilində azad olunub. Belə məlumatlar da var ki, F.Qasımovun hədəf seçilməsi təsadüfi olmayıb. Ehtimal olunur ki, onun atasının imkanlı olması haqda ifşa olunan Mahmudov-Çovdarov çetesi tərəfindən Ukraynadakı kriminal qruplaşmaya məlumat ötürülüb. Diş həkimindən 1 milyon dollar tələb edən dəstə MTN-dəki "təmizləmələrə" qədər tələb etdiyi xərac məbləğinin tam şəkildə ödənilməsində israr edib. E.Mahmudov işdən çıxarılandan, A.Çovdarov həbs ediləndən sonra isə birdən-birə məbləğ 350 min dollara qədər endirilib. Belə məlumat da var ki, F.Qasımovun atası əmlakını sataraq əldə etdiyi pullarla Ukraynaya gedib və orada əmlakın satılmasından əldə etdiyi pulları kriminal qruplaşmaya ötürməklə oğlunu girovluqdan azad etdirə bilib.

F.Qasımov Ukrayna Azərbaycanlı Gənclər Birliyinin Donetsk Vilayət təşkilatının sədri Cəlal Pirverdiyevlə birgə oktyabrın 13-dən 14-nə keçən gecə Kiyevdə müəmmalı şəkildə naməlum şəxslər tərəfindən oğurlanmışdı. Bununla bağlı artıq Ukraynanın hüquq-mühafizə orqanlarına müraciət edilib. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

M.Pirverdiyevin oğlu oğurlanandan sonra bu fakt ictimaiyyətdən gizli saxlanıb, yalnız onun itkin düşdüyü barədə informasiyalar verilmişdi. Bildirilirdi ki, M.Pirverdiyevin oğlu Cəlal Pirverdiyev 1993-cü ildə anadan olub, 22 yaşı var, sosial şəbəkələrdə fəal olub və komfort həyat tərzini nümayiş etdirməyi çox xoşlayıb. İnternetdə axtarışlar zamanı hətta C.Pirverdiyevin Ukraynada söz-söhbətə səbəb olan bir neçə hadisədə iştirakı ilə də rastlaşmaq mümkündür. Ukrayna internet saytlarında C.Pirverdiyevin 2015-ci il, oktyabrın 14-də itkin düşdüyü barədə informasiyalar yer alıb. Bildirilir ki, M.Pirverdiyev Donetskdə nüfuzlu azərbaycanlı iş adamlarındandır. Onun oğlunun Azərbaycanda cəza çəkən "qanuni oğru"nun adamları tərəfindən oğurlandığı da iddia olunur.

Qeyd edək ki, Rusiya Daxili İşlər Nazirliyinin (DİN) Cinayət Axtarış Baş İdarəsi və "Vaşaq" xüsusi çevik dəstəsinin əməkdaşları adam oğurluğu, soyğunçuluq və zorakılıq əməllərində şübhəli bilinən etnik mütəşəkkil qrupun 3 üzvünü yaxalayıb. Şübhəli şəxsləri hazırda Azərbaycanda cəza çəkməkdə olan "qanuni oğru"nun idarə etdiyi bildirilir.

❑ E.HÜSEYNOV

# Baş Prokurorluq Bakı vağzalındakı müəmmalı ölüm işini nəzarətə götürdü

## Lumu Kazımova bildirir ki, həyat yoldaşının öldürülməsi onların əmlakının ələ keçirilməsinə xidmət edib

**Bakı Dəmir Yolu vağzalında yerləşən "Ləman" kafesində müəmmalı şəkildə dünyasını dəyişmiş Mövsüm Kazımovun ölüm işini Baş Prokurorluq nəzarətə götürüb. Bakı Şəhər Prokurorluğu Nəsimi rayon Prokurorluğunun müstəntiqi Anar Abıyevin müəmmalı ölümlə bağlı qəbul etdiyi qərarı ləğv edib və işi yenidən istintaqa qaytarıb. Məhkəmə tibbi ekspertizanın keçiriləcəyi, meyitin ekskumasiya olunacağı gözlənilir.**




M.Kazımovun həyat yoldaşı Lumu Kazımova deyib ki, iş Nəsimi Prokurorluğunda müstəntiq Pirayə Səmədzadə tərəfindən araşdırılıb: "Yoldaşımın ölümündən sonra evimizi də dələduzluq edib satmışdılar. Mənim şikayətlərimdən sonra işin araşdırılmasını 19-cu polis bölməsində təhqiqatçı Ruslan Sadıqova tapşırmışdılar. Təhqiqatçı dələduzluq faktı olmadığını əsas gətirib cinayət işinin başlanmaması haqda qərar qəbul etmişdi. Həmin qərar da ləğv olundu, iş üzrə dindirilməli olan 12 nəfər müəyyən ediblər. Evimizin alqı-satqısı qeyri-qanuni olaraq Yasamal rayonu ərazisindəki 53 saylı notariusda aparılıb. Notarius Əli Hüseynov həyat yoldaşımın ölümündə əli olan Elçin Zamanovla Eldar Rəhimovun tanışı olub. Buna görə də işi Nəsimi Prokurorluğu Baş Prokurorluq vasitəsi ilə Yasamal rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərib. İş hazırda müstəntiq Orxan Ələkbərovdadır".

Zərərçəkən deyir ki, Elçin Zamanov qızıl alverçisidir, məkləriklə məşğuldur: "Bu adam sələmə pul verir. Onlar qrup şəkildə fəaliyyət göstərirlər. Bizə qarşı etdikləri dələduzluqlar kimi bir neçə oxşar fakt var. Bir nəfər zərərçəkəni döyüb xəstəxanalıq ediblər. Mən də şikayət edəndən sonra hədə-qorxu gəlirdilər. Deyirdilər ki, sənin üçün pis olacaq".

Hazırda Bakı şəhəri, Mikayıl Müşfiq küçəsi ev 10, mənzil 45 ünvanında müvəqqəti yaşayan L.Kazımova bildirir ki, həyat yoldaşının öldürülməsi onların əmlakının ələ keçirilməsinə xidmət edib. L.Kazımovanın sözlərinə görə, 28 fevral 2015-ci ildə həyat yoldaşı "Ləman" kafesində öldürüləndən sonra Nəsimi Rayon Prokurorluğunda çox səthi araşdırma aparılıb və 1 aprel 2015-ci il tarixdə cinayət işinin başlanılmasının rədd olunması barədə qeyri-obyektiv qərar qəbul edilib. Bununla yanaşı qəbul edilmiş qərar gizlədilib, Baş Prokurorluğun göstərişindən sonra ona verilib: "Həyat yoldaşımın ölümünün səbəbkarı Eldar Əli Əşrəf oğlu Rəhimovdur. Belə ki, Eldar Rəhimov mənim həyat yoldaşımı ticarət qurmaq adı altında aldadaraq tanışı Elçin Zamanovdan 30 min manat faizlə pul götürüb. Eldar Rəhimov söz verib ki, pulu 3 ay müddətinə qaytaracaq. Bu məqsədlə o, dələduzuq yolu ilə ona olan inamından və etibarından sui-istifadə edərək bizə məxsus olan Bakı şəhəri, Nəsimi rayonu, 3-cü mikrorayon, A.Musatafayev küçəsi 17 "a" ünvanında yerləşən 46 saylı, 3 otaqdan ibarət olan mənzili girov qoymaq adı ilə aldadaraq Elçin Zamanovun adına keçirdi.

Sonradan E.Zamanov həmin mənzili banka girov qoyaraq pul götürüb və mənzili bankın iştirakı ilə satıb. Nəticədə mən və həyat yoldaşım yeganə yaşayış sahəmizdən məhrum olaraq küçələrdə qalmışıq. Həyat yoldaşım haqqa nail olmaqdan ötrü dəfələrlə qeyd olunan şəxslərlə əlaqə saxlamışdı. Eldar Rəhimovdan mənzilini qaytarmağı tələb etmişdi. Eldar Rəhimov hər dəfə bizi aldadırdı. Deyirdi ki, Mərdəkan qəsəbəsində Dərya Dadaşov küçəsi 88 ünvanında mülki var. Həmin mülki 450 min manata satıb mənzili geri qaytaracaq. Lakin bu söhbət də günü-gündən uzanırdı. Artıq onun bu hərəkətlərinə həyat yoldaşım dözə bilmirdi. Sonuncu dəfə də Eldar Rəhimovla yoldaşım "Ləman" kafesində görüşüb ki, bu məsələyə son qoyulsun. Görüşən zaman həyat yoldaşımla Eldar Rəhimovun arasında mübahisə olub. Həmin vaxt baş verənlər mühafizə kamerası tərəfindən çəkilib. Lakin kamera görüntüləri saxtalaşdırılaraq tam variantda işə əlavə olunmayıb. Müstəntiq Anar Abıyev Eldar Rəhimovun cinayət əməlinə düzgün hüquqi qiymət vermədi. Mən dövlətimizə, prezidentimizə, qanunlarımıza güvənərək, onlara arxalanaraq pozulmuş hüququmun bərpa olunmasını tələb edirəm. Ümidvaram ki, ölkənin ali rəhbər şəxsləri mənə və həyat yoldaşıma qarşı törədilmiş cinayətin iştirakçılarının məsuliyyətə cəlb olunmasını təmin edəcək".

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

# Macarıstanın Azərbaycandakı konsulu və ya mister "səs-küy"...

## "Yeni Müsavat"ın əməkdaşlarının Budapeştdə keçirilən Azərbaycan mədəniyyəti günlərinə getmələri əngəlləndi

**Diplomatik missiyalarda çalışanların əsas özəllikləri nəzakətli olmaları, etiket qaydalarına xüsusi diqqət ayırmalarıdır. Ən gərgin anlarda, ən naqaloy situasiyalarda belə diplomatlar bu çərçivədən çıxmırlar. Çoxumuzun diplomatlar haqqında genəl düşüncəmiz belədir. Amma bu sözləri onların hamısına aid etmək olmaz. Məsələn, Macarıstanın Azərbaycandakı baş konsuluna.**

Dekabrın 3-15-də Budapeştdə keçiriləcək Azərbaycan mədəniyyəti günlərinə dəvət edilmişdik. "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu, "Yeni Müsavat" qəzetinin müxbiri olaraq biz, Minval.az saytının təmsilçisi olaraq Sevinc Telmanqızı. Tədbiri keçirən "Qardaşlıq" Macarıstan-Azərbaycan Cəmiyyəti adımıza dəvətnamə göndərən andan viza almaq üçün hazırlıqlara başladıq.

Türk Hava Yollarından Budapeşt uçağına gediş-dönüş biletlərini, dünyanın istənilən nöqtəsində otel sifarişi imkanı yaradan booking.com-dan otel rezervasiyalarını həll etdik, sığorta sənədi aldıq, viza üçün tələb olunan arayışları topladıq. Bundan başqa, "Yeni Müsavat"çıları dəvət edən cəmiyyət Macarıstanın Azərbaycandakı səfirliyinə ayrıca məktub göndərdi, "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu cənab səfirə səfərin ikitərəfli münasibətlərin inkişafı üçün önəmli olduğunu anladan məktub yazdı, viza işlərinə dəstək olmasını istədi.

Tədbirin keçirilməsinə 10 gün qalmış bütün sənədlər hazır oldu və qəzetin baş direktoru Ələsgər Süleymanov Macarıstanın Azərbaycandakı səfirliyinin konsulluq şöbəsinə zəng vuraraq onların təqdim edilməsi üçün zaman istədi. Bütün həngamə də bundan sonra başladı.

Konsulluq işçiləri bildirdilər ki, artıq gecdir, sənədlər ən azı 2 həftə öncədən verilmədir. Yadlarına saldıq ki, səfər işgüzar xarakter daşıyır, dəvət olunan şəxslər qəzetçilərdi, qarşıda 6 iş günü var, Avropa Birliyi ilə Azərbaycan arasında tətbiq olunan sadələşdirilmiş viza rejiminə əsasən bu müddətdə jurnalistlərə viza verilməsi heç bir problem yaratmamalıdır. Olmadı... Konsulluqda çalışanlar konsulla danışmağı məsləhət gördülər.

Konsul diplomatik tondan kənar bir tərzdə baş direktora bildirdi ki, qarşıdakı 3 gün bina təmirə dayanacaq (sanki bu səbəbdir), konsulluq işləməyəcək, gecdir, sənədlər gətirilməyib, alınmır. Konsulun yox, Ələsgər bəyin diplomatlara xas danışığından sonra "sənədləri təcili gətirin" dedilər. Yarım saat sonra Sevinc Telmanqızı ilə ordaydıq.

Binanın girişində gözləyərkən içəridən getdikcə yüksələn kişi səsi eşitməyə başladıq. Sözlər aydın eşidilməsə də, yüksək səslinin telefonla danışdığı hiss olunurdu. Konsulla Ələsgər bəyin ilk danışığının canlı şahidi olduğum üçün təxminimi Sevincə dedim - deyəsən, bu "tərəflər"in ikinci danışığıdır.

Az sonra içəri dəvət edildik. Sənədləri konsulluq işçisinə təqdim edirdik ki, konsul özünü yetirdi:

- Sizsiz jurnalistlər?

Konsulun bütün sinirlərini üstümüzə ləşkər kimi çəkməyindən şaşırmış halda "bəli" dedik.

- Sizin direktora dedim axı, 10 gün azdı, biz təmirə bağlanırıq, viza verə bilməyəcəm.

Diplomat əsəbi tonda təqdim etdiyimiz sənədləri çıxdaş etməyə başladı:

- Bu nə dəvətnamədir gətirmisiz? Mən belə təşkilat tanımıram.

- Cənab konsul, bu sizin ölkənizdə rəsmi fəaliyyət göstərən təşkilatdır. Sizə təqdim edilən sənəd xüsusi blankdadır, orada dəqiq ünvan, telefon, e-mail yazılıb. Təşkilatın rəhbəri cənab səfirə xüsusi məktub da yazıb. Bu təşkilat rəsmi qurumlarla bir neçə dəfə ortaq layihələr həyata keçirib, ikitərəfli münasibətlərin inkişafı üçün konkret işlər görüb.

Dəvətnaməni kənara vızıldadan konsul həzrətləri ikinci bəhanəyə keçir:

- Mən hardan bilim harda qalacaqsız? Booking-dən otel rezervasiyası qəbul etmirəm. Burdan çıxan kimi onu ləğv edə bilərsiz.

- Cənab konsul, niyə ləğv edək ki? Booking-dən rezervasiya eləməklə ötən il hərəmiz bir neçə dəfə Fransa, İsveçrə, Latviya səfirliklərindən Şengen vizası almışıq. Bir dəfə də bununla bağlı irad eşitməmişik. Hər dəfə göstərdiyimiz yerlərdə qalmışıq.

Pasportlar etinasızlıqla bir kənara atılır, sənədlər az qala havada uçuşur:

- Hanı sizin bank hesabınızdan çıxarış?

- Cənab konsul, bu şəxsi səfər deyil. Bizim bütün xərclərimizi redaksiya ödəyir. Nağd şəkildə. İndiyə qədər dəvət olunduğumuz tədbirlərə gedərkən heç bir səfirlik bizdən bank çıxarışı tələb etməyib.

- Mən verə bilmərəm. Mümkün deyil. Axı sizə niyə ayrıcalıq tanınmalıdır?

- Ona görə ki, Avropa Birliyi ilə Azərbaycan arasında razılaşma var - peşə fəaliyyəti ilə bağlı birlik ölkələrinə səfər edən jurnalistlərə sadələşdirilmiş rejim tətbiq olunur. Biz dəfələrlə digər səfirliklərdən cəmi 3-4 iş gününə Şengen vizası almışıq.

- Mən vermirəm. Özüm də jurnalist olmuşam. Jurnalistlərə hörmətim var. Amma bu sənədlərin heç biri qaydasında deyil.

- Cənab konsul, hansı sənəd qaydasında deyil?

- Heç biri. Orada qalacağınız otel bizə ödəniş edilməsi haqqında sənəd göndərməlidir.

Absurdun beləsi. Bəlkə, kimsə hər hansı gözlənilməz səbəbə görə səfərə çıxa bilmədi? Lap viza verilməsi ilə bağlı gerçək bir problem çıxdı... Kim istifadə etmədiyi otelin pulunu verər, ya da verməlidir? Getdikcə səsini yüksəldən və "bu ölkədə heç kim qanunlara əməl etmək istəmir" ittihamı ilə üzərimizə gələn konsula diplomatik ton seçməsini məsləhət görürük, qarşısında ölkənin ən böyük media qurumunda çalışan beynəlxalq tədbirlərlə iş təcrübəsi olan 2 əməkdaşının olduğunu xatırladırıq. Adam kükrəməyə davam edir:

- Sabah gəlin, sıra nömrəsi alın, ona qədər oteldən ödəmiş çeki alın, bank hesabınızdan çıxarış gətirin, dəvətnamənizi təzədən yazdırın (niyəsi, nə üçünü bilinmir). Bunlar olsa, sənədlərinizi qəbul edəcəm. Viza verib-verməyəcəyimə bundan sonra qərar verəcəm.

Xeyri yoxdur, neyləsəz də "verməyəcəm".

Pərdə enir, "konsul teatrı" başa çatır... Bizim şokumuz isə davam edir.



Qəzetçilik sıradan peşə deyil. Jurnalist hər yerə gedə bilməlidir. Bu onun peşəsinin xüsusiyyətidir. Dünyanın hər hansı nöqtəsində önəmli sayılacaq bir olay varsa, qəzetçinin uçağa minib ora getmək imkanı olmalıdır. Elə buna görə də Şengen vizası verilməsinin sadələşdirilmiş qaydası dövlət, hökumət rəsmiləri ilə yanaşı jurnalistlərə də tətbiq olunur. Heç şübhəsiz, söhbət gerçək jurnalistlərdən gedir. O jurnalistlərdən ki, bir ölkəyə ayaq qoyandan gələnə qədər, hətta sonra gördüklərini topluma çatdırırlar, yazırlar, göstərirlər. Biz ömründə bir yazı yazmayıb cibində 10 qəzetin, saytın vəsiqəsini gəzdirənlərdən, tez-tez də diplomatik missiyaların tədbirlərində boy göstərənlərdən danışmırıq. Çalışdıqları ölkələrin media quruluşlarını, jurnalistlərini ayırd etmək səfirliklərin vəzifələrindən biri olmalıdır, yanılmırıqsa.

Heç şübhəsiz, konsulun Azərbaycanın aparıcı media quruluşunu təmsil edən qəzetçilərə qarşı hərəkəti haqda Macarıstan Xarici İşlər Nazirliyinə məktub göndəriləcək. Düşünürük ki, cənab konsulun ölkəsində onun diplomatik qaydaları, etiketi necə ayaq altına atmasından xəbərdar olmalıdırlar. Konsulun viza vermək kimi, viza verməmək hüququ da var. Ancaq onun öz vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə təqdim edilən sənədləri havalarda nümayişkarənə uçurmaq səlahiyyəti yoxdur. Buna görə adamı ilk uçaqla ölkəsinə də uçura bilərlər. İnanırıq ki, bunu cənab konsula diplomatiyanın bütün tələbləri çərçivəsində mütləq xatırladacaqlar.

❑ **Aygün MURADXANLI**



# Eldar Mahmudovun dəstəsinə hansı hakimlər kömək edib?

## Sabiq nazirin ev dustağı edildiyi bildirilir...

**Eldar Mahmudovun Milli Təhlükəsizlik Nazirliyinin (MTN) rəhbərliyindən uzaqlaşdırılmasıyla böyük bir cinayətkar dəstənin dəhşətli əməlləri faş oldu. Hazırda MTN-in ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə səlahiyyətlərini aşma faktları ilə bağlı cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

Baş Prokurorluğun məlumatına görə, qeyd olunan faktlar üzrə MTN-dən qovulan 19 sabiq vəzifəli şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə həbs olunub, 1 nəfər ev dustağı edilib, istintaqdan yayınan 1 şəxs barəsində axtarış elan edilib.

Baş Prokurorluğun məlumatında adı keçən MTN-in 19 sabiq əməkdaşı aşağıdakılardır:

Akif Çovdarov (MTN Baş İdarəsinin sabiq rəisi),
Akif Əliyev, (sabiq şöbə rəisi),
Səlim Məmmədov (sabiq şöbə rəisi),
Orxan Osmanov (sabiq şöbə rəisi),
Sübahir Qurbanov (MTN Baş İdarəsinin sabiq rəisi),
Füzuli Əliyev (sabiq şöbə rəisi),
Natiq Alıyev (sabiq şöbə rəisi),
Zaur Məmmədov (sabiq şöbə rəisi),
İlqar Əliyev (MTN Baş İdarəsinin sabiq rəis müavini),
Azər Mehdiyev (sabiq şöbə rəisinin müavini),
Teymur Quliyev (MTN Baş İdarəsinin sabiq rəisi),
Natavan Mirvətova (MTN Baş İdarəsinin sabiq rəisi),
Elşad Əzizov (MTN Baş İdarəsinin sabiq əməkdaşı),
Anar Şirəliyev (MTN Baş İdarəsinin sabiq əməkdaşı),
Fərhad Atayev (MTN Baş İdarəsinin sabiq əməkdaşı),
Eşqin Əliyev (MTN Baş İdarəsinin sabiq əməkdaşı),
Vüsal Ələkbərov (sabiq şöbə rəisi),
Mehman Abdullayev (MTN Baş İdarəsinin sabiq əməkdaşı),
Mirəziz Əsgərov (MTN Baş İdarəsinin sabiq şöbə rəisi).

Baş Prokurorluğun açıqladığı yuxarıdakı siyahıdan sonra mediada ev dustağı edilən (barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilən) 1 nəfər şəxsin MTN-in Əməliyyat-Texniki Baş İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mirvətova olduğu haqda xəbər dərc olundu.

Bu arada Modern.az saytına verilən qeyri-rəsmi məlumatda bildirilib ki, əslində ev dustağı edilən şəxs mətbuatın bir qədər əvvəl yazdığı kimi Natəvan Mirvətova deyil, sabiq nazirin özü Eldar Mahmudovdur.

İstintaqdan yayınan 1 nəfər sabiq MTN-çinin adı isə hələ ki açıqlanmayıb.

Prokurorluğun rəsmi məlumatında bildirilir ki, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.

Qeyd edək ki, MTN əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş şəxslərin əksəriyyəti sahibkarlar, müxtəlif iş adamlarıdır. Və onların bir çoxu barələrində təqdim edilən qondarma ittihamlarla məhkəmə qarşısına çıxarılıb, hökm oxunub, həbsə atılıb. Bu isə o deməkdir ki, sabiq MTN-çilərin təqdim etdiyi saxta dəlillər hansısa məhkəmə hakimləri tərəfindən obyektiv araşdırılmadan sahibkarlar barəsindən əsassız hökm çıxarılıb. Dolayısı ilə bəzi məhkəmə hakimləri bilərəkdən, qorxudan, ya da rüşvət müqabilində Eldar Mahmudovun quldur dəstəsinin cinayətinə hüquqi don geyindirib.

Həmin hakimlər kimlər olub, onları Eldar Mahmudovun dəstəsinə bağlayan tellər nədir?

Yəqin ki, sabiq MTN-çilərdən ibarət quldur dəstəsinin cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirlərinin gedişində bu haqda bilgilər aydınlaşacaq.

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015



# Türkiyə-Rusiya iqtisadi savaşının qalibi kim olacaq?

## Natiq Cəfərli: "Hər iki tərəf itirəcək, ancaq Rusiyanın zərərləri daha çox olacaq..."

**Türkiyə ilə Rusiya arasındakı gərginlik tərəflərin bir-birilərinə qarşı iqtisadi sanksiyalar tətbiq etməsi fonunda davam edir. Baş verənləri ekspertlər iki ölkə arasında iqtisadi savaşın başlanması kimi qiymətləndirirlər. Bəs bu iqtisadi savaşdan hansı ölkə qalib çıxacaq?**

Məsələ ilə bağlı qəzetimizə danışan iqtisadi ekspert Natiq Cəfərli bildirib ki, baş verənlər səbəbindən hər iki tərəfin iqtisadi baxımdan ciddi itkiləri olacaq: "Ticarət balansına baxdıqda görürük ki, bu ilin on ayında iki ölkə arasında 19 milyarda yaxın ticarət dövriyyəsi olub. Bunun 3 milyarda yaxını Türkiyənin satdığı məhsullardırsa, 16 milyarda yaxını isə Rusiyanın məhsullarıdır. Burada əsas enerji daşıyıcılarıdır. Türkiyə Almaniyadan sonra "Qazprom"dan ən çox qaz alan dövlətdir. Belə ki, Türkiyə bəhs etdiyimiz şirkətdən illik 18 milyard kubmetrə yaxın qaz alır. Əgər Rusiya iqtisadi savaşda israrlı olsa, şübhəsiz ki, Türkiyə gələcəkdə özünün qaz tələbatını digər dövlətlərin hesabına ödəyəcək. O cümlədən İrandan da qaz ala bilərlər ki, bu da Rusiyaya zərbə olar. İkinci böyük zərbə isə ondan ibarət olar ki, Türkiyədə ümumi dəyəri 20 milyarda yaxın olan "Ağ quyu" atom elektrik stansiyası və laboratoriyaları tikintisi nəzərdə tutulurdu. Bunu da rus şirkəti həyata keçirəcəkdi. Bu layihə də ləğv edilərsə, Rusiya iqtisadiyyatına böyük zərbə olacaq".

Ekspert bildirib ki, Türkiyənin bu savaşda itirəcəyi turizm sahəsindədir: "Rusiya hər il önəmli sayda Türkiyəyə turist göndərirdi. Hesablamalara görə, il ərzində həmin turistlər Türkiyəyə 7 milyard qazandırırdı. Əgər turizm sahəsinə olan bu zərbə başqa ölkələr hesabına aradan qaldırılmasa, bəhs etdiyimiz iqtisadi sanksiyalar fonunda Türkiyədə turizm sektoru ən çox zərər çəkən sahə olacaq. Ümumilikdə götürdükdə hazırkı proseslərdən hər iki tərəf itirəcək. Ancaq Rusiyanın zərərləri daha çox olacaq. Çünki Rusiyanın ən böyük ümidlərindən biri "Türk axını" qaz layihəsinə idi. Bu həyata keçməsə, Rusiya iqtisadiyyatı daha çətin duruma düşə bilər. Rusiya ya yenidən Ukrayna ilə barışmalı və satışlarını bu ölkə üzərindən həyata keçirməlidir ki, bu da hazırkı siyasi vəziyyətdə mümkün görünmür, ya da Türkiyə ilə hər hansı bir formada anlaşmalıdır".

Hadisənin siyasi tərəflərini şərh edən politoloq Şahin Cəfərli isə bildirib ki, Putinin Rusiya dövlətinin imkanları ilə üst-üstə düşməyən neoimperialist iddiaları rus xalqına ziyan vurur: "Onun son illər yeritdiyi aqressiv xarici siyasət nəticəsində Rusiyanın dostlarının sırası sürətlə seyrəlib və bu proses davam etməkdədir. Kreml sahibinin öz irrasional addımları ilə düşmənə çevirməyə çalışdığı növbəti ölkə Türkiyə oldu. Məlumdur ki, Türkiyə ABŞ və Avropa Birliyinin Ukrayna məsələsinə görə Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara qoşulmayıb. Ankaranın bu mövqeyi beynəlxalq arenada təklənməkdə olan Moskva üçün çox qiymətli idi. Lakin biz indi görürük ki, Putin az qala zorla Türkiyəni də həmin sanksiyaların iştirakçısına çevirməkdədir. Rusiyanın sanksiyaları, şübhəsiz ki, Türkiyə iqtisadiyyatına müəyyən zərbə vuracaq. Türkiyə turizmi, Rusiyada layihələr həyata keçirən inşaat firmaları, Rusiyaya öz məhsullarını ixrac edən Türkiyə toxuculuq sənayesi və kənd təsərrüfatı, türk fermerləri maddi itkilərlə üzləşəcəklər. Lakin sanksiyalar ikitərəfli dəyənək kimidir, bu dəyənəyin bir ucu da iqtisadiyyatında diversifikasiyanın səviyyəsi aşağı olan Rusiyaya dəyəcək. Türk ortaqlarla iş görən Rusiya şirkətləri ciddi itkilərə məruz qalacaq, Rusiya vətəndaşları yüksək səviyyəli xidmət və ucuz qiymətləri ilə onların sevimli istirahət yerinə çevrilmiş Türkiyənin Akdeniz (Aralıq) və Egey sahillərindən məhrum olacaqlar. Misirdəki durumu da nəzərə alsaq, ruslar üçün ucuz və keyfiyyətli istirahət variantı qalmır. 2014-cü ildə Türkiyə 4 milyondan çox rusiyalı turist qəbul edib".

Politoloq hesab edir ki, bu, önəmli rəqəm olsa da, Türkiyə turizmində Rusiyanın rolunu şişirtməyə dəyməz: "Ruslar ötən il Türkiyəyə gələn turistlərin 12 faizini təşkil edib. Türkiyə turizm sektoru çox dinamikdir və bu itkilərini qısamüddətli perspektivdə tam olmasa da, müəyyən qədər kompensasiya edə biləcəyini və yeni bazarlar tapa biləcəyini düşünürəm. İki ölkə arasında ümumi ticarət dövriyyəsinə gəldikdə, 2014-cü ildə Türkiyənin Rusiyaya ixracı 7 milyard dollara yaxın, Rusiyanın Türkiyəyə ixracı isə 25 milyard dollar təşkil edib. Rusiyanın ixracatında əsas yeri neft və qaz tutur. Türkiyə idxal etdiyi təbii qazın 55 faizini və neftin 16 faizini Rusiyadan alır. Bu, təbii ki, enerji asılılığı deməkdir. Hesab edirəm ki, Türkiyə hökuməti son olaydan sonra belə bir aqressiv ölkədən enerji asılılığının nə qədər arzuolunmaz olduğunu gördü. Yaxın perspektivdə Türkiyənin öz enerji idxalı mənbələrini ciddi şəkildə diversifikasiya edəcəyini düşünürəm. Artıq Şimali İraq kürd hökuməti Türkiyəyə lazım olduğu qədər qaz satmağa hazır olduğunu açıqlayıb, bundan başqa, Ankara sıxılmış maye qaz idxalını da artıra bilər. Bunun nəticəsində hal-hazırda enerji bazarlarından sıxışdırılan, ixrac etdiyi qazın həcmini azaltmağa məcbur olan və gəlirləri də azalan Rusiya daha bir zərbə alacaq. Türkiyə-Rusiya münasibətlərinin daha da gərginləşəcəyi və hərbi müstəviyə keçəcəyi təqdirdə isə Türkiyənin əlində strateji mənada çox güclü bir silah da var. Türkiyə hökuməti boğazları Rusiyanın üzünə bağlaya bilər".

Ş.Cəfərli bildirib ki, hazırda Rusiya özünün Suriyadakı hərbi bazasının silah-sursat, ərzaq və digər zəruri vasitələrlə təchizatını məhz İstanbul və Çanaqqala (Bosfor və Dardanel) boğazları vasitəsilə həyata keçirir: "Bu, Aralıq dənizinə ən qısa yoldur. Montrö konvensiyası hərbi qarşıdurmanın yaranacağı halda, Türkiyəyə boğazları bağlamaq hüququ verir. Bunun baş verəcəyi təqdirdə Rusiyanın Latakiya yaxınlığındakı aviabazası bir növ mühasirə şəraitində qalacaq və operativ-taktiki reaksiya imkanları məhdudlaşacaq. Bu səbəblə, hesab edirəm ki, Rusiya Türkiyə ilə münasibətləri gərginləşdirmək xəttini davam etdirərsə, ən çox itirən tərəf onun özü olacaq. Son olaraq bir məqamı da vurğulamaq istərdim ki, hazırda "yaralı ayı" vəziyyətində olan Rusiya qisas aksiyası keçirib, hesabı bərabərləşdirmək üçün fürsət axtarır. Suriya sərhədləri boyunca, eləcə də Ermənistanla sərhəd xəttində gündəlik uçuşlar həyata keçirən Türkiyə hərbi aviasiyası çox diqqətli olmalı və cavab zərbəsi endirmək üçün bəhanə axtaran Rusiya tərəfinə bu imkanı verməməlidir".

❑ **Əli RAİS**

# Suriya savaşı - müsəlmanların davası deyil, çünki...

## Yaxın Şərqdə növbəti ABŞ-Rusiya qarşıdurması yaşanır, İslam və müsəlmanlar bu savaşda sadəcə, vasitədir...



**Avropada nəşr olunan ərəb dilli "əş-Şərq əl-Ovsat" ("Orta Şərq") qəzetinin yazdığına görə, təyyarə olayından sonra Türkiyə artıq bir neçə gündür Suriyada hərbi təyyarələrin uçuşlarını dayandırıb. Buna qədər Türkiyə aviasiyası Suriya ərazisindəki terror hədəflərini bombalayırdı.**

Qəzet yazır ki, bu tövsiyəni Türkiyəyə Amerika rəhbərliyi verib. Əsas səbəb kimi bölgədə gərginliyin daha da artması və Rusiyanın qisas ala biləcəyi göstərilib. Bilindiyi kimi, ruslar artıq Laziqiyyə limanına S-400 hava hücumundan müdafiə qurğuları gətiriblər. Putin açıq bəyan edib ki, Rusiya güclərinə təhdid yarandığı zaman hədəflər məhv ediləcək. Doğrudur, Türkiyə tərəfi bunu inkar edib, əməliyyatların, sadəcə, fasilə verildiyi üçün dayandırıldığını deyib. Yenə də eyni mənzərə, eyni adlar - Amerika və Rusiya...

İstənilən halda yuxarıda təsvir olunan bu tablo bir sualı ağıllara gətirir: Suriya savaşı kimin savaşıdır? Müsəlmanların, yoxsa başqa qüvvələrin? Doğrudanmı, Suriyada 4 ildən artıqdır davam edən savaşın tərəfləri Bəşər Əsəd və onun bir-birini qəbul etməyən, qarışıq müxalifləri, sünni və şiələr, yaxud da İran, Türkiyə, Qətər, Səudiyyə Ərəbistanıdır? Yoxsa bu savaş Vyetnamdan, Əfqanıstandan sonra Qərb və anti-Qərb blokunun (daha əvvəl bu blokun aparıcı qüvvəsi SSRİ idi) növbəti bir qarşıdurmasıdır?

Əlbəttə, indi bu savaşla bağlı hər tərəfin öz arqumenti var. Ruslar terrorun öz torpaqlarına gəlməsməsi (İŞİD dəfələrlə Rusiyanı təhdid edib) üçün Suriyaya əsgər göndərdiklərini deyirlər. Qərb Parisdən sonra baş şəhərlərin terrorun hədəfi olmaması, terroru öz "beşiyində" boğmaq üçün əsgərlərini Yaxın Şərqə (artıq ABŞ quru qoşunları Şimali İraq ərazisinə daxil olub) göndərdiyini bəyan edir.

Haqlı iddiadır bir baxımdan. Amma o zaman nədən Vyetnamda, Əfqanıstanda, indi də Suriyada Amerika və Rusiya, eləcə də onların hər ikisinin müttəfiqləri terror dedikləri bəlaya qarşı eyni cəbhədə dayanıb döyüşmürlər? Hər zaman bu ölkələr mütləq bir-biri ilə savaşan tərəfləri dəstəkləyirlər?

Bəli, İŞİD və onun kimi başqa qruplar "İslam xilafəti" quracağını bəyan edib, 7-ci əsr qaydalarına uyğun dövlət qurmaq istəyir, metodu da qəddar və sərtdir. O da aydındır ki, nə Rusiya, nə də ABŞ İŞİD-in qurduğu dövlətlə qonşu olmağa hazırlaşmır. Amma yenə də ona qarşı bir cəbhədə ola bilmirlər.

Bunun isə əslində sadə səbəbi var: Çünki hər iki tərəf öz marağı üçün savaşır. Vyetnamda, Əfqanıstanda olduğu kimi savaşan əslində Amerika və Rusiyadır. Vyetnamda rəsmi olaraq 52 min Amerika əsgəri, Əfqanıstanda 15 min yenə rəsmi olaraq Sovet əsgəri bu ölkələrin daxili münaqişələrini, hansı ölkədə hansı rejimin qalib olmasına görə ölmədi. Və təbii ki, 60-cı illərdə dünyada mübarizə ideologiyası olaraq kommunizm dəbdə idi. İndi isə savaş üçün münasib şərtlər müsəlman dünyasında yaranıb və islamçılıq ən rahat savaş vasitəsinə çevrilib - eləcə də müsəlmanlar.

Bu mənada nə Əfqanıstan, nə də indi Suriyada savaş müsəlmanların savaşı deyil, baxmayaraq ki, savaşan tərəflər müsəlmanlardır. Qəbul etmək nə qədər ağır olsa da, müsəlman ölkələri, müsəlmanlar bu savaşın vasitələridir. Müəyyən amillər səbəbindən savaşın yeri müsəlman ölkəsi və tərəfləri müsəlmanlar olub.

Təbii ki, İranın, Türkiyənin, Səudiyyə Ərəbistanı, hətta Qətərin belə Suriya məsələsində hansısa mənfəətləri var. Amma bu, həlledici, 4 illik savaş apармaq üçün ediləcək savaş deyil. İranın Bəşər Əsədin qalması və bunun vasitəsilə Livana qədər uzanan strateji xətti qoruyub saxlamaq hədəfi var. Türkiyənin və Səudiyyə Ərəbistanının bu xətti qırmaq, Suriyada özünə yaxın rejim qurmaq kimi istəkləri var. Bu istək hər zaman olub, lakin heç zaman Səudiyyə Ərəbistanı Əsədi devirmək üçün müharibə etməyib. Hətta 1980-ci illərdə Hama qırğını zamanı belə bunu etməyə çalışmayıb. İndi bir-birinə düşmən olan, az qala efirdən lənət oxuyan müsəlman liderlər 5 il əvvələ kimi yaxın dost idilər, savaş bitdikdən sonra da dostlaşa bilərlər, ən azı hakimiyyətlər səviyyəsində.

Bu mənada yenə yuxarıdakı abzasa qayıtsaq, aydın olur ki, Suriyada savaşın həqiqi tərəfləri Rusiya və Amerikadır, daha doğrusu, onların maraqlarıdır. Müsəlmanlar isə bu savaşın, sadəcə, kiçik maraqları uğurunda savaşdırılan tərəfləridir. Bu savaşın ideologiyası məzhəb və ya islam radikalizmi (necə istəsəniz, adlandıra bilərsiniz), döyüşçüləri böyük ölçüdə müsəlmanlar, döyüş meydanı isə müsəlman ölkəsidir.

O da aydındır ki, tezliklə ABŞ və Rusiya Suriya mövzusunda anlaşsalar və ya Vyetnamda, ya da Əfqanıstanda olduğu kimi, tərəflərdən biri uduzub geri çəkilsə, savaş dayanacaq. Amma təbii ki, bu savaşın yaraları və Əfqanıstanda təməli qoyulmuş məzhəb savaşının, dini təkfirçilik sonradan İraq savaşında "yararlı alət" olduğu kimi çox güman ki, Suriya savaşında formalaşan "alətlər" də növbəti savaşlar üçün yaxşı vasitə olacaq. Yəməndə artıq bunun ilkin əlamətləri var.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

**200 minlik əhalisi ilə yarımsəhralıq coğrafiyada yerləşən Raqqa şəhəri... "İslam Dövləti" (İŞİD) adlanan təşkilat 2014-cü ildə onu öz paytaxtı elan edənədək çox az adam bu şəhər barədə eşitmişdi.**

# Bu şəhərdə küçəyə çıxan qadınlar zorla ərə verilir

## İŞİD-in paytaxt elan elədiyi Raqqada əhali ilə birgə ekstremistlərin də vəziyyəti gündən-günə ağırlaşır...



Raqqa şimal-şərqi Suriyada yerləşir. Əslində son bir neçə əsr ərzində bu şəhərin elə bir əhəmiyyəti də olmayıb. Bura yalnız Suriyanın qərbdəki əsas şəhərləri ilə İraqın Mosuldan Bağdadadək qərbdə yerləşən şəhərləri arasında qovşaq məntəqəsi idi.

Bu şəhər ən böyük dəyişikliyi ötən əsrin 70-ci illərində - yaxınlıqdakı Fərat çayı üzərində nəhəng su-elektrik bəndi tikiləndə yaşayıb. O zaman böyük aqrar layihələr Suriyanın başqa yerlərindən bura yeni imkanlar axtaran əhalinin axınına səbəb olmuşdu. Bu hadisə bölgənin demoqrafiyasını dəyişmişdi.

Raqqa Suriyanın bütün hissələrinə, habelə İraqa gedən yolların üstündə, geniş yarımsəhra ərazidə yerləşir. Görünür məhz buna görədir ki, "İslam Dövləti" adlanan təşkilat bu şəhəri özünə "paytaxt" seçib.

Bu şəhərdə vaxtilə özəl universitet və bəzi dövlət kollecləri olub. Raqqa bir vaxtlar kafelərlə dolu idi və yay aylarında adamlar gecənin gec saatlarınadək parklarda gəzər, restoranlarda yeyib-içər, qadınlar və kişilər bir-birinə qaynayıb-qarışardılar. İŞİD bu şəhəri ələ keçirməzdən əvvəl burada Əsəd rejiminə qarşı təşkil edilən mitinqlərə qadınlar kişilərlə birlikdə qatılırdılar.

Raqqa əyalətində sənaye yox idi və ölkənin böyüklüyünə görə üçüncü vilayətində işçilərin çoxu ya fermerlər, ya da hökumət qulluqçuları idi. Tayfa həyat tərzi və münasibətləri bu yerlərdə hələ də çox güclüdür.

Şəhər Qərbi İraqdakı tayfalara qohumluğu olan sünni ərəb tayfaları tərəfindən məskunlaşıb. Bu şəhərdə, habelə vilayətin Eyn İssa kimi başqa şəhərlərində kürd azlığı da vardı. Lakin Suriyanın başqa yerlərində kürdlərlə İŞİD arasında döyüşlər başlanandan sonra Raqqadakı kürdlər şəhərdən qovuldular.

İŞİD qrupu şəhər üzərində tam nəzarəti ələ aldıqdan və başqa qiyamçı qruplaşmaları buradan qovduqdan sonra Raqqadakı idarəetmə yerli peşəkarlar və keçmiş məmurlar tərəfindən həyata keçirilir. Cihadçıların şəriət hakimləri şəriət qanunlarını və xüsusi şəriət məhkəmələrini yaradıblar.

Raqqa şəhərinin və əyalətinin rəhbəri "vali" adlanır. Onun tabeçiliyindəki əmirlər şəhər idarəetməsinin müxtəlif sahələri üçün cavabdehlik daşıyırlar. İŞİD qruplaşması tərəfindən tətbiq edilən cəza və cərimələr o qədər ağırdır ki, burada hakimiyyətə hər hansı şəkildə etiraz etmək divanəlik olardı. İctimaiyyət qarşısında boyunların vurulması ilə edamlar geniş yayılıb. İŞİD hökmranlıq etmək üçün qəddar gücə və zorakılığa əl atır. Cəzaları adətən əcnəbi cihadçılar icra edirlər.





İlk vaxtlarda şəhərdə qalan əhali İŞİD hakimiyyətinə bir növ uyğunlaşmışdı. Çünki bu hakimiyyət müəyyən təhlükəsizlik və qanun-qaydanı, habelə xidmətləri və ərzaq təchizatını təmin edirdi. Lakin Rusiya və Fransanın bombardmanlarının intensivləşməsi ilə elektrik və su xətlərinin sıradan çıxması şəhər əhalisinin həyatını xeyli ağırlaşdırıb. İndi artıq burada həm də yanacaq qıtlığı var, çünki neft qurğuları və neftayırma zavodları hava zərbələri ilə dağıdılıb.

Yeniyetmə qızların və qadınların evdən çıxmasına yalnız onlara qohum kişi xeylağının (bu adətən onların atası, qardaşı və ya ərləri olur) müşayiəti ilə icazə verilir və başdan ayağadək bütün vücudu örtən niqabın geyinilməsi bütün qadınlar üçün icbaridir. Burada kişilərin geyimi də daxil olmaqla şəriət qanunlarının icrasına nəzarət edən xüsusi polis fəaliyyət göstərir.

Siqaret çəkmək qadağandır və belə edənlər "əl-Hisba" adlanan şəriət polisinin əlinə keçəndə məsələ şallaqla qurtarır. Gündüz saatlarında bütün kişilərin namaz üçün məscidə gəlməsi məcburidir. İŞİD qrupunun qanunlarından biri də budur ki, mobil telefonunda qadın şəkli tapılan hər bir kəs 30 şallaqla cəzalandırılır. Futbola tamaşa etmək də qadağandır. Matçlara tamaşa etmək imkanı yaradan kafelər bağlanır.

"Xansa batalyonu" kimi tanınan qadın polisi küçələrdə keşik çəkərək qadınların İŞİD-in qaydalarına uyğun geyinmələrinə nəzarət edir. Bu batalyonun üzvləri əsas etibarilə İŞİD qrupu döyüşçülərinin arvadlarıdır. Onlar geyim qaydalarını pozanları cəzalandırır və qadın məhbuslara işgəncələr verirlər.

Gözəllik salonları bağlıdır. Qadınların çoxu Xansa batalyonu ilə üzləşməmək, habelə hər hansı subay və ya dul cihadçıya zorla ərə verilməmək üçün evlərini tərk etmirlər. Öldürülmüş İŞİD yaraqlılarının arvadlarını da yenidən başqa cihadçılara ərə getməyə məcbur edirlər. Onlara uşaq doğmaları məsləhət görülmür, belə ki, nikahlar uzun sürmür. Gənc ərlərin əksəriyyəti ön cəbhədədir və hər an öldürə bilərlər.

Belə bir ehtimal var ki, əcnəbi döyüşçülər axıradək vuruşmağa məcburdurlar. İŞİD-ə qoşulan avropalı qadın döyüşçülərin də qaranlıq bir gələcəyi var. Raqqadakı suriyalıların əksəriyyəti inanır ki, İŞİD-in hakimiyyətinə bir gün son qoyulacaq. Lakin o vaxtadək repressiya və zorakılıqlar davam edəcək (BBC).

---

# Bir damcı qan verin...



Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Bir xəbər gördüm, şokolad fabriki "Bir damla qan qurtarılan bir can" adlı qanvermə aksiyası keçirib. Qan xəstəliyindən əziyyət çəkən uşaqlara və bədbəxt hadisələr nəticəsində xəsarət alanlara təmənnasız yardım etməkçün. Yaxşı təşəbbüsləri dəyərləndirmək lazımdır, fərqi yoxdur bu aksiyanı kim keçirir. Xüsusilə də qanla bağlı...**

Bir müddət öncə mənə yaxın olan 18 yaşlı gənc dünyasını dəyişdi, qan xəstəliyindən. Hər ay qan vurulurdu. Damarlarında o qədər insanın qanını daşıyırdı ki... Ancaq olurdu ki, kritik anlarda bütün qohum-qardaş qan sorağına düşürdü, qan qızıl qiymətinə olsa belə...

Nardaranda qan tökülməsi, 2 polis, 5 mülki şəxs itkisi xəbərini görəndə həmin o qan söhbətlərini xatırladım. Xəstəxanada rəngi avazımış uşaqları görəndə adamın ürəyi parçalanırdı. Son aylarda sıralarından üç nəfər dünyasını dəyişmişdi. O birilər də sanki "növbə"lərini gözləyirdilər, kədərli baxışları bunu deyirdi. Bu xəstələr yemək-içmək yox, qan möhtacıdılar...

Belə xəstələrimiz varkən, biz küçələrdə qan axıdırıq. Burada kimin haqlı, kimin haqsız olması barədə çox müzakirələr aparıla bilər. Amma yazılan və yazılmayan qanunlar var. Nardaran kəndi Azərbaycanın bir parçasıdır və burada yaşayanlar da Azərbaycan vətəndaşladır! Deməli, bu kənddə Azərbaycan qanunları işləməlidir. Yoxsa paytaxtın bir guşəsində tamam fərqli qaydaların tətbiqi, itaətsizlik yolverilməzdir!

Nardaran camaatının Azərbaycanın müstəqilliyində verdiyi töhfələr haqda çox danışılıb. Bu kənd ağsaqqalları ilə də məşhur olub. Elə isə nə baş verdi ki, qəfildən bu kənddə ağsaqqallıq funksiyasını kənardan gəlmiş radikal mövqeli birisi üzərinə götürdü, vəziyyət qan tökülməsinə qədər gəlib çıxdı?

Yaxşı ki, bazar günü camaat meydandan dağılmağa qərar verib, qarşıdurma yolu seçilməyib. Ancaq vəziyyətin bu həddə çatması da çox pis haldır. Bir kəndin barrikada qurması, meydana daş, dəmir parçalarının daşınması...bu, nə deməkdir? Biz kimi kimdən qoruyuruq?!

Ən təhlükəlisi bilirsiniz nədir? Nardarandakı uşaqların, yeniyetmələrin də bu prosesdə yer alması. Onlar uşaqdır, nə dediklərini hələ özləri dərk etmirlər. Amma polisə "kafir" deyirlərsə, meydana ağac və daşla gəlib döyüşəcəklərini söyləyirlərsə, bu, çox təhlükəli məsələdir. Bu düşüncəli uşaqlar böyüyəndə hansı qüvvələrin təsiri altına düşəcək, düşünmək belə qorxulu. Təkcə o balacaların valideynləri yox, elə Nardaran bələdiyyəsindən tutmuş, icra nümayəndəliyinə, təhsil şöbəsinə qədər hər bir qurumun təmsilçisində günah var.

Deyirlər ki, bu kənddə emissarlar işləyir, adamların beynini "yeyir". Yaxşı, necə olur ki, xaricdən gəlib təbliğatla burdakı uşaqların belə beynini "yeyirlər", amma buradakı müvafiq qurumlar illərdir öz təbliğatını aparmayıb? Niyə məhz bu gün aydın olur ki, Nardaran camaatının işığa olan borcu vurub kəllə-çarxa çıxıb? Təsəvvür edin, rəsmi məlumata görə, kəndin işığa 42 milyon 267 min, təbii qaza görə isə 1 milyon 376 min manat borcu var.

Nə üçün cavabdeh qurum zaman-zaman borcun azaldılmasına çalışmayıb? Necə olur ki, Tovuzun erməni ilə üzbəüz Əlibəylisində yaşayan Qarabağ döyüşçüsü işıq pulunu qəpiyinə qədər ödəyir, amma Bakının mərkəzində illərin borcu yığılır? Bəlkə elektrik enerjisinin bu kəndə pulsuz verilməsi barədə dövlətlərarası razılaşma olub, xəbərimiz yoxdur? Əgər əhalinin imkanı yoxdursa, onların işlə təmin olunması üçün qərarlar verilməlidi. Yaxud başqa bir problem: niyə Nardaran kimi 10 minə qədər əhalisi olan Nardaranda indiyədək qaz problemi həllini tapmayıb? Onlara heç olmasa ümid vermək lazım idi bu illərdə.

Bəli, Nardaran problemini birdəfəlik həll etmək lazımdır, özü də top-tüfənglə yox. Kompleks tədbirlərə ehtiyac var. Təbii ki, dövlətə qarşı çıxanlar, qanunları tanımayıb başının üstündə ayrı ölkənin bayrağını daşımaq istəyənlər olarsa, onlarla özgə dildə danışmaq lazım gələcək. Lakin azacıq ehtiyatsızlıq fəlakətlərin miqyasını böyüdə bilər.

Azərbaycanı İraqa, Suriyaya döndərmək istəyənlərin mövcudluğu daha heç kəsdə şübhə doğurmur. Təhlükəsli ssenarilərin işə salınması üçün fürsət gözləyənlər də marıta yatıb. Bu gün havadan qan qoxusu gəlir, bu, çox qorxuludur. Qarşıdakı düşmənlə döyüşməyə nə var ki. Zatən Azərbaycan insanı illərdir Qarabağ uğrunda qanından, canından keçməyə hazır olduğunu deyir. Elə Nardaranda da. Bir də ki, uşaqlar var bir damla qana möhtacdır. Qan tökməyə susamayın, imkan düşəndə qan verin. İbadətin özüdür, savabdır...

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

# Sosial ədalətsizlik qızları və azyaşlıları cinayətə sürükləyir

## Psixoloq: "Elə insanlar da var ki, onlar bilmirlər ki, dərsə getsin, iş axtarsın, yoxsa çörək pulu tapsın"

**"Tələbə qız evində kirayə qaldığı qadını öldürdü", "Tələbə qız bacısının başını kəsdi" və ya "4-cü kurs tələbəsi qız özünü damdan atıb intihar etdi" kimi ağır xəbərlərə tez-tez rast gəlirik. Son dönəmlərə diqqət etsəkb görərik ki, cinayət törədənlər, intihar edənlər arasında gənclər, xüsusən də tələbə qızlar üstünlük təşkil edir.**

Dövlət Statistika Komitəsindən modern.az-a verilən məlumata görə, 2015-ci ilin birinci yarısında cinayət törətmiş 14-18 yaşadək olan uşaqların sayı 239 olub ki, bunun 232 nəfəri oğlanlar, 7 nəfəri isə qızlardır. Məlumata əsasən, 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə cinayət törətmiş uşaqların sayında azalma olub. 2014-cü ilin birinci yarısı 242 cinayət hadisəsini də 14-18 yaşadək uşaqlar törədib ki, bunun da 232 nəfəri oğlanlar, 10 nəfəri isə qızlardır. 2015-ci ilin birinci yarısında bu yaş qrupunda olan uşaqların 6 nəfəri (5-i oğlan, 1-i qız) qəsdən adam öldürmə və adam öldürməyə cəhddə, 17 nəfəri (17-si oğlan) qəsdən sağlamlığa zərər vurmada, 122 nəfər (120-si oğlan, 2-si qız) oğurluqda, 2 nəfər (oğlan)soyğunçuluqda, 5 nəfər (oğlan) quldurluqda, 2 nəfər 9 (oğlan) dələduzluqda, 16 nəfər (oğlan) xuliqanlıqda, 5 nəfər (oğlan) narkotik vasitələrlə bağlı cinayətlərdə, 11 nəfər (10-u oğlan, 1-i qız) hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlərdə, 53 nəfər (50-si oğlan, 3-ü qız) digər cinayətlərdə təqsirləndirilir. 2015-ci ilin birinci yarısı 142 nəfər 14-18 yaşadək olan uşaqlar məhkum edilib ki, bunların 139-u oğlan, 3-ü qızlardır. 2014-cü ilin müvafiq dövründə isə məhkum edilmiş 14-18 yaşadək uşaqların sayı 150 nəfər olub ki, bunun 148 nəfəri oğlanlar, 2-si isə qızlar olub. 2015-ci ilin birinci yarısınadək məhkum edilmiş 14-18 yaşadək uşaqların 18 nəfəri 5 ilədək, 26 nəfəri 5 ildən 10 ilədək azadlıqdan məhrum edilib. Bu müddətdə 14-18 yaşadək məhkum edilmiş uşaqların 41 nəfəri cərimə olunub, 12 nəfəri islah işlərinə, 1 nəfəri ictimai işlərə, 44 nəfəri isə şərti məhkumetməyə cəlb olunub.



Maraqlıdır, azyaşlıları, tələbə qızları bu cür amansızlığa vadar edən nədir, sosial gərginlik, maddi sıxıntı, yoxsa tam başqa səbəblər?

Psixoloq Dəyanət Rzayev bütün bunlara səbəbin sosial ədalətsizlik və maddi sıxıntı olduğunu dedi: "Son vaxtlar cinayət törədən gənclərin, xüsusən də gənc qızların ruhi xəstə olduğu deyilir. Mən sizə deyim ki, ruhi xəstələr çox nadir hallarda cinayət törədirlər. Amma kirayədə yaşadığı evin sahibəsini öldürən tələbə qızın hərəkəti daha çox psixopatiyaya bənzəyir. Qadınlarda psixopatiya nadir hallarda olur. Bu olaysahibəsinin də normal bir insan olmadığını göstərir. Ola bilər ki, tənha qadın olub və qızın sevgilisinin məhəlləyə gəlməsini qısqanıb. Ümumiyyətlə, potensial qəddar insanlar olur ki, onlarda özlərinə məxsus psixologiya və ideologiya olur. Potensial qəddar insanların saçlarında karmerat qurğuşun elementi daha çox olur. Bu insanlar zəhərlənməyə meyillidirlər. Məsələn, tələbə qızın ev sahibəsini öldürməsi hadisəsində qız da, ev sahibəsi də düzgün etməyib. Əgər ev sahibəsi xoşuna gəlmirdisə, qız onu öldürmək əvəzinə başqa bir evə köçə bilərdi. Ev sahibəsi də, ola bilər ki, qızın sevgilisi ilə görüşünə mane olub. Amma bu, o demək deyil ki, kiminsə həyatına son qoymalısan. Qızın psixikasında müəyyən problemlər olub. Çünki qəddarcasına öldürmək bu düşüncəyə səbəb olur".

Psixoloq gənc tələbə qızların cinayət törətməsinə sosial vəziyyətin çətinliyinin və insanların yaşayış səviyyəsinin aşağı olmasının da səbəb olduğunu dedi: "Kimin ki, yeməyi, içməyi, normal yaşayış səviyyəsi var, o insanlar daha rahat və sakit olur. Amma elə insanlar da var ki, onlar bilmirlər ki, dərsə getsin, iş axtarsın yoxsa çörək pulu tapsın. Mağazalarda qiymətlər bahadır. Bütün bunlar insanda gərginlik yaradır. İnsan ac olanda daha aqressiv olur. Həm də bəzən olur ki, bir neçə problem üst-üstə düşür. Ola bilər ailədə konfliktlər olsun, ailənin anlayışları fərqli olsun. Azərbaycandakı sosial problemlər bu cinayətlərin, intiharların artmasına səbəb olur. İnsanlar nəyə görə özlərini öldürür?! Ailəsini dolandıra bilmədiyinə, banka olan borclarına görə bu yola əl atırlar. Bütün gərginliklər, maddi vəziyyətin çətinliyi insanları bir anlıq asert vəziyyətə düşürür. Asert qısa müddətli kəskin keçən emosiyadır. Bu vəziyyətdə insan nəsə edir və sonra başlayır düşünməyə ki, mən nə etdim. Bu zaman insan sırf emosiyalarla hərəkət edir, düşüncələrlə yox. Əvvəllər də sosial problemlər vardı, amma bu qədər cinayətlər, intiharlar yox idi. 1990-cı illərdə büdcə indikindən daha az idi. Ancaq o zaman insanlarda ümid vardı, gözləri işıldayırdı ki, hər şey yaxşı olacaq. Bu qədər sosial ədalətsizlik yox idi. İnsanlar bir-biri ilə mehriban idi, təbəqələşmə yox idi. İndi isə hansısa varlı insan bahalı maşını ilə gedib kimisə vurur öldürür, onu cəzalandırmırlar. Sosial ədalətsizlik həddindən artıq çoxalıb".

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda**

- Arı südü
- Mumiya
- Möhtəşəm ağ bal
- İssık-Kul balı
- Esparset balı
- Çayek balı
- Şan balı
- Karkıra balı və s.

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
Əlaqə nömrəsi (050) 264 49 99

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Sadıqov Sənan Vaqif oğlunun etibarnamə ilə Salahov Tural Məmməd oğluna verdiyi evin sənədləri itdiyi üçün etibarsız sayılır.**

# Masallıda ana 8 aylıq körpəsi ilə yoxa çıxıb

**Masallı rayonunda ana və körpəsi itkin düşüb. Lent.az-ın məlumatına görə, Hüseynhacılı kənd sakini Quliyeva Ramilə Yusif qızı noyabrın 13-də gecə saatlarında qızı - 8 aylıq Zarina ilə evdən çıxaraq naməlum istiqamətə gedib.**

Həmin vaxtdan etibarən R.Quliyeva ilə əlaqə saxlamaq mümkün olmayıb. Yaxınları R.Quliyevanın və körpəsinin xarakterik əlamətlərini polisə təqdim edib. Axtarış tədbirləri davam etdirilir.

Ana və körpəsi barədə məlumatı olanlar Masallı rayon Polis Şöbəsi ilə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərlər: 021 255 61 34; 070 942 55 48.

YENİ MÜSAVAT
N 266 (6294) 30 noyabr 2015

**Son bir neçə günün ən çox müzakirə olunan mövzularından biri də reydlər zamanı yaxalanan sərxoş qadın sürücülərdir. Bu zaman özlərini hədsiz dərəcədə tərbiyəsiz aparan qadınlar ilk baxışda ikrah doğurur. Onlar polisi saymır, onlarla olduqca pis davranırlar, hadisə yerindəki jurnalistləri təhqir edirlər və sair. Təbii ki, bu mənzərələrin sayı artdıqca sürücü qadınlara da içdən-içə bir aqressiya yaranır. Cəmiyyətdə onların hamısının bu cür olması barədə təəssürat yaranır. Onsuz da bu günə qədər nəqliyyatda qadın sürücülərə qarşı qeyri-adekvat münasibət özünü göstərirdi. İndən belə...**

# Qadın sürücülər içki şüşəsində niyə boğulur?

## Statistik rəqəmlər bir şey deyir, reallıq isə başqadır; onları cəsarətləndirən imkanlı olmalarıdır, yoxsa?

Aprel ayındakı statistikaya nəzər salaq. 2015-ci ilin əvvəlindən aprelə qədər 150 sürücü qadın sərxoş avtomobil idarə etdiyi üçün saxlanılıb. Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi Vaqif Əsədov həmin vaxt bildirmişdi ki, keçirilən reydlər zamanı sərxoş sürücülər arasında qadınların da sayı artır.

“İlin əvvəlindən bu günə qədər reydlər zamanı 150 sərxoş qadın sürücü müəyyən edilib. Çox təəssüflər olsun ki, həmin xanım sürücülər arasında ciddi qanun pozuntularına görə bir neçəsi də həbs edilib”, -deyə Vaqif Əsədov bildirib.

Yol polisi onu da açıqlamışdı ki, polis əməkdaşlarına qarşı kobudluq edən qadın sürücülərə də rast gəlinib. Onlar barəsində də hüquq mühafizəsində tədbirlər görülüb.

### Qadınları kişilər içirdir?!

“İmkanlı kişilər qadınlara 400 minlik maşın hədiyyə edirlər. Deyirlər ki, al sür, istədiyini elə! Onlar da içib bara gedirlər...”. Bunu azvision.az-a açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Millət vəkili son günlər içkili vəziyyətdə sükan arxasına oturan qadınların sayının artmasına münasibət bildirib.

Qeyd edib ki, qadınların içki içmələri, əxlaqsızlıqla məşğul olmalarının kökündə bir sıra ciddi məqamlar durur. Onun sözlərinə görə, bu çox təhlükəli bir haldır: “Ölkəmizdə qadınların əxlaqsızlıq etmələri və insan alveri ilə məşğul olmaları ilə bağlı kifayət qədər problemlər mövcuddur. Buna qarşı cəmiyyətin ümumi mübarizəsi yoxdur. Qadınların xeyli hissəsi pis alışqanlığa düçar olub. Azərbaycan cəmiyyətinin içkiyə aludəçiliyi çox yüksəkdir. Bu çox üzücü bir haldır. Bu gün barlarda gecə həyatı yaşayan çoxlu sayda qadın var. Hesab edirəm ki, hazırda ölkədə əxlaqla bağlı çox ciddi aşınma prosesi gedir. Bunun qarşısını almaq üçün cəmiyyətin səfərbər olması lazımdır”.

Deputatın sözlərinə görə, içkili vəziyyətdə avtomobil idarə edən qadınların öz himayədarları var: “Qadınların içkili formada maşın idarə etmələri daha çox onların himayə olunmaları ilə bağlıdır. Özünə arxayın olmayan adam içkili formada sükan arxasına oturmur. Bəzi şəxslər öz himayələrində olan və qeyri-qanuni formada münasibət qurduqları qadınlara maşın alıb verirlər və onları küçəyə buraxırlar. Nəticədə həmin qadınlar yollarda bildiklərini edirlər”.

Psixoloqlar isə hesab edirlər ki, haqq etmədiyi mərtəbəyə yüksələn bütün insanlar üçün bu hal keçərlidir. Onlar öz hesablarına yox, başqalarının pulu, gücü hesabına əldə etdikləri üstünlüklərdən bu cür sui-istifadə edirlər. Haqqında danışdığımız nümunəyə gəlincə, ailə-uşaq məsuliyyəti olan qadın heç bir zaman maşını içkili vəziyyətdə idarə etmir. Onlar bu halda özlərinə çox arxayın olduqları üçün və hətta öz canlarını da heçə saydıqları üçün belə riskə gedirlər.



### İş yerində həftədə 48 saatdan çox vaxt keçirən qadın... içkiyə meyilli olur?

Dünyanın 14 ölkəsini təmsil edən alimlər tərəfindən aparılmış araşdırmanın nəticələrinə əsasən, insanın gündəlik işə sərf etdiyi vaxtla onun spirtli içkilərə aludəçiliyi dərəcəsi arasında birbaşa asılılıq müəyyən edilib. Alimlərin qənaətinə görə, iş yerində həftədə 48 saatdan çox vaxt keçirən kişi və qadın işçilər spirtli içkilərdən daha tez-tez istifadə edirlər.

Bundan əvvəl belə bir rəy geniş yer almışdı kı, 48 saatdan artıq iş həftəsi insanda ürək-damar, depressiya, narahatlıq, yuxusuzluq və bu kimi digər xəstəliklərin riskini artırır.

Bütün bu xəstəliklər alkoqol istehlakı ilə əlaqələndirilirdi, lakin çox işləməklə spirtli içkilərə aludəçilik arasında birbaşa bağlılıq müəyyən edilməmişdi.

Yeni elmi tədqiqat Britaniyada nəşr olunan tibbi jurnalda dərc edilib. Tədqiqat Belçika, Böyük Britaniya, Almaniya, Danimarka, İspaniya, Kanada, Yeni Zelandiya, ABŞ, Tayvan, İsveç kimi inkişaf etmiş iqtisadiyyatlar da daxil 14 ölkə üzrə keçirilib.

Həmin ölkələrdən 400 min nəfər tədqiqat çərçivəsində müşahidə edilib. Tədqiqatın nəticələrinə görə, çox işləyənlər arasında alkoqolizm riski normal iş həftəsi olanlarla müqayisədə bütövlükdə 11 faiz artıq olub.

Həftədə 48 iş saatı əvəzinə 49-54 saat çalışanların həftədə 35-40 saat işləyənlərlə müqayisədə alkoqolizmə meyillilik riski 13 faiz çox çıxıb.

Spirtli içkilərin riskli istehlakı qadınlar üçün 14, kişilər üçün isə 21 alkoqol vahidinə bərabərdir; müvafiq olaraq bu miqdar qadınlar üçün 1220 ml qırmızı şərab deməkdirsə, kişilər həmin risk həddi ilə, misal üçün, bir həftəyə 4 litr pivə içdikdən sonra üzləşirlər.

### RUS qadınların içkiyə meyli və dünyaya gətirdiyi xəstə uşaqlar

Rusiyada aparılan araşdırmalarda isə üzə çıxıb ki, alkoqol düşkünü olan anaların dünyaya gətirdiyi uşaqlarda zahirdən ağıldankəmlik hiss olunur. Bu cür uşaqların üzünün orta hissəsi və beyni lazımi qədər inkişaf etmir. Dünyanın bütün ölkələrində bu cür uşaqlar oxşar qüsurlarla doğulur: gözlərində çəplik, qulaq seyvanı böyük, ümumi fiziki inkişafdan qalma, alçaqboy və s. olurlar. Bu cür bioloji xüsusiyyətlər bütün xalqlar üçün hamilə qadının alkoqoldan istifadəsinin göstəricisidir.

Rusiyada aparılan monitorinqlər orta məktəbdə oxuyan qızlar arasında spirtli içkilərdən geniş istifadəni də üzə çıxarıb. Belə ki, məktəbli qızlar spirtli içkilərdən mütəmadi istifadə edirlər. Ancaq eyni yaşda oğlan uşaqları arasında isə Rusiyada rəqəmlər o qədər də yüksək deyil. Daha doğrusu, oğlanlar alkoqolla tanışlığa daha gec başlayırlar. Monitorinq qrupunun rəhbəri Yelena Varavikova bildirib ki, ölkədə alkoqoldan istifadə səviyyəsi gələcək nəsillərin və əhalinin sağlamlığını risk altında qoyur. Belə ki, alkoqol hamiləliyin normal müddətini pozur. Bu hətta, uşaqsalmaya, ölü doğuşlara, rüşeym dövründə pozuntulara və eybəcər uşaqların doğulmasına səbəb olur. Rusiyada bu sindromdan əzab çəkənlərin ümumi sayı məlum olmasa da, liçkili sonluğ»un genişlənməsi Rusiya uşaq evlərinə “daun” sindromu ilə yerləşdirilən uşaqların bir neçə dəfə çoxaldığını ortaya çıxarıb. “Əgər qadın hamiləlik dövründə alkoqoldan istifadə edirsə, demək, o, buna erkən yaşlarından aludə olub. Ancaq Rusiyada hamiləliklərin yarısı planlaşdırılmamış olduğundan, qadınlar öz vəziyyətlərini bilmədən içməkdə davam edirlər”.

Tədqiqatlar göstərir ki, analar xüsusən hamiləlik dövründə alkoqol qəbul edərkən bu, doğulacaq uşaq üçün böyük risk yaradır. Bu, həmçinin ailənin gələcəyi və ölkə üçün təhlükəli sayılır. “Hazırda Rusiyada həkimlərin nevroloji status qoyduğu çoxlu sayda uşaqlar böyüyür. Bu o deməkdir ki, bu uşaqlar alkoqol düşkünü olan analar tərəfindən dünyaya gətirilib. Rüşeymin inkişafı dövründə onlara psixoloji, fiziki və emosional inkişafın pozğunluğu diaqnozu qoyulub. Həmçinin Şərqi Avropadan qəyyumluğa götürülən uşaqların da əksəriyyətində nevroloji problemlərin ortaya çıxması analarının içkidən istifadəsi ilə əlaqədar olub”. Hazırda Rusiyada doğulan uşaqların çoxunda rüşeymin inkişafı dövründə alkoqol pozuntuları aşkarlanıb. Belə ki, həmin analar həftə ərzində dozadan 7 dəfə çox alkoqoldan istifadə edirlər...

### PULU varsa, cəriməni ödəyəcəyini də bilir - daha bir “məntiq”

Azərbaycanlı qadın sürücülərin hərəkətinə qayıdaq. Fakt göstərir ki, bu hal həm də yaş həddi ilə bağlıdır. Gənc xanımlar bəzən çevrəsindən fərqlənməmək üçün spirtli içkilərdən kifayət qədər çox istifadə edirlər. Bunu özünütəsdiq kimi də qəbul etmək olar. Bu mənada özünütəsdiq üçün qadınların nəinki spirtli içkilərə qurşandığını, hətta narkomaniyaya aludə olduğunu, erkən cinsi münasibətlərə başladığının da şahidi oluruq.

Konkret bu halla bağlı Baş Dövlət Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev “Yeni Müsavat”a açıqlamasında danışıb. O deyib ki, bu mənzərənin yaranmasında bir neçə amil rol oynayır. Belə ki, maddi rifahın yüksəlməsi ilə bağlı ölkədə avtomobil idarə edən qadınların da sayında bir artım yaranıb. Onun sözlərinə görə, onlardan bəziləri sürücülük təcrübəsinin artması səbəbindən daha mükəmməl idarə etməyə qadir olduqlarını fikirləşib, alkoqollu içki də qəbul edirlər: “Bunların hamısı da yollarda sərxoş qadınların artmasına təsir edir. Dediyim kimi, maddi durumla bağlı məqamlar da var. İnsan bu gün fikirləşsə ki, hansısa qayda pozuntusuna görə bu cəriməni ödəmək iqtidarında deyil, bundan çəkinər. Amma dediyim kimi, bunların hamısı bir səbəb deyil. Bir neçə amilin təsiri nəticəsində xanım sürücülər də sükan arxasında alkoqollu içki qəbul edib, əyləşirdi”.

Müsahibimiz “sərxoş qadın sürücülərin sayının bu dərəcədə kəskin artımı göstərir ki, bu günə qədər reydlər zamanı qadın sürücülər saxlanılmayıb” sualına cavabda isə dedi ki, reydlər zamanı sürücülərin cins kateqoriyası nəzərə alınmır: “Sadəcə, plan əsasında müəyyən reydlər aparılanda qadın sürücülər də aşkara oluna bilər. İçkili qadınlar hər zaman olub. Hətta bir neçə il bundan əvvəl avtoxuliqan qadınlar da vardı. Əvvəl qadın sürücülərin sayı az idi. Amma say çoxaldıqca pozuntuların da sayı artdı. O baxımdan bir-iki qadın reyd vaxtı saxlanılırdısa, qadın olmaları nəzərə alınaraq bu informasiya ictimailəşdirilmirdi. Məsuliyyətə cəlb olunurdular, amma ictimailəşdirilmirdi. Amma qadın sürücülərlə bağlı qayda pozuntuları, xüsusən də sərxoş qadın sürücülərin sayı artdıqca bunu ictimailəşdirmə zərurəti hiss etdik.

Çünki öncədən sürücü xanım fikirləşirdi ki, maddi imkanım var, cərimə də ödəyə, 6 ay-1 il sürücülük hüququndan da məhrum edilə bilərəm. Bunu nəzərə alıb, içə bilərəm. Amma bunun ictimailəşdirildiyini gördükdə ola bilər ki, təsiredici vasitə kimi ona təsir etsin, hərəkətinin qarşısını alsın. Onun özünün, həyatının qorunması, digər yol hərəkət iştirakçılarının təhlükəsizliyi üçün belə profilaktik tədbirləri keçirmək vacibdir. Amma hansı xanım hansı səbəbdən içib, içməzdən əvvəl nə düşünüb, bunu psixoloqlar dəyərləndirsə, daha yaxşı olar".

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 266 (6294) 30 noyabr 2015*


# 60 milyonluq toy

Dubayda qurduğu "Petroçem" adlı şirkətin gəlirləri ilə çox varlanan hindli milyarder Yogeş Mehta oğlunun toyu üçün 14 milyon dollar xərcləyib. İtaliyada təşkil edilən və 3 gün davam edən məclisə 500 nəfər dəvət edilib. 3 gün ərzində bir çox müğənni yeni evli cütlük üçün xüsusi konsertlər verib. İtaliyanın ən lüks hotellərində qalan qonaqlar üçün hind mətbəxinə məxsus xüsusi yeməklər hazırlanıb. Qonaqlarının ənənəvi hind geyimləri ilə gəldiyi toyda gəlinin əlindəki xına bəzəkləri hər kəsin diqqətini cəlb edib. Məlumatlara görə, bəy və gəlin ənənələrinə sadiq qalaraq toya fil üzərində gəlmək istəsələr də İtaliya bələdiyyəsi təhlükəsizlik məsələlərinə görə buna icazə verməyib.





## Şirin su enerjini artırır

İngiltərədəki Bath Universitetinin alimləri atletika ilə məşğul olmazdan əvvəl içinə bir xörək qaşığı şəkər qatılmış su içməyin enerji içkilərindən daha təsirli olduğunu deyiblər. Mütəxəssislərin həyata keçirdikləri təcrübələrdə velosipedçilər iştirak ediblər. Velosipedçilərin bir qisminə qlükoza, bir qisminə isə qlükoza və fruktoza molekullarından ibarət içki verilib. Yarışın sonunda qlükoza və fruktoza içən velosipedçilərin daha yaxşı yarışdıqları məlum olub. Araşdırmaçılar içərisində fərqli şəkər tipləri olan içkilərin bədənə daha tez sorulduğunu dilə gətiriblər. Həm də tərkibində şirniyyat olan içkilər orqanizmə xüsusi enerji verir.



## Dünyanın ən eybəcər kişisi

Hər il Afrika ölkəsi olan Zimbabvedə dünyanın ən çirkin kişisini seçirlər. "Cənab Çirkin" (Mister Ugly) adlı yarışda münsiflər tərəfindən ən yaraşıqsız kişi müəyyən olunur. Budəfəki qalib 42 yaşlı Mison Sere olub. O, münsiflərin rəyinə görə ən çirkin kişidir. Yarış bitdikdən sonra Mison Sere ilə "selfie" çəkdirənlər də olub. İndi o, nəinki ölkəsində, eyni zamanda, bütün dünyada da məşhurdur. Yarışda 2-ci yeri tutan şəxs - Villiam Masvinu nəticəyə etiraz edib. O bildirib ki, Mison yaraşıqlı oğlandır, 1-ciliyə özü layiq görülməli idi. Bu il birinci yerə layiq görülən Mison Sere heç bir xəstəlikdən əziyyət çəkmir, onun eybəcərliyi anadangəlmədir. Lakin 2002-ci ildə "Uqandanın ən yaraşıqsız kişisi" yarışında iştirak etmiş 47 yaşlı Qodfri Baqum naməlum xəstəlikdən əziyyət çəkdiyinə və bu səbəbdən eybəcərləşdiyinə görə yarışmanın qalibi olub. O, bu yarışa qalib gəlmək və ailəsi üçün pul qazanmaq ümidi ilə qatılıb. Qodfri xəstə olmasına baxmayaraq, 8 uşaq atasıdır.

# Sarımsağın faydaları

Sarımsaq həm çiy halda, həm də xörəkdə bişirilmiş halda istifadə olunur. Əsas faydalı cəhətlərindən biri infeksiyaya qarşı müqaviməti artırmasıdır. Bu baxımdan o həzm və nəfəs orqanları, ağciyər üçün daha faydalıdır. Sarımsaq yemək iştahanı artırır, qidanın həll olunmasına kömək edir, mədə rütubətini toplayır və aşağı salır, qatı qanı durulaşdırır. Turşuya qoyulmuş sarımsaq boğazı və səsi təmizləyir, huşsuzluq, üz iflici, sinir və oynaq ağrıları hallarında tövsiyə edilir. Mədədə qurd yaranmasının qarşısını alır. Hamilə qadın sarımsaq istifadə etdikdə uşağın rəngi açıq və xoşagələn olur. Sarımsağı qatıqla yemək iştahanı açır, mədə və həzm üçün münasibdir. Ağır və gec həzm olan qidaları sarımsaqla yemək məsləhətlidir. Sarımsaq həmçinin ürək əzələsini möhkəmləndirir, böyrək daşları hallarında da tövsiyə olunur. Sidik yollarının infeksiyasına qarşı təsirli vasitələrdən biridir. Onu qaynadaraq isti suyunda oturmaq sidikqovucu təsirə malikdir. Lakin sarımsağı həddən çox işlətmək qana, gözə və babasilə ziyandır. Sarımsağı bal ilə döyüb dəri üzərinə sürtməklə dəridə olan ləkələri təmizləmək mümkündür.






## Uşağını facebookda satdı

Bolqarıstanda facebook elanı ilə 6 aylıq uşağını satdığı təsbit edilən ana və uşağı alan qadın həbs edilib. Polislər 6 aylıq qız uşağını sosial media elanı ilə 250 dollara satın alan 2 qadını və uşağın anasını insan alveri etdiyi üçün həbs etdiklərini bildiriblər. Məlumata görə, uşağı 18 yaşlı qız satın alıb və həmin uşaqdan istifadə etmək niyyətindədir. Belə ki, gənc qız ayrıldığı sevgilisini uşaqları olduğuna inandıraraq onu geri qaytarmaq istəyirmiş. Qadınlar elanı internetdə adı açıqlanmayan bir şəxsin görməsindən və polisə xəbər verməsindən sonra həbs edilib. Uşağın anası isə körpə dünyaya gəldikdən sonra xəstəxananın pulunu ödəyə bilmədiyi üçün bu yola əl atdığını deyib.




**QOÇ** - Ulduzlar pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Bununla yanaşı, göstərilən təqvimdə uzaq yola çıxmaq olmaz.

**XƏRÇƏNG** - Ayın ən uğurlu gününü yaşayacaqsınız - desək, yanılmarıq. Çünki bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək.

**ŞİR** - Nədənsə son vaxtlar sağlıq durumunuzla bağlı problemlər baş qaldırmaqdadır. Bu səbəbdən də özünüzə fikir verməli, qida rejiminə riayət etməlisiniz. Soyuq və spirtli içkilərdən uzaq olun.

**QIZ** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**TƏRƏZİ** - Həddindən ziyadə uğurlu təqvimdir. Əlalxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq da səngiyəcək. Amma bugünkü təkliflərdən imtina etməlisiniz.

**ƏQRƏB** - Hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Yalnız saat 16-17 aralığı uğurludur. Axşama yaxınsa qonaq getmək olar.

**OXATAN** - Bürcünüzün uğurlu günlərindən birini yaşayacaqsınız. Düzdür, saat 12-yə qədər müəyyən gərginlik olsa da, sonrakı müddətdə ovqatınız çox yüksək olacaq. Müəyyən sürprizlər də gözlənilir.

**OĞLAQ** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək məharət deyil.

**SUTÖKƏN** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**BALIQLAR** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Pul məsələlərində isə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən cəlbedici robotu



Adını ilk dəfə Yaponiyada çəkilmiş "Sayanora" adlı filmdə eşitdiyimiz, dünyanın ilk insanabənzər robotunun "Germinaid F" olduğu açıqlanıb. Yeni robot ötən həftə təşkil edilən sərgidə ictimaiyyətə təqdim edilib. Gerçək bir qadına bənzəyən robotun olduqca cəlbedici görünməsi hər kəsin diqqətini cəlb edib. Robotu hazırlayan alimlər isə onun tam hazır olmadığını, üzərində iş aparıldığını deyiblər. Yaponiyadakı Osaka Universitetinin Hirosi İşiquo Laboratoriyası tərəfindən hazırlanan robot kauçukdan hazırlandığı üçün gerçək qadına bənzəyir. O, gülür, ağlayır, danışır, mimikalarını hərəkət etdirə bilir. Robotu hazırlayanlar əsas hədəflərinin daha yaxşısını hazırlamaq olduğunu deyiblər.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.300